Xalqın qəzeti!

# Xalq qəzeti

№ 177 (30293) 20 avqust 2023-cü il, bazar

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

## Günün sözü

**Prezident İlham Əliyev:**

**Biz unutmamalıyıq ki, İkinci Qarabağ müharibəsinin nəticələrinə baxmayaraq, bu gün Ermənistan cəmiyyətinin, hətta hökumətinin tərkibində müəyyən insanlar var ki, hələ də revanşist ideyalarla yaşayır və onlar bunu gizlətmirlər. Ona görə biz hər hansı bir ssenariyə hazır olmalıyıq.**

## Azərbaycan–Türkiyə əməkdaşlığı Türk birliyinin möhkəm təməlidir



**Türkiyə və Azərbaycanı bir-birinə bağlayan tarixi köklər və ortaqlıqlar o qədər güclü olmuşdur ki, bu birliyi rus işğalından sonrakı milli mənsubiyyətə görə basqılar dövründə, hətta sovetlərin dəmir hasarları arxasında unutdurmaq mümkün olmayıb.**

Düşmən dairələrin türklüyə qarşı qurduğu məkrli oyunlar hər iki xalqın tarixində qanlı izlər qoyub. Bir vaxtlar Türkiyə Sarıqamış faciəsindən, Çanaqqala savaşından, Mudros acısından keçdiyi kimi, Azərbaycan da 1918-ci il qırğınlarının, müstəqilliyin başlanğıcında isə Meşəli, Xocalı, Ağdaban, Bağanıs Ayrım... soyqırımlarının dəhşətlərini yaşayıb, Qarabağ 30 il erməni tapdağında qalıb. Amma qürurla qeyd edilməlidir ki, hər iki dövlətin qurucularının – Mustafa Kamal Atatürkün və Heydər Əliyevin Vətən sevgisi və xilaskarlıq missiyası xalqlarımızıa nicat və dünya birliyində layiqli mövqe qazandırdı.

Ümummilli lider Heydər Əliyevin "Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir", Mustafa Kamal Atatürkün isə "Azərbaycanın kədəri bizim kədərimiz, sevinci bizim sevincimizdir" kəlamları isə bu günün reallıqlarını ən yüksək səviyyədə ifadə edir. Bu baxımdan Azərbaycan–Türkiyə dostluğu və qardaşlığı bu gün dünyada misilsiz bir örnək təşkil edir.

Türkiyə–Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun icraçı direktoru Əvəz Səfərovla söhbətimiz də bu barədə oldu. Əvəz müəllim hələ sovet dövründə uzun illər Rusiyanın Moskva şəhərində yaşayıb və müxtəlif rəhbər vəzifələrdə çalışıb. Harada olub-olmamasından asılı olmayaraq əməli fəaliyyətinin önəmli hissəsini azərbaycançılıq ideyalarının təbliğinə həsr edib, diaspor fəaliyyətinin güclənməsinə çalışıb.

*(ardı 8-ci səhifədə)*

## "Lavrov planı": Görünən və görünməyən niyyətlər

**Hələlik nə rəsmi Bakı, nə də Ermənistan hakimiyyəti tərəfindən münasibət bildirilməyən bu plan ətrafında ictimai diskussiyalar davam edir. Ortalıqdakı yeganə fakt ondan ibarətdir ki, Rusiyanın Qarabağla bağlı təkliflərinin yer aldığı "Lavrov planı" adlanan sənəd Xankəndidəki separatçıların nümayəndəsi Tiqran Petrosyan tərəfindən yayımlanıb.**

Rusiya Xarici İşlər Nazirliyi tərəfindən hazırlandığı deyilən layihənin adında onun "Azərbaycanın keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində ermənilərin məskunlaşması üçün" təklif edildiyi vurğulanır. Madrid prinsipləri əsasında hazırlandığı ehtimal olunan layihədə yazılanları diqqətlə oxuduqda aydın olur ki, Azərbaycan qanunvericiliyi səviyyəsində ermənilərin bütün mədəni və humanitar hüquqlarının, eləcə də Qarabağın erməni əhalisinin özünüidarəetmə hüququnun ölkə qanunları çərçivəsində təmin ediləcəyi vəd olunur. 14 maddədən ibarət olan "Lavrov planı", yaxud təkliflər layihəsi "Azərbaycan SSR-in keçmiş Qarabağ vilayəti ərazisində erməni əhalisinin təhlükəsizliyinin və hüquqlarının Azərbaycan Respublikasının qanunvericliyinə uyğun təmin edilməsinin əsas prinsipləri və parametrləri" adlanır.



Təklif olunan layihədə ermənilərin açıq şəkildə Azərbaycan ərazisində yaşayacağı, ölkəmizin ərazi bütövlüyünü tam tanıyacağı və ən əsası, onların bizim daxili qanunlarımızla hərəkət edəcəklərinin göstərilməsi müsbət haldır. Bəzi ekspertlər "Lavrov layihəsi"nin ermənilərin Sovetlər dönəmindəki "Dağlıq Qarabağ Muxtar Vilayəti"nin yenidən dirçəldirməsi cəhdi kimi qiymətləndirirlər. Həmin layihədə, guya, ermənilərə vilayətin hüquq-mühafizə orqanlarında vəzifələrin verilməsi bəndinin yer aldığı söylənilir. 14 maddəlik layihənin bir çox müddəalarının Azərbaycan Respublikasının qanunvericiliyinə, daxili siyasətinə zidd olduğu, ermənilərə əlahiddə səlahiyyətlər tanımaqla ölkəmizdə yaşayan digər xalqların bərabərlik prinsipinin pozulması demək olar. Bakı dəfələrlə bəyan edib ki, Qarabağ ermənilərinin Azərbaycanın Konstitusiyasına uyğun olaraq söz, vicdan azadlığı, təhsil almaq və s. hüquqları olacaq. Yəni, digər etnik azlıqlar kimi ermənilərə də eyni şərait yaradılacaq, amma, yalnız qanunda göstərilən hüdudlarda. Fəqət, Qarabağ iqtisadi rayonumuzda yaşayan ermənilərin Ermənistana getmələri üçün Laçın yolunun tamamilə açıq saxlanması, gediş-gəlişin sərbəst olması qəbuledilməzdir. Ən azı ona görə ki, bu, Azərbaycanın daxili təhlükəsizliyinə zidd məqamdır.

**(ardı 4-cü səhifədə)**

## Ermənistanda siyasi məhbusların sayı getdikcə artır

**Ermənistan hakimiyyətinin ölkəmizi dünyada nüfuzdan salmaq, ləkələmək üçün istifadə etdiyi narrativlərdən (ingilis və fransız dillərində "narrative" sözü nəql etmək, nağıl danışmaq mənasını verir-S.H.) biri də, guya, Azərbaycanda insan hüquqları vəziyyətinin dözülməz olması ilə bağlıdır. Xüsusilə, özünü demokrat adlandıran, "məxməri inqilab" nəticəsində iqtidara gəldiyini vaxtaşırı vurğulayan, əslində isə hakimiyyəti qəsb edən Nikol Paşinyan bu iddiadan gen-bol istifadə edir. Düzdür, Vətən müharibəsindən – "dəmir yumruğun" zərbəsini hiss edəndən sonra Paşinyanın məlum istiqamətdə böhtanları bir qədər səngiyib. Buna baxmayaraq, İrəvan ölkəmizin daxili işlərinə qarışmağa ara-sıra uğursuz cəhdlər edir.**



Ermənistanın digər yalanı isə Qarabağdakı ermənilərin insan hüquqlarının pozulacağı səbəbindən Azərbaycana reinteqrasiya etmələrinin mümkünsüzlüyüdür. Halbuki, Qarabağdakı ermənilər xunta rejiminin girovluğunda olmağın, necə deyərlər, dərdini çəkməlidirlər.

**(ardı 3-cü səhifədə)**

## Okampo – beynəlxalq hüquq eksperti, yoxsa erməni katolikosu?

**Azərbaycanın BMT-dəki nümayəndəsi Yaşar Əliyev qurumun Təhlükəsizlik Şurasının Qarabağda humanitar vəziyyətə dair avqustun 16-da keçirilmiş müzakirəsində Ermənistan tərəfindən irəli sürülmüş soyqırımı iddialarına münasibət bildirərkən demişdi ki, İrəvanın Bakıya qarşı manipulyasiya və aldadıcı kampaniyası özünü müstəqil ekspert kimi təqdim edən Luis Moreno Okamponun qondarma "rəyi"ndə də nümayiş olunur: "Onun iddialarının qüsurlu olduğunu bu yaxınlarda müstəqil, tanınmış beynəlxalq hüquq eksperti cənab Rodni Dikson ilkin hesabatında qeyd edib.**



**(ardı 4-cü səhifədə)**

## Sığorta sferası sürətlə genişlənir

**Azərbaycan iqtisadiyyatının inkişafında mühüm rol oynayan sığorta bazarı rəqabətin kəskin, biznesin isə mürəkkəb olduğu bir sahədir. Buna görə də hökumət bu sektorun üzləşdiyi problemlərin həllini daim diqqət mərkəzində saxlayır. Məhz bunun nəticəsidir ki, son 5 ildə sığorta bazarı həcminin davamlı şəkildə yüksəldiyi müşahidə edilir. Son illər ərzində hər il sığorta haqlarının həcmi orta templə 15-18 faiz artır.**



Mərkəzi Bankın məlumatına görə, cari ilin yanvar-iyul aylarında ölkəmizdə sığorta yığımları 31,2 faiz artaraq 761 milyon 801 min manata çatıb. Bu dövrdə ümumi sığorta ödənişlərinin həcmi isə illik müqayisədə 17,4 faiz artaraq 282 milyon 977 min manat təşkil edib. 7 ay ərzində sığorta bazarında toplanan hər 100 manat sığorta haqqının 37,1 manatı ödənişə yönəldilib. Ötən ilin eyni dövründə bu göstərici 41,5 manat olub.

**(ardı 7-ci səhifədə)**

## Can sənə qurban, Laçın!



Səhifə ⇨ 6

## Qərb Ukraynanı yarıyolda qoya bilərmi?



Səhifə ⇨ 11

## "Taxıl sazişi"nin taleyi məlum deyil



Səhifə ⇨ 11

## Məktəbdə rəqqasə, savaşda snayper, həyatda alim...



Səhifə ⇨ 10

Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri haqqında” 2009-cu il 9 fevral tarixli 48 nömrəli, “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli, “Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin yaradılması və fəaliyyətinin təşkili haqqında” 2016-cı il 11 aprel tarixli 858 nömrəli, “Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” 2017-ci il 19 dekabr tarixli 1748 nömrəli, “Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun yaradılması və fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında” 2017-ci il 25 dekabr tarixli 1760 nömrəli, “Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bəzi məsələlər haqqında” 2018-ci il 7 fevral tarixli 1819 nömrəli, “Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı bəzi məsələlər haqqında” 2019-cu il 19 mart tarixli 597 nömrəli, “Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə”nin təsdiqi və “Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və “Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” 2020-ci il 12 may tarixli 1017 nömrəli fərmanlarında və “Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022 2026-cı illər üçün Milli Fəaliyyət Planı”nın təsdiq edilməsi haqqında” 2022-ci il 4 aprel tarixli 3199 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 9 fevral tarixli 48 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 2, maddə 61, № 7, maddə 533, № 10, maddə 780, № 12, maddə 983; 2010, № 2, maddələr 77, 80; 2011, № 2, maddə 85; 2015, № 2, maddə 108, № 9, maddə 988; 2016, № 9, maddə 1479; 2017, № 5, maddə 771, № 6, maddə 1081; 2018, № 1, maddə 47, № 3, maddə 450, № 5, maddə 912, № 12 (I kitab), maddələr 2556, 2572; 2019, № 3, maddə 409, № 5, maddə 834, № 10, maddə 1587; 2021, № 9, maddə 988; 2022, № 8, maddə 874, № 12, maddə 1425; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 iyul tarixli 2233 nömrəli Fərmanı) ilə təsdiq edilmiş Əlavə II – “Azərbaycan Respublikasının Maliyyə Nazirliyi haqqında Əsasnamə”nin 8.6-cı bəndi aşağıdakı redaksiyada verilsin:

“8.6. dövlət satınalmalarının maliyyə vəsaitindən (Azərbaycan Respublikası dövlət büdcəsinin və Naxçıvan Muxtar Respublikası büdcəsinin vəsaitləri, o cümlədən məqsədli büdcə fondlarının vəsaitləri, büdcə ssudaları, subsidiyalar, dövlət zəmanəti ilə alınmış kreditlər, dövlət qrantları, yardımları, büdcədənkənar dövlət fondlarının vəsaitləri) səmərəli və qənaətlə istifadə edilməsi prinsipləri əsasında həyata keçirilməsini təmin etmək məqsədilə həmin sahə üzrə dövlət tənzimlənməsində, dövlət siyasətinin həyata keçirilməsində, normativ hüquqi aktların hazırlanmasında və ekspertizasının aparılmasında iştirak etmək;”.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 858; 2013, № 2, maddə 109, № 3, maddə 254, № 4, maddə 377; 2014, № 2, maddə 117, № 5, maddə 486, № 9, maddələr 1027, 1044, 1048; 2015, № 6, maddə 708, № 8, maddə 917, № 10, maddə 1122; 2016, № 2 (II kitab), maddə 251, № 5, maddə 852, № 8, maddə 1384, № 9, maddə 1464; 2017, № 2, maddə 174, № 4, maddə 564, № 5, maddə 809, № 8, maddələr 1521, 1531; 2018, № 3, maddə 437, № 6, maddə 1242, № 10, maddə 2013, № 11, maddə 2553; 2019, № 1, maddə 61, № 4, maddə 647; 2020, № 8, maddələr 1039, 1044, 1047; 2021, № 8, maddə 919, № 9, maddə 990, № 11, maddə 1217; 2022, № 5, maddə 475, № 10, maddə 1133, № 11, maddə 1264; 2023, № 1, maddə 84, № 2, maddə 245, № 5, maddələr 658, 665; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 iyul tarixli 2232 nömrəli və 26 iyul tarixli 2244 nömrəli fərmanları) ilə təsdiq edilmiş Əlavə 1 – “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi haqqında Əsasnamə”nin 4.1.10-cu yarımbəndində “qanunla müəyyən edilmiş qaydada müsabiqə və tenderlər” sözləri “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq satınalmalar” sözləri ilə əvəz edilsin.

**3.** “Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin yaradılması və fəaliyyətinin təşkili haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 858 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 663, № 11, maddə 1820; 2017, № 5, maddə 820, № 9, maddə 1656; 2018, № 2, maddə 183; 2019, № 3, maddə 411, № 5, maddə 817; 2020, № 5, maddə 545; 2022, № 8, maddə 853) 9.1-ci bəndində “Qanunu ilə müəyyən edilmiş qaydada müsabiqə” sözləri “Qanununa uyğun olaraq satınalma” sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 dekabr tarixli 1748 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (I kitab), maddə 2316; 2020, № 7, maddə 875; 2022, № 10, maddə 1130) ilə təsdiq edilmiş “Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin Nizamnaməsi”ndə aşağıdakı dəyişikliklər edilsin:

4.1. 3.1.3-cü yarımbənddə “satınalmalar haqqında qanunvericilikdə nəzərdə tutulmuş qaydada tenderlərin (müsabiqələrin)” sözləri “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq satınalmaların” sözləri ilə əvəz edilsin;

4.2. 3.1.26-cı yarımbənddə “tenderlərdə (müsabiqələrdə) müvafiq qanunvericiliyə” sözləri “satınalmalarda “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa” sözləri ilə əvəz olunsun.

**5.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1760 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (I kitab), maddə 2328; 2018, № 5, maddə 897, № 8, maddə 1690; 2019, № 1, maddə 60, № 3, maddələr 411, 416, № 6, maddə 1014, № 12, maddə 1923; 2021, № 5, maddə 434; 2022, № 8, maddə 891, № 10, maddə 1134) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun Nizamnaməsi”nin 2.2.19-cu yarımbəndində “qanunla müəyyən edilmiş qaydada tenderlər (müsabiqələr)” sözləri “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq satınalmalar” sözləri ilə əvəz edilsin.

**6.** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 7 fevral tarixli 1819 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 2, maddə 183, № 6, maddə 1196; 2020, № 2, maddə 93) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin Nizamnaməsi”nin 3.2.18-ci yarımbəndində “qanunla müəyyən edilmiş qaydada tenderlər (müsabiqələr)” sözləri “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq satınalmalar” sözləri ilə əvəz edilsin.

**7.** Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 19 mart tarixli 597 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 3, maddə 437, № 10, maddə 1581; 2021, № 12, maddə 1405; 2022, № 4, maddə 306, № 8, maddə 883; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 iyun tarixli 2185 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Ərazi Tikinti-Planlaşdırma Mərkəzinin Nizamnaməsi”nin 3.2.17-ci yarımbəndində “qanunla müəyyən edilmiş qaydada tenderlər (müsabiqələr)” sözləri “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq satınalmalar” sözləri ilə əvəz edilsin.

**8.** Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 5, maddə 542, № 7, maddə 862, № 9, maddə 1151; 2021, № 12, maddə 1398; 2022, № 9, maddə 1037; 2023, № 1, maddə 79) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin Əsasnaməsi”ndə aşağıdakı dəyişikliklər edilsin:

8.1. 2.0.5-ci yarımbənddə “dövlət vəsaiti hesabına malların (işlərin və xidmətlərin)” sözləri “maliyyə vəsaiti hesabına satınalma predmetinin” sözləri ilə əvəz edilsin;

8.2. 3.0.29-cu yarımbənddə “malgöndərənlərin” sözü “təchizatçıların” sözü ilə əvəz edilsin;

8.3. 3.0.30-cu yarımbənddə “dövlət vəsaitindən” sözləri “maliyyə vəsaitindən” sözləri ilə və “şəffaflıq, aşkarlıq, bərabərlik və rəqabətlilik prinsipləri” sözləri “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 4-cü maddəsində nəzərdə tutulmuş prinsiplər” sözləri ilə əvəz edilsin;

8.4. 3.0.31-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“3.0.31. maliyyə vəsaiti hesabına satınalma predmetinin “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq satın alınmasına və satınalma müqavilələrinin icrasına nəzarət etmək, mübahisəli məsələləri araşdırmaq və nəticəsindən asılı olaraq həmin Qanunda nəzərdə tutulmuş qaydada tədbirlər görmək;”;

8.5. 3.0.34-cü yarımbənddə “malgöndərənlərin (podratçıların) şikayətlərinə” sözləri “təchizatçıların şikayətlərinə “İnzibati icraat haqqında” və” sözləri ilə əvəz edilsin.

**9.** Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 4 aprel tarixli 3199 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 4, maddə 339; 2023, № 3, maddə 391) ilə təsdiq edilmiş “Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planı” üzrə Tədbirlər Planı” hissəsinin 2.15-ci bəndində “Tədbirin adı” sütununda “tender” sözü “satınalma” sözü ilə, “Aralıq nəticə” sütununda “Tender” sözü “Satınalma” sözü ilə əvəz edilsin.

**10.** Bu Fərman 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 avqust 2023-cü il**

“Azərbaycan Respublikasının Vergi Məcəlləsində, “Energetika haqqında”, “Büdcə sistemi haqqında”, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” və “İnzibati icraat haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 989-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə” 2000-ci il 30 avqust tarixli 393 nömrəli, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2004-cü il 12 aprel tarixli 48 nömrəli və “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2005-ci il 28 dekabr tarixli 345 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Vergi Məcəlləsində, “Energetika haqqında”, “Büdcə sistemi haqqında”, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” və “İnzibati icraat haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 989-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 30.6.17-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 30.6.17-ci maddəsində “orqan (qurum)” dedikdə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.3. “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun 15.9.1-2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.4. həmin Qanunun 15.9.1-2-ci maddəsində “orqan (qurum)” dedikdə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.5. “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun 67.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.6. həmin Qanunun 67.2-ci maddəsində “orqan (qurum)” dedikdə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti “Azərbaycan Respublikasının Vergi Məcəlləsində, “Energetika haqqında”, “Büdcə sistemi haqqında”, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” və “İnzibati icraat haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 989-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**3.** “Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 616; 2005, № 12, maddə 1099; 2006, № 5, maddə 400, № 12, maddə 1034; 2007, № 4, maddə 323, № 12, maddə 1225; 2008, № 11, maddə 972; 2009, № 3, maddə 163, № 4, maddə 226, № 10, maddə 780; 2010, № 7, maddə 610; 2011, № 7, maddə 631; 2013, № 7, maddə 805, № 11, maddə 1324; 2014, № 4, maddə 359, № 5, maddə 477, № 9, maddə 1027, № 10, maddə 1198, № 11, maddələr 1390, 1420; 2015, № 1, maddə 12, № 12, maddə 1454; 2016, № 2 (II kitab), maddələr 261, 265, № 3, maddə 450, № 5, maddə 882, № 6, maddələr 1023, 1024, 1042, 1065, № 7, maddə 1257, № 9, maddə 1464, № 11, maddə 1838, № 12, maddə 2089; 2017, № 5, maddələr 760, 811, 845, № 7, maddə 1344, № 8, maddə 1521; 2018, № 9, maddələr 1830, 1843, № 12 (I kitab), maddələr 2571, 2599; 2019, № 8, maddələr 1396, 1407; 2020, № 5, maddə 560, № 11, maddə 1356, № 12 (I kitab), maddə 1504; 2021, № 1, maddə 35, № 3, maddə 220, № 4, maddə 323, № 6 (I kitab), maddə 585, № 12, maddələr 1398, 1425; 2022, № 1, maddə 22, № 12, maddə 1456; 2023, № 2, maddə 235, № 4, maddə 469; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 iyul tarixli 2216 nömrəli və 1 avqust tarixli 2271 nömrəli fərmanları) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.1-ci bəndə “30.6.16-cı (hər iki halda),” sözlərindən sonra “30.6.17-ci,” sözləri əlavə edilsin;

3.2. 1.12-2-ci bənddə “maddəsində” sözü “və 30.6.17-ci maddələrində” sözləri ilə əvəz edilsin.

**4.** “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 aprel tarixli 48 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 4, maddə 228; 2005, № 8, maddə 708, № 9, maddə 801, № 12, maddə 1103; 2006, № 12, maddə 1034; 2008, № 2, maddə 54; 2012, № 1, maddə 6; 2013, № 12, maddə 1529; 2014, № 2, maddə 103; 2016, № 3, maddə 465, № 9, maddə 1464, № 10, maddə 1637; 2017, № 5, maddə 846, № 9, maddə 1653, № 10, maddə 1803, № 12 (I kitab), maddə 2319; 2018, № 12 (I kitab), maddə 2614; 2019, № 2, maddə 211; 2020, № 8, maddə 1029, № 11, maddələr 1360, 1362; 2021, № 12, maddə 1400; 2022, № 8, maddə 840; 2023, № 1, maddə 46, № 3, maddə 345; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 1 avqust tarixli 2276 nömrəli Fərmanı) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1-ci bəndə “15.9.1-1-ci” sözlərindən sonra “, 15.9.1-2-ci” sözləri əlavə edilsin;

4.2. 2.9-2-ci bənddə “maddəsində” sözü “və 15.9.1-2-ci maddələrində” sözləri ilə əvəz edilsin.

**5.** “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 28 dekabr tarixli 345 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1114; 2019, № 1, maddə 74, № 2, maddə 215; 2022, № 6, maddə 612) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.1-ci bəndə “ikinci cümləsində” sözlərindən sonra “və 67.2-ci maddəsində” sözləri əlavə edilsin;

5.2. 2.3-cü bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.4-cü bənd əlavə edilsin:

“2.4. həmin Qanunun 67.2-ci maddəsində “orqan (qurum)” dedikdə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur.”.

**6.** Bu Fərman 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 avqust 2023-cü il**

Azərbaycan Respublikası Prezidentinin “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2002-ci il 29 yanvar tarixli 668 nömrəli, “Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun və işçilərin say həddinin təsdiq edilməsi haqqında” 2006-cı il 27 sentyabr tarixli 462 nömrəli və “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 4 mart tarixli 158-VQD nömrəli Qanununun tətbiqi və “Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası”nın təsdiq edilməsi haqqında” 2016-cı il 11 aprel tarixli 859 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 988-VIQ nömrəli Qanununun icrasını təmin etmək məqsədilə **qərara alıram:**

**1.** “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 29 yanvar tarixli 668 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 1, maddə 51; 2014, № 5, maddə 477; 2016, № 5, maddə 861; 2018, № 12 (I kitab), maddə 2611; 2020, № 1, maddə 17, № 5, maddə 565; 2021, № 6 (I kitab), maddə 591, № 11, maddə 1213, № 12, maddə 1429; 2022, № 1, maddə 26, № 12, maddə 1437) 1-ci və 2-ci hissələri ləğv edilsin.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 27 sentyabr tarixli 462 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 9, maddə 740; 2008, № 1, maddə 6; 2009, № 12, maddə 983; 2011, № 2, maddə 85; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 iyul tarixli 2234 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi haqqında Əsasnamə”nin 8.2-ci bəndində “mövcud qanunvericiliyə uyğun olaraq tenderlər (müsabiqələr)” sözləri “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq satınalmalar” sözləri ilə əvəz edilsin.

**3.** “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 4 mart tarixli 158-VQD nömrəli Qanununun tətbiqi və “Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 859 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 664, № 9, maddə 1486; 2018, № 11, maddə 2237; 2019, № 4, maddə 619; 2021, № 9, maddə 979; 2022, № 3, maddə 228) 1-ci hissəsi ləğv edilsin.

**4.** Bu Fərman 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 19 avqust 2023-cü il**

# Prezidentin köməkçisi "France24"ə cavab verib




**"Fransanın anti-Azərbaycan təbliğatı davam edir".**

Bunu Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "X"-də yazıb.

O bildirib ki, "France24" məqaləsində Azərbaycanlı qadının 2020-ci ildə çəkilən fotosu "ermənləşdirilib": "Bu, təbliğatın iyrənc formasıdır. Obyektivlikdən, jurnalist etikasından uzaqdır".

* * *

"İtkin düşmüş şəxslərin taleyinin müəyyən edilməsi müharibədən sonrakı barışıq prosesin mühüm hissəsidir. Amma Ermənistan bu faktları gizlədir, inkar edir".

Bunu Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "X"də yazıb.

O bildirib ki, Ermənistan indiyədək I Qarabağ müharibəsi zamanı erməni əsir düşərgələrində 4000 azərbaycanlının işgəncələrə məruz qaldığı,



qeyri-insani rəftara məruz qalaraq öldürüldüyü kütləvi məzarların geolokasiyasını təqdim etməkdən imtina edir:

"Kütləvi məzarlıqlarda qalıqları tapılan 15 itkin düşmüş şəxslərdən biri Hüseynov Gülverdinin qızları 30 ildən sonra nəhayət ki, atalarının məzarlığına qovuşduğuna çox seviniblər".

Qeyd edək ki, itkin düşmüş 15 nəfərin taleyinə aydınlıq gətirilib.

***Qəzənfər QASIMOV,***
***"Xalq qəzeti"***

# Ermənistanın revanşist siyasəti Rumıniya qəzetində

**Rumıniyanın nüfuzlu "Ultima Ora" qəzetində Azərbaycanın bu ölkədəki səfiri Hüseyn Nəcəfovun Ermənistanın revanşist siyasəti barədə məqaləsi yayımlanıb.**

Məqalədə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış suveren ərazisinin təqribən 20 faizinin otuz ilə yaxın müddətdə Ermənistanın işğalı altında qaldığı, bir milyondan çox azərbaycanlının doğma yurdlarını tərk etmək məcburiyyətində qalaraq məcburi köçkünə çevrildiyi vurğulanıb. Həmçinin bildirilib ki, 2020-ci ildə 44 günlük Vətən müharibəsində şanlı Qələbə qazanan Azərbaycan ərazi bütövlüyünü bərpa edib. Ədalətin zəfər çalması, çoxlu sayda məcburi köçkünün doğma yurdlarına qayıtması, genişmiqyaslı bərpa-quruculuq işlərinin başlanması ilə hərb səhifənin çevrilməsi və münasibətlərin normallaşması üçün tarixi fürsət yaranıb.

Yazıda Ermənistanın silahlı qüvvələrinin 10 min nəfərədək şəxsi heyətini Azərbaycan ərazisindən tam çıxarmaması ilə yanaşı, bu qüvvələri davamlı təchiz etdiyi, eləcə də Azərbaycanın təbii sərvətlərini qanunsuz istismarını davam etdirməyə çalışdığı qeyd olunub. Bildirilib ki, buna görə də Ermənistan dünya miqyasında təbliğat kampaniyasına başlayıb, sərhəd-keçid məntəqəsinin normal fəaliyyətinin qarşısını almaq, eləcə də Qarabağa yüklərin çatdırılması üçün Ağdam–Xankəndi yolu kimi digər marşrutlardan istifadə etməmək üçün bir sıra manevrlər yaradıb.

***"Xalq qəzeti"***


Ultima oră
Distincţia culturală a Academiei Române
Pacea durabilă între Azerbaidjan şi Armenia a devenit ostaticul politicii Armeniei de tensiune şi revanşism deliberat

# Diaspor aksiyaları erməni qəsdlərini ifşa edir






**Birləşmiş Millətlər Təşkilatının Almaniyanın Bonn şəhərindəki ofisinin önündə Azərbaycan icmasının dinc aksiyası keçirilib.**

Aksiya iştirakçıları 30 il ərzində işğalçı siyasət yürütmüş Ermənistanın yenidən BMT Təhlükəsizlik Şurasını siyasi, hərbi və informasiya yönümlü manipulyasiya kampaniyası üçün alətə çevirmək cəhdinə etiraz səsini ucaldıblar.

Aksiya zamanı "Qarabağın ekoloji mühitinin dağıdılmasına görə ədalət tələb edirik!", "Mina qurbanlarına görə ədalət tələb edirik!", "Ermənistanın ekoloji terroruna son qoyulsun!", "Ermənilərin minaları dinc sakinləri öldürür!" şüarları nümayiş etdirilib.

Aksiya iştirakçıları BMT-nin Təhlükəsizlik Şurasını əməli fəaliyyətə keçməyə – Azərbaycanın Qarabağ bölgəsinin ətraf mühitini qorumağa, Ermənistanın ekosidinə son qoymağa, bərpa işləri üçün beynəlxalq yardım göstərməyə, Azərbaycan vətəndaşlarının Qarabağda təhlükəsizliyini təmin etməyə və insan hüquqlarını qorumağa çağırış ediblər.

***

Ermənistanın beynəlxalq ictimaiyyəti siyasi, hərbi və informasiyayönümlü manipulyasiya kampaniyası üçün alətə çevirmək cəhdinə etiraz məqsədilə Çexiyanın paytaxtı Praqada məlumatlandırma aksiyası keçirilib.

Şəhərin mərkəzində – BMT, UNICEF, Ümumdünya Səhiyyə Təşkilatı və digər beynəlxalq qurumların nümayəndəliklərinin yerləşdiyi küçədə baş tutan məlumatlandırma aksiyası Azərbaycan icmasının fəalı Fərid Əmirəliyevin təşkilatçılığı ilə gerçəkləşdirilib.

***"Xalq qəzeti"***

# Ermənistanda siyasi məhbusların sayı getdikcə artır

## Smbatyanlara qarşı cəza tədbiri Paşinyan rejiminin gerçək simasını ortaya qoyur

*(əvvəli 1-ci səhifədə)*

Ermənistanda insan hüquqlarının pozulduğunu, siyasi məhbusların olduğunu məhz mərkəzi ofisi Vaşinqtonda yerləşən ABŞ-nin "GALLUP International Association" analitika və məsləhət şirkətinin Ermənistan nümayəndəliyinin sorğusu bir daha təsdiqləyib. Şirkətin cari ilin iyulun 27-dən 31-dək keçirdiyi sorğuda iştirak edən respondentlərin 47,7 faizi ölkədə





siyasi məhbusların olduğuna əminliyini bildirib, 22,7 faizi cavab verməkdə çətinlik çəkib. "GALLUP"un Ermənistan nümayəndəliyinin rəhbəri Aram Navasardyan keçirdiyi mətbuat konfransında bildirib ki, Ermənistanda siyasi məhbusların mövcudluğu ilə bağlı sorğuda heç vaxt bu qədər yüksək faiz göstəricisi qeydə alınmayıb.

Eyni zamanda, respondentlərin əksəriyyəti – 43,9 faizi müxalifətdə olan Ermənistan Respublika Partiyasının sədr müavini Armen Aşotyanı, 23,7 faizi "İctimai səs" partiyasının sədri Artak Qalstyanı, 24,5 faizi isə Vanadzor şəhərinin sabiq meri Mamikon Aslanyanı siyasi məhbus hesab etdiklərini bildiriblər.

***

Təxminən, 20 gün öncə Ermənistanda daha bir səs-küylü həbs həyata keçirilib. Söhbət Ermənistanın Rusiya və İsraildə fövqəladə və səlahiyyətli səfiri olmuş Armen Smbatyanın və onun oğlu Dövlət Simfonik Orkestrinin bədii rəhbəri və baş dirijoru Sergey Smbatyanın həbsindən gedir. Onların həbsi ilə bağlı Ermənistan baş prokurorluğunun mətbuat xidmətinin yaydığı məlumatda Smbatyanların dələduzluqda şübhəli bilinərək saxlanıldıqları qeyd olunub. Prokurorluq bu dələduzluq nəticəsində dövlətə 966 milyon dram (2,5 milyon dollar) maddi ziyan vurulduğu qənaətindədir. Bu cinayətdə Armen Petrosyan adlı iş adamının da adı keçir.

İşin materiallarına görə, təqsirləndirilən şəxslər 2012-ci ildə 800 milyon dram (2 milyon ABŞ dolları) dəyərində çoxfunksiyalı "Kitab dünyası" kompleksinin tikintisi üçün hökumətə saxta investisiya proqramı təqdim edərək dələduzluq yolu Çaykovski adına Musiqi Məktəbinə məxsus 300 kvadratmetrlik ərazini ələ keçiriblər. İstintaq müəyyən edib ki, Armen Smbatyan keçmiş mədəniyyət naziri Asmik Poqosyanın qohumu, iş adamı Armen Poqosyanı "Sohocenter" şirkətini yaratmağa razı salıb. Bundan sonra şirkət meriyaya investisiya layihəsi təqdim edib, şəhər rəhbərliyi layihəni mədəniyyət nazirinə göndərib, o isə etiraz etməyib. "Sohocenter" şirkətinin direktoru – A.Poqosyanın qardaşı olan Çaykovski adına Musiqi Məktəbinin direktoru da bu proqrama razılıq verib. Nəticədə hökumət investisiya proqramını təsdiqləyib, nazir isə şirkətlə müvafiq müqavilə bağlayıb. Müqaviləyə proqramın həyata keçirilməsi öhdəliyinə dair bənd daxil edilməyib. Beləliklə, şirkətin səhmdarları heç bir öhdəlik götürmədən daşınmaz əmlakı özəlləşdiriblər.

Cinayət işinə nəzarət edən prokurorun qərarı ilə Armen Smbatyan xüsusilə külli miqdarda dələduzluğun təşkilində, Sergey Smbatyan və Armen Poqosyan isə xüsusilə külli miqdarda dələduzluqda ittiham olunurlar. Bu günlərdə İrəvan məhkəməsi adları çəkilən şəxslərin barəsində seçilmiş həbs-qətimkan tədbirinin dəyişdirilməsi ilə bağlı vəsatətlərin rədd edilməsi haqqında qərar qəbul edib. Beləliklə, onların barəsində çıxarılmış 2 aylıq həbs-qətimkan tədbiri qüvvədə qalıb.

Smbatyanların həbsi iqtisadi səbəblərlə əlaqələndirilsə də, Ermənistan müxalifəti və müstəqil mediası bu həbsin siyasi xarakter daşıdığını bildirir. Onlar qeyd edirlər ki, Armen Smbatyana qarşı təzyiqlər onun Paşinyan iqtidarını tənqid etməsindən sonra başlayıb. Qeyd olunur ki, Paşinyanın əzəli rəqibi Robert Koçaryan tərəfindən 2002-ci ildə Rusiyaya səfir təyin edilmiş və Serj Sarkisyanın prezident olduğu dövrdə də işini davam etdirmiş keçmiş diplomatdan bu yolla intiqamını alır.

***

Ermənistanda kifayət qədər məşhur olan ata-oğul Smbatyanların həbsi geniş əks-səda doğurub. Tanınmış erməni idmançılar, həkimlər, mədəniyyət və incəsənət xadimləri onların barəsində seçilmiş həbs-qətimkan tədbirinin yenidən nəzərdən keçirilməsi xahişi ilə Ermənistanın baş prokuroruna müraciət ediblər. Onların arasında dirijor Vladimir Spivakov, xor dirijoru Ovannes Çekidcyan, bəstəkar Tiqran Mansuryan, xalq mahnılarının ifaçısı Ruben Matevosyan, opera müğənnisi Asmik Papyan, pianoçu Ayk Melikyan, Dövlət Caz Orkestrinin rəhbəri Armen Usnunts, rəssam Tiqran Dzitoxtsyan, yunan-Roma güləşi üzrə Olimpiya çempionu Artur Aleksanyan, boksçular Vik Darçinyan və Artur Abraham və başqaları var. Onlar yaydıqları müraciətdə həbs-qətimkan tədbirinin ev dustaqlığı ilə əvəz edilməsini xahiş ediblər.

Dirijor Vladimir Spivakov "Sputnik Ermənistan" agentliyinə açıqlamasında deyib ki, Smbatyanlar erməni cəmiyyəti üçün təhlükə yaratmır, xüsusilə Sergey Smbatyanın həbsi mənfi rəy doğurur: "Armen və Sergey Smbatyanların həbs edilməsi və xüsusilə böyük miqyasda mütəşəkkil dələduzluqda ittiham olunması xəbəri məni şoka saldı. 40 ildir birlikdə olduğum sevimli erməni ictimaiyyəti ilə bölüşməyə bilməyəcəyim dərin kədər hissi keçirirəm. Bu, təkcə yaradıcılıq deyil, həm də insani, qohumluq əlaqəsidir, ona görə də günün günorta çağı baş verən haqsızlıq qarşısında səssiz qala bilmərəm".

O, qanun qarşısında hamının bərabər olduğuna diqqət çəkib. Amma qeyd edib ki, dünyanın heç bir ölkəsində heç kim təqsirsizlik prezumpsiyasını ləğv etməyib.

Oxşar bəyanatla Rusiya Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy da çıxış edib. O, baş nazir Nikol Paşinyana Ermənistanın Rusiya və İsraildəki keçmiş səfiri A.Smbatyanla bağlı həbs-qətimkan tədbirinə yenidən baxılması xahişi ilə müraciət ünvanlayıb.

Edilən çoxsaylı çağırışlara, müraciətlərə baxmayaraq, Ermənistan hakimiyyəti ata-oğulu ev dustaqlığına buraxmağa tələsmir. Bu isə özünü demokrat, humanist kimi təqdim edən Nikol Paşinyan rejiminin gerçək simasını bir daha ortaya qoyur. Paşinyan və onun hökumətindəki bəzi şəxslər Azərbaycanı nələrdəsə ittiham etməzdən əvvəl özlərinin anti-demokratik mahiyyətlərinə nəzər yetirsələr, daha yaxşı olardı.

***Səxavət HƏMİD,***
***"Xalq qəzeti"***

### Ekspert rəyi



**Yeganə HACIYEVA,**
**politoloq**

– Nikol Paşinyanın demokrat ruhlu şəxs olmaması ilə bağlı təəssüratlar onun hakimiyyətinin elə ilk günlərindən yaranmışdı. Onun aid olduğu Soros şəbəkəsi Paşinyanın adının ətrafında demokrat imici formalaşdırmışdı. Həmin şəbəkə hansı hadisələrin yaşanmasından asılı olmayaraq, baş nazirin imicinin qorunub saxlanılması üçün dəridən-qabıqdan çıxırdı. Ermənistan insan hüquqlarına dair bütün əsas göstəricilərdə gerilik nümayiş etdirir. Paşinyan Konstitusiya Məhkəməsi başda olmaqla məhkəmə sistemini faktiki olaraq rəqibləri ilə hesablaşma yerinə çevirib. Daha sonra hüquq-mühafizə sisteminə öz adamlarını yerləşdirib. Ötən ilin oktyabr ayından indiyədək Ermənistan Ali Məhkəməsinin 20-yə yaxın hakimi bu və ya digər səbəblərlə, bəzən isə çox primitiv bəhanələrlə işdən uzaqlaşdırılıblar. Bu da onların hakim kimi Paşinyanın xoşuna gəlməyən müstəqil qərarlar çıxarmaları ilə bağlıdır. Amma beynəlxalq təşkilatların demokratiya indekslərinin heç birində bu məqamlar nəzərə alınmır. Çünki ölkə daxilində bu faktları ümumiləşdirib xaricə ötürən şəbəkə yoxdur. Üstəlik, həmin təşkilatlarda çox sayda erməni əsilli şəxs çalışır. Bu mənada Ermənistan tənqidlərdən kənarda qalır və demokratiya göstəriciləri üzrə haqq etmədiyi yerlərdə qərarlaşır. Azərbaycanlılara qarşı kütləvi qırğınlar törədən bir xalqın demokratik göstəricilərin yüksək olması öz-özlüyündə inandırıcı deyil.

Ermənistanın Rusiya və İsraildəki sabiq səfiri Armen Smbatyanın həbsi də onun Paşinyanın əleyhinə çıxması ilə əlaqədardır. Paşinyan iqtidarı son vaxtlar bu istiqamətdə belə deyək, sistemli iş aparır və silsilə həbslər həyata keçirilib. Yeganə səbəb isə qeyd etdiyim kimi, onların baş nazirin rəqibləri olmalarıdır.

# "Lavrov planı": Görünən və görünməyən niyyətlər

## *Layihənin adındakı "keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti" ifadəsi nəyə hədəflənib?*

(əvvəli 1-ci səhifədə)

### Separatizmə yol verilməyəcək

Moskvanın ortaya atdığı həmin təklif layihəsinin mükəmməl olmadığını, onun beynəlxalq hüququn normalarına uyğun hazırlanmadığını deyənlər də az deyil. "Lavrov planı" hərtərəfli analiz edildikdə layihənin 4 və 10-cu maddələrində qərəz elementlərini aşkar etmək mümkündür. Yəni Moskvada hazırlanmış 14 maddəlik sənəddə Qarabağ ermənilərinə bəzi imtiyazlar tanınır ki, bu da ekspertlərin fikrincə, etnik separatizm toxumlarının saxlanılmasına hesablanıb. Xankəndidəki separatçı rejimin nümayəndələri yerli ictimai fəallarla təmaslarında yeni planı rəsmi Bakı və Qarabağ erməniləri arasında sülh müqaviləsi layihəsinin surəti kimi təqdim edirlər.

Rusiyanın təklif etdiyi sənəddə Azərbaycanın hüquq-mühafizə orqanları tərəfindən yalnız məhkəmə tərəfindən sübut olunmuş cinayətləri törətmiş ermənilərin cinayət təqibinə məruz qalması nəzərdə tutulur. Başqa sözlə, separatçı rejimin Azərbaycana qarşı müharibələrdə iştirak etmiş, amma hərbi cinayəti olmayan məmurları cəzadan azad ediləcəklər. Düzdür, Kremlin təklif etdiyi layihədə separatçıların danışıqlarda tərəf kimi iştirakı, eləcə də Azərbaycandan kənarda ikinci erməni dövlətinin yaradılması ilə bağlı mülahizələr yer almayıb.

Xankəndidə yayılan məlumatlardan belə anlaşılır ki, layihə Bakı tərəfindən dəstəklənir, amma separatçılar tərəfindən rədd edilir. Bu barədə qondarma rejimin kiçikçaplı məmurlarından sayılan Vahan Poqosyan fikirlərini paylaşıb: "Əslində, çıxış yolu yoxdur, ona görə də imzalamaq lazım gələcək". Qarabağ ermənilərinin cəmiyyətimizə inteqrasiyasını nəzərdə tutan layihənin həm də bölgədə yeni müharibə təhlükəsinin qarşısının alınmasına hesablandığını da söyləmək mümkündür. Əgər "Lavrov planı"nda beynəlxalq hüquqda təsbit olunmuş və dövlətin mənafeyinə ziyan vurmayan haqların tanınmasından söhbət gedirsə, onu nəzərdən keçirməyə və uyğun qərar qəbul etməyə dəyər.

Hazırda Qarabağ iqtisadi rayonumuzda yaşayan ermənilərin bələdiyyə qurumları var. Həmin yerli özünüidarəetmə qurumunun qərarı ilə onların ərazisində, yol nişanlarında, yönəldici plakat və banerlərdə, inzibati-coğrafi adlarda və s. yerlərdə Azərbaycan dili ilə yanaşı, erməni dilindən də istifadə olunacaq. Azərbaycan Konstitusiyası milli azlıqların məktəbinin olmasına icazə verir. Aydın məsələdir ki, başqaları kimi ermənilər də Azərbaycanın dövlət dilini zəif bilsələr, işlə təminat məsələsində problemlə üzləşəcəklər. Yəni, idarəetmə strukturunda müəyyən mənsəb sahibi ola bilməyəcəklər. Bu səbəbdən, Azərbaycan dilini mükəmməl öyrənməli olacaqlar.

**Ekspert rəyi**



**Fikrət SADIXOV, politoloq:**

Sergey Lavrovun irəli sürdüyü təkliflər nə Ermənistanın xeyrinədir, nə də Azərbaycanın. Əsas məqsəd bölgədə Rusiyanın maraqlarını qorumaqdır. Kreml yaxşı başa düşür ki, hazırda yaranmış olduqca mürəkkəb geosiyasi vəziyyət fonunda, xüsusilə də Ukrayna cəbhəsində durumu nəzərə alsaq, Rusiyanın regiondakı rolu zəifləyə bilər. Sülh missiyasının ağırlığını indi Vaşinqton və Brüssel öz üzərinə götürüb və daha səmərəli danışıqlar məhz onların meydançalarında gedir. Bu təkliflərdə müəyyən müsbət məqamlar da ola bilər. Amma layihədə Azərbaycanın maraqlarına zidd, bizi qane etməyən təkliflər yer alır. Etnik ermənilərin Qarabağın rəsmi qurumlarında təmsil olunması, hansısa dövlət strukturlarında fəaliyyət göstərməsi məsələnin ikinci dərəcəli tərəfidir. O məqama çatanadək biz gərək Ermənistanla münasibətlərimizi normallaşdıraq və sülh sazişini imzalayaq. Bu zaman İrəvan özünün iddialarından əl çəkməlidir. "Beynəlxalq mexanizm çərçivəsində", "etnik təhlükəsizlik" kimi ifadələr arxa plana keçməlidir. Fikrimizcə, bu planda ən əsas məsələlərə toxunulmayıb. Yəni, Cənubi Qafqazda hadisələr hələ özünün sonuncu fazasına çatmayıb. Bir sıra problemlər həllini gözləyir. İndilikdə onlar Ağdam–Xənkəndi yolu ilə bizdən humanitar yardımı qəbul etmək istəmirlər. Laçın yolu ilə bağlı BMT-də hay-küy qaldırdılar. Bu məsələlər həllini tapandan sonra ola bilsin ki, "Lavrov planı"ndakı hansısa müsbət məqamlardan da yararlanmaq olar. İndi reallıq bundan ibarətdir.

### Xüsusi imtiyazlar müzakirə mövzusu deyil

Xankəndi–Bakı dialoqunu canlandırmağa hesablanan "Lavrov planı"nın 12-ci bəndində Ermənistan və Azərbaycan arasında imzalanacaq ayrıca sazişlə Qarabağda yaşayan erməni əhalisinin Ermənistanla təhsil, mədəni, elm, media, idman və digər humanitar əlaqələrin təmin edilməsi təklifi yer alıb. 13-cü bənddə isə daha maraqlı hüquqi məqamlar var. Deməli, Qarabağın erməni əhalisi sərhədi keçərək digər dövlətin ərazisində yaşayan şəxslərlə, xüsusən də ortaq etnik, mədəni, dil və dini mənsubiyyətə malik insanlarla azad və dinc münasibətlər qura, əlaqə saxlaya bilər. Həmçinin, sonuncu – 14-cü bənddə erməni əhalisi üçün kənardan iqtisadi və humanitar yardımların maneəsiz alınması təklif edilir. "Lavrov planı"nın sual doğuran, mübahisələndirilə biləcək incəliyi budur. Layihənin digər 11 bəndi də bu və ya digər şəkildə etnik separatizmi stimullaşdıracaq amillərə yol açan təsiri bağışlayır. Ən ümdəsi isə bu təkliflər paketi Rusiyanın "aparıcı vasitəçi" kimi Qarabağda uzun müddət qalmasına şərait yaratmağa hesablanıb. Bakı üçün ən məqbul variant Qarabağdakı erməni icması ilə kənar aktorların iştirakı olmadan, tet-a-tet danışmaq, onların Azərbaycan vətəndaşlığını qəbul etdikdən sonra respublikamızın digər milli azlıqları, etnik-dini qurumları kimi bərabərhüquqlu və təhlükəsiz yaşamasını təmin etməkdir.

Əksər siyasi şərhçilərin gəldiyi qənaət belədir ki, ortaya çıxarılan sənəddə daha çox Rusiyanın strateji maraqları önə çəkilib. Əslində, "Lavrov planı"ndakı bu müddəaların altında Moskvanın bir növ görünməyən niyyətləri "cücərir".

**Bu amilə diqqəti yönəldən politoloq İlqar Vəlizadə** Moskvanın öz təkliflərini mütləq həqiqət, yaxud imperativ kimi qəbul etdirə biləcəyinin mümkünsüzlüyünü vurğuladı:



"Təklif olunan sənədin ayrı-ayrı maddələrində Qarabağ erməniləri üçün



statusdan yüksək imtiyazlar irəli sürülür. Doğrudur, münaqişənin həllində əsas vasitəçi kimi Rusiya bu təkliflərlə müzakirələrdə iştirak edə bilər, amma ermənilərin bu günü və gələcəyi ilə bağlı məsələlər Azərbaycanın hakimiyyət orqanları tərəfindən ölkənin Konstitusiyasına uyğun şəkildə verilməlidir. Geniş şəkildə "Azərbaycan SSR-in keçmiş Dağlıq Qarabağ Vilayəti ərazisindəki erməni əhalisinin təhlükəsizliyinin və hüquqlarının Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq təmin edilməsinin əsas prinsipləri və parametrləri" kimi adlandırılan və 14 maddədən ibarət bu sənədin maddələri mahiyyətcə başlıqla üst-üstə düşmür. Bir dövlət tərəfindən digər dövlət üçün müəyyən planın tərtib olunması, onun ərazi vahidinin formalaşdırılması üçün xüsusi bir müddəanın hazırlanması və qonşu dövlətin bu müddəalarla razılaşdırılması cəhdi normal deyil".

### Milli siyasətin sovet formulu?

Yeri gəlmişkən, "Lavrov planı" BMT TŞ-də məlum dinləmələrindən əvvəl təklif edilmiş sənəd layihəsidir. Amma, hələlik nə Azərbaycan, nə də Ermənistan bu layihəyə rəsmi səviyyədə münasibət bildirib. Rusiyanın baş diplomatının açıqlamasına görə, bu, üç ölkənin Xarici işlər nazirlərinin görüşündə ortaya çıxan bir sənəddir: "Azərbaycan Xarici İşlər Nazirliyi bu təklif-layihəyə cavab verə bilər. Fəqət, indiyə qədər reaksiya olmayıbsa, deməli, məsələyə o qədər də ciddi yanaşma yoxdur". Politoloq İlqar Vəlizadə münaqişənin tarixinə diqqəti çəkərək deyir ki, "Dağlıq Qarabağ" adlı bir ərazi vahidi məhz Sovet İttifaqı dönəmində Azərbaycana zorla tətbiq olunub və Moskva bu ərazi vahidinin qarantı kimi çıxış edib:

"Sovet dövründə tətbiq olunan xalqlar siyasəti nəzərdə tuturdu ki, müxtəlif millətlərin bir-biri ilə münasibətlərinin tənzimlənməsində Moskva xüsusi rol oynamalıdır və oynayırdı da. Guya, bu yolla SSRİ-də mili-siyasi sabitlik tənzimlənirdi. İndi isə vəziyyət dəyişib. Azərbaycan, Rusiya və Ermənistan müstəqil dövlətlərdir. Ona görə də suveren bir dövlətin ərazisində baş verən proseslərə müdaxilə etmək qəbuledilməzdir. Beynəlxalq prinsiplərə görə, bir dövlət digər dövlətin daxili işlərinə qarışmamalıdır. Bu planda isə bəzi maddələrdə müdaxilə elementi var ki, bu, yolverilməzdir".

Aydın məsələdir ki, Azərbaycan heç bir halda suveren hüquqlarını bu və ya başqa formada məhdudlaşdıracaq hər hansı bir sənədin tətbiq edilməsinə razılığını verməyəcək. Bizim ali qanunumuz sayılan Konstitusiyamızda hər şey aydın şəkildə göstərilir. Burada bir millət digər millətlərdən fərqli tutulmur, hamısı Azərbaycan dövlətinin ərazisi daxilində bərabərhüquqlu vətəndaş kimi yaşayır. Elə bütün ölkələrin öz hüquqları və hüdudları çərçivəsində yaşayıb fəaliyyət göstərməsi daha doğru olar. Bu halda Cənubi Qafqazda vəziyyətin və münasibətlərin tənzimlənməsi missiyası bölgədə maraqlı tərəflərin boynuna düşməz. Bakının beş ay bundan əvvəl İrəvana təklif etdiyi və 5 bəndən ibarət sülh sazişinin mətni hər iki tərəf üçün daha məqbuldur.

Azərbaycan çoxmillətli və çoxkonfessiyalı ölkədir və erməni icması burada yaşayan digər azsaylı xalqlardan artıq deyil. Bəlkə də bunun əksinədir. Ona görə ki, onlar bölgədə yaşanan bütün münaqişələrin və faciələrin baiskarlarıdır. İndi durub onlara xüsusi imtiyazlar, səlahiyyətlər vermək qətiyyən olmaz. Bu, sonrakı dövrlər üçün saatlı bomba effektini verəcək əlavə problemlər deməkdir. Bəli, onlar Azərbaycanın diktə etdiyi şərtləri qəbul etməli və bu şərtlər daxilində yaşamalıdırlar. Bunun alternativi yoxdur!

***İmran BƏDİRXANLI, "Xalq qəzeti"***

# Okampo – beynəlxalq hüquq eksperti, yoxsa erməni katolikosu?

## *Argentinalı dələduz ABŞ-nin ardınca BMT-ni də şantaj etməyə girişib*

*(əvvəli 1-ci səhifədə)*

Cənab Diksonun gəldiyi nəticədə də göstərildiyi kimi, Moreno Okamponun təqdim etdiyi iddialar əsassız, natamam və qeyri-dəqiqdir. Belə ki, hazırda Azərbaycanın Qarabağ bölgəsində soyqırımı törədildiyini iddia etmək üçün heç bir əsas yoxdur. Konkret olaraq, cənab Diksonun fikrincə, Okamponun rəyi "faktlar"da açıq şəkildə selektiv yanaşma tətbiq edir, xüsusən də Ermənistanın Azərbaycanın etnik erməni sakinlərini təmin etmək üçün alternativ yollar təkliflərini rədd etməsini bildirməməsi rəyin selektiv xarakteri daşıdığını bir daha təsdiqləyir".

Məlum olduğu kimi, Beynəlxalq Cinayət Məhkəməsinin keçmiş baş prokuroru, hazırda beynəlxalq hüquq üzrə ekspert kimi fəaliyyət göstərən Luis Moreno Okampo avqust ayı başlayar-başlamaz "Ekspert rəyi: 2023-cü ildə ermənilərə qarşı soyqırımı" adlı hesabat tərtib etmişdi. Bu hesabatın amerikalı pornoulduz Kim Kardaşyanın və onun dostu professor Erik İsraelyanın sifarişi əsasında hazırlandığına şübhə yoxdur. O da məlumdur ki, sənəd BMT TŞ-dəki müzakirə öncəsi beynəlxalq ictimai rəyə təsir göstərməyi hədəf seçirdi. Əlbəttə, məsələ yalnız bu deyildi. Morenonun hesabatdan sonrakı açıqlaması daha bir örtülü məqsədi ortaya çıxardı.

Bəli, Okamponun hesabatı Azərbaycan – Ermənistan danışıqlarında vasitəçilik missiyasını üzərinə götürmüş ABŞ-ın şantaj olunmasını da hədəf seçirdi. İrəvan Birləşmiş Ştatların vasitəçilik menyusuna soyqırımı ritorikasını əlavə etməyi düşünürdü və bunu Okamponun dili ilə ortaya qoydu. Ekspert hesabatını qüvvətləndirmək üçün ABŞ Dövlət Departamentinin rəhbəri Antoni Blinkenə çağırış ünvanlayaraq, onun Qarabağda, əslində, uydurulmuş olan soyqırımının qarşısını almaq iqtidarında olduğunu bildirdi. Şantaj da elə bu idi. Belə çıxır ki, hazırda Birləşmiş Ştatlar ermənilərin qırılmasına göz yumur.

Qeyd edək ki, Okampo yenə əvvəlki "ampluasındadır". O, hesabatının kara gəlmədiyini, üstəlik Y.Əliyevin dili ilə BMT tribunasından sərt və tutarlı tənqidə məruz qaldığını gördükdən sonra, daha da azğınlaşıb. Özünün konsprioloji təfəkkürünü işə salan argentinalı dələduz ABŞ-nin ardınca, BMT-ni də şantaj etməyə girişib. Əlbəttə, bu ritorika da dünya erməniliyinin "məhsuludur". Yeri gəlmişkən, bildirək ki, məqsədinə nail olmadıqda, terrorlar və qətllər törətməklə yanaşı, şantaja baş vurmaq tipik erməni dəst-xəttindən irəli gələn "xüsusiyyətdir". Bunun ən yaxşı şahidi tarixdir. Hazırda erməni terrorunun, belə demək mümkünsə, mənəvi aləti rolunda çıxış edən isə Luis Moreno Okampodur. O, Laçın dəhlizinin blokadaya alınması kimi sərsəm mövzuya həsr olunmuş onlayn konfransdakı çıxışı zamanı onu da bildirib ki, ermənilər Ukrayna münaqişəsinin qurbanı olmamalıdır.



Cenevrə konvensiyalarına görə, soyqırımı üsullarından birinin də qrupun fiziki məhvinə şərait yaratmaq olduğunu deyən argentinalı Laçın dəhlizinin "blokadaya alınması" nəticəsində baş verənləri məhz bu cür qiymətləndirib. O, həmçinin hüquq anlayışını kənara ataraq dəsmalı çıxarıb və ağlaşma qurmağa başlayıb. Qarabağda aclığın yarandığını iddia edən Okampo mövcud durumu "soyqırımı" adlandırmaqla yanaşı, buna görə məsuliyyəti BMT Təhlükəsizlik Şurasının daşıdığını da vurğulayıb.

Bilavasitə ermənilərin, guya qurban olmasına gəlincə, Okamponun sözlərindən belə çıxır ki, münaqişə Rusiyanın, Fransanın və ABŞ-ın fərqli cəbhələrdə yer almaları reallığını doğursa da, onlar "erməni soyqırımı"na münasibətdə həmrəylik göstərməlidirlər. "Bayden 1915-ci il soyqırımını tanıdı. İndi yeni soyqırımın qarşısını almaq lazımdır", – deyən ekspertin, əslində, necə deyərlər, sari simlərə toxunduğu aşkardır. O, sadaladığı dövlətləri saxta "erməni soyqırımı" iddiasına sahib çıxmağa çağırır. Təxminən belə: sizə lazım olanda məsələdən istifadə edirsiniz, indi kənara durmayın, nə vaxtsa lazımınız ola bilər.

Ardınca ekspert hüquq anlayışını heçə sayan daha bir fikir səsləndirib. Sanki adam hüquqşünas yox, erməni katolikosudur. Məsələn, deyib ki, beynəlxalq məhkəmələr Qarabağ ermənilərinin düşdüyü vəziyyəti soyqırımı kimi qiymətləndirmir, amma bu soyqırımıdır. Sual olunur: beynəlxalq məhkəmələr, yəni qanunlar bir hadisəyə soyqırımı olaraq qiymət vermirsə, sən kimsən ki, belə düşünürsən? Deməli, düşüncən subyektivdir. Bəs, öz subyektivizmini nəyə görə beynəlxalq ictimai rəyə sırıyırsan? Çünki Kardaşyanın pul kisəsi də böyükdür?

Digər tərəfdən, Okamponun 1915-ci ilə gedib çıxması, o dövrlə indiki durum arasında paralellər aparması, ümumiyyətlə gülüncdür. Onun sözlərinə görə, Birinci Dünya müharibəsi zamanı "erməni soyqırımı"nı törədənlər hesab edirdilər ki, müharibə səbəbindən etdikləri əməl cəzasız qalacaq. İndi də, guya, Azərbaycan dünyanın başının Ukrayna müharibəsinə qarışmasından istifadə edib Beynəlxalq Cinayət Məhkəməsinin Laçın yolunun açılması ilə bağlı qərarına məhəl qoymur. Ekspert mövcud durumda BMT-nin tədbir görməli olduğunu deməklə kifayətlənmir, eyni zamanda, qurumu borclu da çıxarır: "Daha nə sübuta ehtiyacınız var?" Göründüyü kimi, argentinalı dələduzun mənəvi gilyotin tədbiri ara vermir.

Okampo deyir ki, Rusiya, Fransa və ABŞ Laçın dəhlizinin rus sülhməramlılarının himayəsi altında sərbəst fəaliyyətini təmin etməlidir. Ən əsası isə ABŞ sülhməramlılara öz funksiyalarını yerinə yetirməkdə kömək göstərməlidir. ABŞ və rus sülhməramlılarına kömək. Deyəsən, Okamponun ya ağlı ermənilərin ağlı kimi işləyir, ya da ona Kardaşyan-İsraelyan "dueti"nin maliyyə yatırımının təyinatına səfeh-səfeh danışmaq da daxildir. Bu da beynəlxalq hüquq üzrə tanınmış ekspert!

Fransa kimi zəngin ənənələrə malik ölkə erməni avantürasına münasibətdə tutduğu mövqe ilə öz nüfuzunu necə xərcləyirsə, Okampo da eyni addımı atmaqdadır. Hərçənd, müqayisə bir qədər qüsurlu görünə bilər. Çünki Luis Morena nüfuzunu dünyanın müxtəlif ölkələrində qanlı cinayətlər törətmiş şəxslər Beynəlxalq Cinayət Məhkəməsinin mühakiməsindən yayınmağı bacaranda itirmişdi. Təzada baxın ki, indi belə bir qaranlıq keçmişi olan adam durub Qarabağ erməniləri üçün saxta soyqırımı aqibəti uydurur. Hələ, bu, azmış kimi, həyasızcasına beynəlxalq ictimaiyyəti susmaqda da günahlandırır.

***Ə.RÜSTƏMOV, "Xalq qəzeti"***

# Heydər Əliyev dərsləri



(əvvəli qəzetin ötən saylarında)

## “Bu, yeni problem deyil”

**Hələ Sovetlər dönəmində Dağlıq Qarabağın Azərbaycandan qoparılıb Ermənistana birləşdirilməsinə dövlət səviyyəsində dəfələrlə edilən cəhdlərin qarşısı Heydər Əliyevin iradəsi sayəsində alınmışdı. Bu barədə ulu öndərin fikirləri maraqlıdır:**

– Bu məsələni 50-ci, 60-cı illərdə də qaldırıblar. Mənim o vaxt işlədiyim sahə elə idi ki, bunları yaxşı bilirəm. Nəhayət, 1969-cu ildən Azərbaycana rəhbərlik etmişəm. O zaman da bu məsələlər qaldırılıb. 1977-ci ildə SSRİ-nin Konstitusiyası qəbul olunarkən konstitusiyanı hazırlamaq üçün komissiya təşkil edilmişdi. Komissiyaya o vaxtkı Kommunist Partiyasının Baş katibi Brejnev rəhbərlik edirdi və respublikaların nümayəndələri də, o cümlədən, mən də bu komissiyanın üzvü idim. Komissiya layihəni hazırladığı dövrdə – təxminən, bir il müddətində həddindən artıq təkliflər gəlmişdi ki, Dağlıq Qarabağ ayrılıb Ermənistana verilməlidir. Hətta bir-iki dəfə bu məsələnin komissiyada baxılmasına cəhd olmuşdu. Məni düzgün başa düşün, olan şeyi deyirəm. Mən o vaxt bunların qarşısını aldım. Amma qarşısını almaq da çətin idi. Amma aldım. İradəmlə və Azərbaycan xalqının milli mənafelərini canımla, qanımla müdafiə edərək qarşısını aldım.

Amma, eyni zamanda, Dağlıq Qarabağda vəziyyəti həmişə qızışdırırdılar. Ona görə də mən Azərbaycana rəhbərlik etdiyim zaman – bunu açıq demək lazımdır – biz Dağlıq Qarabağa daha çox iqtisadi cəhətdən şərait yaradırdıq, onların iqtisadiyyatının inkişaf etməsinə üstünlük verirdik. Çünki daim məsələ qalxırdı ki, guya, Dağlıq Qarabağı Azərbaycanda sıxışdırırlar və ermənilər Dağlıq Qarabağda inkişaf edə bilmir. Azərbaycanın bütövlüyünü saxlamaq, bütün ərazisini qorumaq üçün biz o vaxtlar, yenə də deyirəm, Dağlıq Qarabağa daha da çox diqqət yetirirdik.

Doğrudur, sonra bəzi diletant adamlar məni günahlandırırdılar ki, bunu nə üçün edirdim. Mən bu gün də deyirəm, edirdim. Edirdim ona görə ki, birincisi, Dağlıq Qarabağı azərbaycanlılarla da məskunlaşdırmaq lazım idi, ikincisi, Dağlıq Qarabağa, ermənilərə imkan verməyək ki, bu məsələni qaldırsınlar. Sonra məsələ tərsinə oldu. Bu münaqişə başlanandan sonra mətbuatda, SSRİ mətbuatında məni yenə də günahlandırdılar ki, Azərbaycana rəhbərlik etdiyim zaman, guya, erməniləri sıxışdırmışam, oradakı demoqrafik vəziyyəti dəyişdirmişəm, ermənilərin oradan çıxması üçün müəyyən tədbirlər görmüşəm və ermənilər Dağlıq Qarabağda azalıblar. Azərbaycanın başqa yerlərində azaldıqları kimi, Dağlıq Qarabağda da azalıblar. Bunu ermənilər deyirdilər və o vaxtlar bu məsələlər SSRİ Ali Sovetinin sessiyasında müzakirə olunanda onların nümayəndələri, hətta, Ermənistan Elmlər Akademiyasının prezidenti Ambarsumyan – biz vaxtilə onu Azərbaycan Elmlər Akademiyasının fəxri üzvü seçmişdik, o cümlədən, dostluğu möhkəmləndirmək üçün Gürcüstan Elmlər Akademiyasının üzvü seçilmişdi – mənim adımı çəkirdi.

O söz indiyə qədər yadımdadır ki, Heydər Əliyev Dağlıq Qarabağı, Azərbaycanı ardıcıl surətdə ermənilərdən təmizləmişdir. Mən buna təəccüb etmirdim. Amma ona təəccüb edirdim ki, o vaxt Azərbaycanda çoxları yenə də Əliyevi günahlandırır və həmin o sözlərlə razılaşırdılar: bəli, Heydər Əliyev Dağlıq Qarabağa pis münasibət göstərir. Ona görə də indi ermənilər Dağlıq Qarabağı Ermənistana bağlamaq istəyirlər. Mənim bunları sizə çatdırmaqda məqsədim ondan ibarətdir ki, bilin, yəni, bu, yeni problem deyildir. Ermənistan tərəfi bunun üzərində işləyirdi. O fakt da nəzərdən qaçmamalıdır ki, mən Moskvada bütün işlərdən kənarlaşdırılandan 25 gün sonra bu proses sürətlə başladı. Ondan bir ay sonra Dağlıq Qarabağda olan ermənilərin hamısı ayağa qalxdılar və qərar qəbul etdilər ki, Dağlıq Qarabağ Ermənistana birləşdirilsin. Ondan sonra bu faciələr başladı, bunun nəticəsi də göz qabağındadır.

## “Azərbaycanı günahlandırdılar, ləkələdilər”

**Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın günahı ucbatından baş verməsini iddia edənlərə ümummilli liderin cavabı həmişə birmənalı olmuşdu. Ulu öndər bu barədə danışarkən demişdir:**

– 1988-ci ildə Moskvada nə yazılar gedirdi? Bu münaqişə nə üçün başlandı? Çünki Azərbaycan rəhbərliyi və xüsusən, o vaxtlar təqib altında olan, təcrid vəziyyətində yaşayan Heydər Əliyev, Azərbaycanın keçmiş rəhbəri, guya, erməniləri Azərbaycanda əzibdir və Dağlıq Qarabağa ögey münasibət göstəribdir. Guya, Dağlıq Qarabağ Azərbaycanın tərkibində olarkən inkişaf edə bilməyibdir, ona görə də ermənilər boğaza yığılıblar və indi Azərbaycanın tərkibindən çıxıb Ermənistanın tərkibinə keçmək istəyirlər.

Guya, bunların da əsası var, çünki bunlara ögey münasibət göstəribdir, guya, bunun da günahkarı Heydər Əliyevdir. Siz bu yazıları, sözləri xatırlayırsınız. Bunu Moskvada təkcə Azərbaycana düşmən olan adamlar demirdilər, bunu burada bəzi azərbaycanlılar da deyirdilər. Azərbaycanın o vaxtkı rəhbərləri bunu Moskvada tribunalardan deyirdilər. Onlar kimə xidmət ediblər? Öz şəxsi ambissiyalarını həyata keçirmək üçün, şəxsi mənfur məqsədlərinə nail olmaq üçün xalqı, milləti ləkələyirdilər.

Mən o vaxt bir neçə yerə məlumat verdim ki, bunlar yalandır. Sənədlər çıxardım ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibində Ümumazərbaycan səviyyəsindən üç dəfə artıq inkişaf edibdir. Bütün illərdə, elə 20-ci illərdən başlayaraq, o cümlədən, 70-ci illərdə. Rəqəmlər var idi, statistika var idi. Amma o statistikaya baxan yox idi. Həmin vaxt onlara lazım idi ki, Azərbaycanı günahlandırsınlar və Azərbaycanı günahlandırdılar, ləkələdilər. Beləliklə, həm Sovetlər İttifaqında, Moskvada belə bir fikir yarandı və həm də erməni diasporu bütün dünyada bu fikri yaratdı ki, guya, bu münaqişədə Azərbaycan günahkardır.

## “Azərbaycana qarşı münasibət tamamilə başqa idi”

**Hələ Sovetlər Birliyi dövründə Moskva Cənubi Qafqaz respublikalarına fərqli münasibət bəsləyirdi. Bu münasibət həmin respublikaların Dövlət Təhlükəsizlik Komitələrinə rəhbərlər təyin edilməsində özünü daha açıq büruzə verirdi. Ümummilli liderimizin bu məsələ barədə fikirlərini dinləyək:**

– Təsəvvür edin, Azərbaycanda o illərdə Təhlükəsizlik Nazirliyinin, təşkilatının başçısını yerli kadrlardan təyin etmək mümkün deyildi. Sadəcə olaraq, açıqca bəyan edirdilər ki, bu, mərkəzdən gəlməlidir, azərbaycanlı olmamalıdır. 1967-ci ildə ilk dəfə Azərbaycanın Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsinə azərbaycanlının təyin edilməsi, demək olar ki, bir tarixi hadisə oldu. O illər biz çox iş gördük, təhlükəsizlik orqanlarında milli kadrların hazırlanmasına və irəli çəkilməsinə nail olduq.

Ancaq, təəssüflər olsun ki, 1985-ci ildən etibarən, yenə də Azərbaycanın Təhlükəsizlik Komitəsinə kənardan kadrların gətirilməsi prosesi başladı. Nəhayət, burada qeyd edildiyi kimi, 1988-ci ildə, Azərbaycanın ən ağır dövründə yenə də Təhlükəsizlik Nazirliyinin rəhbərliyinə mərkəzdən təyin olunmuş insan, Azərbaycanda heç vaxt işləməmiş, respublikamızın xüsusiyyətini bilməyən adam idi. Bu, qəsdən edilmişdi. Çünki lazım idi ki, Azərbaycanın təhlükəsizlik orqanlarında milli kadrların iradəsi sındırılsın və onlar yenə də mərkəzin iradəsinə tabe etdirilsin.

Onu da qeyd etmək istəyirəm ki, məsələn, Cənubi Qafqazın digər respublikalarında vəziyyət belə deyildi. Orada təhlükəsizlik orqanlarında həm yerli, milli kadrlar əksəriyyəti təşkil edirdi, həm də onların rəhbərləri, birinci şəxs həmişə öz yerli, milli kadrlarından idi. Belə bir faktı xatırlayıram. Deyəsən, 1972, 1973, 1974-cü illərdə Ermənistanda Dövlət Təhlükəsizliyi Komitəsinin sədrini dəyişdirib oraya Moskvadan rus göndərdilər. Xatirimdədir, bir dəfə görüşümüzdə Andropov mənə danışırdı ki, belə bir qərar qəbul ediləndən sonra Mikoyan ona telefonla zəng etmiş və öz narazılığını, etirazını bildirmişdi. Bəyan etmişdi ki, Ermənistana təhlükəsizlik orqanının başçısı vəzifəsinə rus təyin etmək mümkün deyildi. Siz bunu nə üçün etdiniz? O vaxt mən Andropova dedim ki, bəs Mikoyan düşünmürmü ki, Azərbaycanda on illərlə bu vəzifəyə heç vaxt azərbaycanlı təyin olunmayıbdır, həmişə Moskvadan göndərilmiş, rus millətinə mənsub olan adam təyin edilibdir.

Beləliklə, görürsünüz, o vaxt Cənubi Qafqazın digər respublikalarına nisbətən Azərbaycana qarşı münasibət tamamilə başqa idi. Bunlar hamısı Azərbaycanı daim təzyiq altında saxlamaq, daim idarə etmək və Azərbaycanda milli dirçəlişin, milli oyanışın qarşısını almaq məqsədi daşıyırdı.

## “Necə də qəribə məntiqdir”

**“Literaturnaya qazeta”nın xüsusi müxbirlərinə verdiyi müsahibədə Heydər Əliyev bir daha Rusiyanın Ermənistana silah-sursat verməsini gündəmə gətirmişdi:**

– Dəfələrlə bəyan etmişəm: Qarabağ probleminin həllinin, regionun normal həyata keçməsinin açarı Rusiyanın əlindədir. Ermənistana onun təsiri çox böyükdür və vəziyyətin qəti şəkildə nizama salınması Rusiyanın xoş məramından asılıdır. Konkret tədbirlər görülməsini Yeltsindən nə qədər xahiş etmişdim! Vədlərdən savayı heç bir iş görülmədi.

1997-ci ildə Prezident Aparatının Nəzarət İdarəsi Ermənistana qeyri-leqal, qanunsuz, pulsuz olaraq bir milyard dollarlıq silah, döyüş sürsatı, hərbi texnika verilməsi faktını aşkara çıxardı. Məsələ, hətta, Dumada müzakirə olunur və Duma işin istintaqının prokurorluğa tapşırılması haqqında qərar qəbul edir.

Mən Yeltsinlə görüşürəm, o, hiddətlənir: "Bəli, bütün bunları mənim nəzarət idarəm aşkara çıxarıbdır. Mən göstəriş vermişəm". Bu, 1997-ci ilin martında baş verir. İyulun əvvəllərində mən Moskvaya rəsmi səfərə gedirəm. Orada bu məsələni qaldırıram, artıq Yeltsinin avazı başqa cür gəlir. Görünür, onu müdafiə olunmağa hazırlamışdılar. O, mənə deyir: "Bilirsinizmi, bunu araşdırmaq lazımdır, mənə deyirlər ki, Sovet İttifaqı dağılarkən Azərbaycanda Ermənistandakına nisbətən daha çox silah qalmışdır".

Necə də qəribə məntiqdir. Deməliyəm ki, mən öz münasibətimi çox kəskin şəkildə bildirdim. Onda o, mənə deyir: "gəlin, birgə komissiya yaradaq". Mən güzəştə getdim, komissiyanı yaratdıq. Əlbəttə, hər şey bürokratik süründürməçilikdə itib-batdı. İstintaq gedir. Vəziyyət tamamilə aydındır, amma heç nə dəyişməyibdir...

## “Həftədə üç dəfə Arazın kənarına gəlirdim”

**Türkiyə ilə Naxçıvanı birləşdirən “Ümid körpüsü”nün əsası Heydər Əliyev tərəfindən qoyulmuşdu. Lakin ulu öndər bu işin baş tutması yolunda qarşılaşdıı çətinlikləri sonralar belə xatırlamışdı:**

– Yetmişinci illərdə mən Azərbaycana rəhbərlik edərkən Türkiyə ilə əlaqələr qurmağa çalışırdım. Ancaq Sovetlər Birliyi bizi sıxırdı, müstəqil hərəkət etməyə imkanımız yox idi. Amma 1992-ci ildə açdığımız "Həsrət körpüsü"nün – "Ümid körpüsü"nün əsasını mən o vaxt qoydum. Sonra Moskvada Sovetlər İttifaqının başçılarından biri olarkən həmin qərarın həyata keçirilməsinə şərait yaratdım, onu təmin etdim. Amma Sovetlər İttifaqının rəhbərləri də, ermənilər də, başqaları da bunu istəmirdilər. Deyirdilər, Sovetlər İttifaqı böyük bir ölkədir, bir tərəfdən Gürcüstandan, o biri tərəfdən Ermənistandan Türkiyəyə yolları var. Belə bir körpü nəyə lazımdır, ona nə üçün xərc qoyulsun? Belə iqtisadi məsələlər ortaya atırdılar.

Amma mən buna nail oldum və Allah elə buyurdu ki, Moskva ilə vidalaşdım, gəldim Bakıya, sonra da gəldim Naxçıvana və həmin körpünün tikilməsi ilə şəxsən özüm məşğul oldum. Siz o vaxtlar İqdırda oturmuşdunuz, bilmirdiniz ki, həmin işləri biz necə görürdük.

Ancaq mən həftədə üç dəfə Arazın kənarına gəlirdim. Adamları çayın o tərəfinə, bu tərəfinə göndərirdik ki, körpünü tikək. Tikinti ləngiyirdi. Biz orada müvəqqəti körpü düzəltdik, xatirinizdədirmi, dəmir körpü idi? Körpü Arazın o tayında tikilirdi, bu işi Türkiyə öz üzərinə götürmüşdü. Bizim maddi imkanımız yox idi. Çayın bu sahili ilə əlaqə lazım idi ki, inşaatçılar gedib-gələ bilsinlər. Biz bunu yaratdıq. Mən həmin müvəqqəti körpünü açdım.

Ola bilər, siz o vaxt İqdırda deyildiniz. Orada idiniz, hə? O vaxt hələ sovet hökuməti, rus əsgərləri vardı. Mən elan etdim ki, sabah saat 10-da körpünün açılışı olacaq. Naxçıvandan oraya iyirmi minədək adam gəldi, mitinq keçirdik. Amma sizin tərəfdən adamlar gəlməmişdi, qorxmuşdular. Orada sizin sərhədçilər toplaşmışdılar, sərhədi qorumağa çalışırdılar. Bizim tərəfdən sərhədi qoruyanlar rus əsgərləri idilər. Orada bir polkovnik vardı, mənə tabe deyildi, amma şəxsiyyətimə hörmət edirdi. Mənə bildirdi ki, bunu etmək olmaz. Dedim ki, sən çəkil. Əsgərləri gətirdi ki, bizim adamların qarşısını kəssinlər. Dedim, yox, əsgərləri götür, yoxsa bu insanlar onları əzəcəklər.

Ara qızışdı, bu proses bir-iki saat çəkdi. Mən elan etdim ki, biz özümüz sərhədi açırıq. Dəmirdən, taxtadan düzəldilmiş körpü çox kiçik idi. Onu açan kimi insanlar körpüyə doluşdular. Sizin tərəfdən sərhədçilər gəlib körpünün ortasında dayandılar ki, buraxmırıq, qayıtsınlar. İnsanlar da həsrətlə o tərəfə keçmək istəyirdilər. Çünki Naxçıvanda Türkiyəyə, Türkiyə torpağına insanlarda o qədər məhəbbət, sevgi var ki, keçib oranı görmək istəyirdilər.

Əslində, orada, Arazın kənarında nə var ki?! Heç nə yoxdur. Oradan Aralığa getmək üçün, təxminən, 40 kilometr, buradan da İqdıra getmək üçün 30 kilometr yol keçmək lazımdır. Amma insanlar bunu təsəvvür etmirdilər, elə bilirdilər ki, Arazın o tərəfinə keçdilər – elə Türkiyədir, Türkiyənin hər yerini görəcəklər.

Xatirimdədir, "Zaman" qəzetinin başqanı İlham bəy İşbilən mənim yanımda idi. Gördüm, körpüyə o qədər adam yığılıb ki, körpü uçacaq, insanlar da hamısı Araza töküləcək. Sizin adamlar da buraxmırdılar. Mən onlara bir az qışqırdım, geriyə çəkildilər və körpü açıldı. Təxminən, on min adam Türkiyə torpağına keçdi. Keçənlər də orada dayanmır, qaçırdılar ki, mümkün qədər çox getsinlər.

Bax burada, mənim yanımda olan Bəylər indi generaldır, mənim mühafizəçilərimin başçısıdır. O, sonra mənə danışırdı ki, getdim oradan torbaya yığıb torpaq gətirdim, Türkiyə torpağı. Bunu təsəvvür edirsinizmi? Sonra mənə Moskvadan ittihamlar gəldi ki, – o vaxt hələ Moskva hakim idi, – Heydər Əliyev orada qanunsuz iş görüb, filan edibdir. Bunu qəzetlərə verdilər, televiziyada göstərdilər. Rus polkovniki də gəlib mənə dedi ki, sizin insanların bir çoxu Türkiyəyə gedib, amma qayıtmayıb. Hətta mənə dedilər ki, iki gənc orada su kanalına düşüb boğulmuşdur. Belə bir faciə də olmuşdu. Ondan sonra biz həmin körpünü işlətdik və nəhayət, böyük körpünü tikdik.

Xatirinizdədir, 1992-ci il mayın 28-də hörmətli dostum, əziz qardaşım Süleyman Dəmirəl bütün Türkiyəni yığıb gətirdi. Naxçıvanın tarixində belə bir şey olmamışdı.

**(ardı var)**

***Faiq SADIQOV,***
***Əməkdar jurnalist***

# Ulu öndərin ekoloji siyasəti

**Muxtar Respublikanın Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublikası təşkilatının birgə keçirdiyi konfransda ümummilli lider Heydər Əliyevin ekoloji siyasətindən geniş söhbət açılıb.**

Muxtar respublikanın ekologiya və təbii sərvətlər naziri vəzifəsini icra edən Xanlar Mustafayev bildirib ki, ulu öndərin təşəbbüsü ilə Azərbaycanda davamlı yaşıllaşdırma tədbirləri həyata keçirilib, nadir flora və fauna növlərinin qorunması, mühafizə edilməsi istiqamətində konkret dövlət siyasəti müəyyən edilib.

YAP Naxçıvan şəhər təşkilatının sədri Elman Cəfərli isə qeyd edib ki, mövcud ekoloji problemlərin sistemli həllini təmin etmək məqsədilə Prezident Heydər Əliyevin sərəncamı ilə “Azərbaycan Respublikasında ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair” və “Azərbaycan Respublikasında meşələrin bərpa edilməsi və artırılmasına dair” Milli proqramlar təsdiq olunub.

Bildirilib ki, “Heydər Əliyev İli” ilə əlaqədar Naxçıvan Muxtar Respublikasında 440,1 hektar ərazidə yaşıllaşdırma tədbirlərinin keçirilməsi nəzərdə tutulub.

***Səbuhi HƏSƏNOV***

# Qüdrətli Milli Ordunun banisi

**Ölkəmizdə 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Prezident Sərəncamının icrası ilə əlaqədar Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən Azərbaycan Ordusunda keçirilən silsilə tədbirlər davam edir.**



Müdafiə Nazirliyinin tabeliyindəki "N" hərbi hissəsində keçirilən tədbirdə çıxış edənlər ulu öndərin müasir Azərbaycan Ordusunun yaradılması və inkişafında misilsiz xidmətlərindən danışıblar. Qeyd olunub ki, bu il anadan olmasının 100 illiyini təntənə ilə qeyd etdiyimiz ümummilli iider həyata keçirdiyi uğurlu daxili və xarici siyasət nəticəsində Azərbaycanın dövlət müstəqilliyi möhkəmləndirilib, ölkəmizin beynəlxalq mövqeyi güclənib. Onun müdrik siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sayəsində ölkəmizin durmadan inkişaf etdiyi xüsusi vurğulanıb.

Sonda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivi ulu öndərə həsr olunmuş musiqi nömrələri təqdim ediblər.

***“Xalq qəzeti”***

Böyük Qayıdışın akkordları

# Can sənə qurban, Laçın!

## Hoçazdağın ətəkləri çal-çağırlı günlərinə qayıdır

**İki gün öncə Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən növbəti köç karvanı Laçına yola salınıb. Bu mərhələdə Laçın şəhərinə daha 18 ailə – 65 nəfər köçürülüb. Bununla da Laçın şəhərində 221 ailə, yəni 858 nəfərin daimi məskunlaşması təmin edilib.**





Qeyd edək ki, quruculuq işləri sayəsində yeni nəfəs verilən Laçın şəhərinin Baş Planında iri xəstəxana, İşğal və Zəfər muzeylərinin yerləşəcəyi Memorial Park, məktəbəqədər və tam orta təhsil müəssisələri, peşə məktəbi, həmçinin mədəniyyət və turizm obyektlərinin də yaradılması nəzərdə tutulub. Heydər Əliyev Fondunun xətti ilə Laçında məscid kompleksi də tikilir. Prezident İlham Əliyev Laçında olarkən məscidin təməlini qoyub. 2025-ci ilin əvvəllərində hava limanı istismara veriləcək. Zabux və Sus kəndlərinin tamamilə yenidən qurulması prosesinə də start verilib. Zabuxda 1000-dən çox, Susda isə 300-dən çox insan yerləşəcək. Güləbird və Qorçu kəndlərinin də Baş planı təsdiqlənib. İlk mərhələdə, Güləbirdə 2 min 400, Qorçuya isə 1300 laçınlının qayıdışı reallaşacaq.

Yenicə dağlar qoynuna köçən bir ailəni mənə hörmətli qələmdaşım Təranə Məmməd nişan verdi. Bildirdi ki, qaçqınlıq taleyi yaşayan Mehriban ana ilə qızı Natanın Laçına dönmək arzusu, nəhayət, gerçəyə dönüb. İndi orada şad-xürrəm oturub Bakıdakı dost-tanışlarının qonaq gəlməsini gözləyirlər!

Təranə Məmməddən Nata xanımın telefon nömrəsini alıb Laçına zəng etdim. O, yurda qayıdış sevincini həvəslə bölüşdü. Öyrəndim ki, onlar Laçın şəhərində, əvvəllər Sovet İttifaqı Qəhrəmanı Əvəz Verdiyevin adını daşıyan, indi isə "Zəfər" adı verilən küçəyə həvəslə – uşaqlığının keçdiyi doğma evə köçüblər. Əsaslı təmir edilmiş 176 nömrəli bu ev Böyük Zəfər sevincinin qanadlarında Laçına qayıdan Nata xanımın ailəsi 31 il həsrətini çəkdikləri ünvandır.

Mehriban ana deyir: "Bu tikililər o qədər bəxtəvər günlərin şahidi olub ki!" Yaxınlıqda doğum evi vardı, qəhrəmana abidə ucaldılmışdı. Heç biri qalmayıb. İnanırıq ki, tez bir zamanda buralardan ermənilərin bütün izləri tamamilə silinəcək. Hər şey bərpa olunacaq. Heyif, anam, ömür-gün dostum, digər yaşlılarımız bu fərəhi yaşamadılar, qaçqınlıq əzablarına dözməyib dünyalarını dəyişdilər. Şükür ki, heç olmasa, qardaşım Qəzənfərə bizimlə bərabər doğma yurda qayıtmaq qismət oldu.

Nata Uğurlu isə qayıdış uğurunu tale töhfəsi sayır. O, bura köçənə qədər düz 22 il Bakıda Nəsimi Rayon Mərkəzi Kitabxana Sisteminin 4 saylı filialında çalışıb. Laçında kitabxana açılana qədər başqa nə iş olsa, işləyəcəyini bildirir: "Şəhərdə mənzərələr əladır, az-çox fırça işlədə bilən baxımlı tablolar yaradar. Yaxınlıqdakı "Rahat market" isə müasir şəhər atributudur. Laçında salınan çaykənarı bulvarda da işlər sürətlə gedir. Hər şey daha da yaxşı olacaq, inşallah!".

Onun nənəsi və atası Laçın şəhərindəki 2 nömrəli məktəbin müəlimləri olublar. Özü də orada oxuyub. İndi Laçında təzə məktəb tikilir. Bacısı Şəbnəm Cəbrayıl yeni dərs ilindən orada müəllimlik edəcək, qızları Dəniz və Günəş də təzə məktəbdə dərsə gedəcəklər. Uşaqların atası Orxan isə həkimdir. camaatın sağlamlığı keşiyində duracaq.



Bu gün Nata xanımın nənəsi – son nəfəsədək Laçınina dönmək həsrəti ilə yaşamış Şəfiqə Həsənalı qızı Baxışovanın ruhu şaddır. Bütün laçınlılar onu yaxşı tanıyırdı. Azərbaycan qadınına xas nəcibliyi ilə seçilən insan, fədakar müəllim, cəfakeş el anası idi Şəfiqə xanım. Gözəl natiqliyi, yazı üslübu vardı. "Şərəf nişanı" ordeninə, "Qabaqcıl maarif xadimi" nişanına layiq görülmüşdü.

Şəfiqə nənə görün bir neçə il əvvəl "Laçın yurdu" jurnalında doğma el-obası haqqında xatirələri necə yanıqlı bir dillə yazıb: "Laçın təkcə laçınlıların deyildi. Bütün aran rayonlarının camaatı buradan bir yaylaq kimi istifadə edirdi. Dağı, dərəsi, məlhəm suları, meşəsi, otlağı olan bu yerlər təbiətin bir möcüzəsidir. Gecələr göydə nə qədər ulduz varsa, sanki, bizim səmaya toplaşardı. Bircə gecə Çalbayır yaylağında alaçıqda yatsan, bilərsən ki, bura behiştin özüdür. Lülpər dağında yayın qızmarında su arxının kənarları buz bağlayırdı, buzun altından yarpız boy göstərirdi. Nərdivan dağına qalxıb, Qızıl Qayaya baxsan deyərsən: İlahi, nə büsatdır? Günəş şüaları həmin qayanı necə də qızıl daşa çevirir? İnsanlarımız da dağlarımız kimi əzəmətli, əyilməz, dürüstdürlər. Kişilər – Nəbi qeyrətli, zəhmətkeş, qadınlar – Həcər timsallı. Qızlarımız əl hanasında xalı, kilim toxumaqda yarışa girirdi.

Bir dəfə Laçından alim dostu üçün səbət balı gətirən gəncə alimin sualı belə olmuşdu: "Bala, siz bu balı yeyəndən sonra niyə uçmursunuz?"

Uçurduq, biz göyün lap yeddinci qatında uçurduq. Hər kəs daha rahat yaşamaq üçün gecə-gündüz çalışırdı. Şəhərə Minkənd suyu çəkilib qurtarmaqda idi, amma bütün ətraf su boruları ilə dolu qaldı. Sən demə, xain ermənilər pusquda durub, girəvə gözləyirmiş..."

Anasının yad edildiyini görən Mehriban xanım istər-istəməz kövrəlir: "30 il həsrətini çəkdik Laçının. Nəvələrimə nağıl əvəzinə Laçın xatirələrimi danışırdım. Budur, nağıllar gerçəyə dönüb. Prezidentimiz var olsun! Hərbçilərimizə Allah yar olsun!".

Bəli, bu yay Laçına neçə köç karvanı yetişib. Ardı da olacaq. Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad olunmuş digər yaşayış məntəqələri də bərpa edildikcə məskunlaşma davam edəcək.

İllər boyu laçınlıların yanğı ilə zümzümə etdikləri el mahnısının nəqəratı indi coşğu ilə səslənir:

**Ay Laçın, can Laçın,**
**Mən sənə qurban, Laçın...**

Qayıdışınız mübarək, Laçın sevdalı laçınlılar!

***Əli NƏCƏFXANLI, "Xalq qəzeti"***

# SOSİAL XƏBƏRLƏR

## Pensiya islahatlarına dəstək

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın Təlim Mərkəzində "Pensiya: müqayisəli perspektivdə metodlar və risklər" mövzusunda ikigünlük təlim keçirilib.**



Avropa İttifaqı ilə Azərbaycan arasında Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi üzrə "Azərbaycanda pensiya islahatlarına dəstək – Faza 2" layihəsi çərçivəsində keçirilən təlimdə Əmək və Əhalinin Sosial Müdafiəsi, Maliyyə, İqtisadiyyat və Ədliyyə nazirliklərinin əməkdaşları, həmçinin Dövlət Sosial Müdafiə Fondu, DOST Rəqəmsal İnnovasiyalar Mərkəzinin nümayəndələri iştirak ediblər.

Təlimdə Leuven Universitetinin professoru Yves Stevens tərəfindən "Pensiyanın maliyyələşdirmə üsulları" , "Sosial təminatın modelləri və idarə edilməsi" , "Pensiya ilə bağlı risklər" mövzuları haqqında məlumatlar verilib. İştirakçıların sualları cavablandırılıb.

Sonda təlim iştirakçılarına sertifikatlar təqdim edilib.

## E-xidmətlərə 10 milyondan çox müraciət edilib

**Bu ilin yanvar–iyul aylarında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyət sahələri üzrə elektron xidmətlərə 10 milyon 350 min müraciət qeydə alınıb. Bu barədə qurumdan verilən məlumatda deyilir.**




Bildirilir ki, hazırda nazirliyin 153 xidmətinin 90 faizdən çoxu e-qaydada təqdim edilir. Həmçinin digər qurumların informasiya bazaları ilə inteqrasiya prosesi təmin olunur. Cari ilin 7 ayında nazirliyin mərkəzləşmiş informasiya sistemlərinə həmin qurumlardan daxil olan sorğu sayı 146 milyon olub.

Aldığımız məlumatda, həmçinin qeyd edilir ki, son illərin mühüm rəqəmsal sosial nailiyyətlərindən olan e-sosial internet portalından isə yanvar–iyul aylarında 4 milyon 537 min 400 dəfə istifadə olunub.

## 7 ayda ödənişlərin həcmi artıb

**Bu ilin 7 ayında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu tərəfindən 462 min nəfərə sosial müavinət, 374 min nəfərə Prezidentin aylıq təqaüdü ödənilib.**




Əhaliyə sosial müavinətlər üzrə ötən ilin müvafiq dövrünə nisbətən 24 faiz çox olmaqla 578 milyon manat, Prezident təqaüdləri üzrə 21 faiz çox – 374 milyon manat ayrılıb.

Qeyd edək ki, yanvar–iyul aylarında 79 min, sosial ödənişlərin elektron təyinatına başlandığı 2019-cu ildən 508 min müavinət və təqaüd təyinatı e-sistem üzərindən proaktiv qaydada həyata keçirilib.

***Zərifə HÜSEYNOVA, "Xalq qəzeti"***

# "Bir kəmər-bir yolun on ili: tərəqqi və perspektivlər"




**Çinin Xarici Əlaqələr İnstitutu, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi, Çonqyan Maliyyə İnstitutu və Çinin Renmin Universitetinin birgə təşkilatçılığı ilə Pekində "Bir kəmər-bir yolun on ili: tərəqqi və perspektivlər" mövzusunda beynəlxalq simpozium keçirilib.**

Tədbir qlobal infrastruktur təşəbbüsünün tərəqqisini və perspektivlərini müzakirə etmək üçün ekspertləri, diplomatları və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü olan "Bir kəmər-bir yol" ölkələrinin sabiq ölkə və hökumət başçılarını bir araya gətirib.

Tədbirdə Serbiyanın sabiq Prezidenti Boris Tadiç bildirib ki, son 10 ildə "Bir kəmər-bir yol" təşəbbüsü qlobal arenada dəyişdirici rol oynadı, dünyaya əvvəlkindən daha çox çoxtərəflilik gətirdi və eyni zamanda, bu təşəbbüsün istiqamətində olan ölkələr üçün daha yaxşı şərait yaratdı. Orta Dəhliz layihəsi Çin, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Türkiyə, Qərbi Balkanlar və Avropa İttifaqını bir araya gətirən, Avropa və Asiya arasında ticarət və tərəfdaşlıq üçün inkişaf edən digər mühüm təşəbbüsdür.

Qırğızıstanın sabiq Baş naziri Comart Otorbayev isə qeyd edib ki, artıq Çin və Qırğızıstan arasında iki magistral yol çəkilib. Bu da hər iki ölkə, Cənubi Qafqaz daxil olmaqla, bütün region üçün çox böyük fayda gətirəcək. "Bir kəmər-bir yol" təşəbbüsünün qlobal inkişaf və idarəçilikdə daha böyük rol oynaması üçün bütün potensialı var.

Bosniya və Herseqovinanın sabiq Baş naziri Zlatko Laqumciya bildirib ki, "Bir kəmər-bir yol" təşəbbüsü, əslində, qarşılıqlı fayda üçün birlikdə işləri necə edə biləcəyimizlə bağlı paradiqmanı dəyişir. Bu təşəbbüs BMT tərəfindən qəbul edilmiş davamlı inkişaf məqsədləri olan daha böyük mənzərə istiqamətində irəliyə doğru çox konkret addımdır.

"Çinin reallaşdırdığı təşəbbüslərə önəm veririk və hər il keçirilən Qlobal Bakı Forumunda "Bir kəmər-bir yol"un qlobal səviyyədə əhəmiyyəti ilə bağlı tərəfdaş təşkilatlarla birgə müzakirələr aparılır", – deyə o qeyd edib.

Konfrans barədə xarici mediada, o cümlədən, CCTV, "Xinhua News Agency", CGTN, "China News", "China Daily Economic Daily", "Liberation Daily China macro network", "Beijing Daily", "People's Daily Overseas Network", "Hubei TV", "First Financial Television", "Hong Kong China Rating Agency", "US NBC", "Pakistan Independent News", "American Market News Service International", "Sankei Shimbun"da məqalələr dərc edilib.

# Müdafiə Nazirliyinin məlumatı



**Avqustun 19-u saat 16:00 radələrində Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri Azərbaycan Ordusunun Xocalı rayonu istiqamətində yerləşən mövqelərinin qarşısında kənd təsərrüfatı işləri adı altında uzunmüddətli fortifikasiya qurğularını hazırlamağa cəhd göstəriblər.**

Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib.

"Bölmələrimiz tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan mühəndis-istehkam işləri dərhal dayandırılıb", – məlumatda qeyd olunub.

* * *

Avqustun 19-u saat 16:45-də Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Əzizli yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Yellicə yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə cavab tədbirləri görülüb.

***"Xalq qəzeti"***

# Sığorta sferası sürətlə genişlənir

## Bu sahə üzrə yığım 7 ayda 31,2 faiz artaraq 761 milyon 801 min manata çatıb

(əvvəli 1-ci səhifədə)

Hesabat dövrü ərzində Azərbaycanda könüllü sığorta növləri üzrə 559 milyon 287 min manat, icbari sığorta növləri üzrə 202 milyon 513 min manat sığorta haqqı toplanılıb. 2022-ci ilin yanvar-iyul ayları ilə müqayisədə könüllü sığorta növləri üzrə toplanan sığorta haqqları 27,5 faiz və ya 120 milyon 577 min manat, icbari sığorta növləri üzrə sığorta daxil olmaları isə 42,8 faiz və ya 60 milyon 723 min manat artıb.

Ötən 7 ayda könüllü sığorta növləri üzrə ödənişlərin məbləği 18,5 faiz artaraq 221 milyon 326 min manat, icbari sığorta növləri üzrə ödənişlərin həcmi isə 13,4 artaraq 61 milyon 651 min manata bərabər olub.

Beləliklə, cari ilin yanvar-iyul aylarında könüllü sığorta bazarında toplanan hər 100 manat sığorta haqqından 39,6 manat sığorta ödənişi edilib. Bu rəqəm 2022-ci ilin ilk 7 ayında 42,5 manata bərabər olub. Cari ilin yanvar-iyul ayları ərzində icbari sığorta bazarında hər 100 manat sığorta haqqına düşən ödənişin məbləği isə 30,4 manat təşkil edib. Bu göstərici isə ötən ilin ilk 7 ayında 38, 3 manata bərabər olub.

Azərbaycanda ötən 7 ayda həyat və qeyri-həyat sığorta yığımları da artıb. Belə ki, hesabat dövründə respublikada həyat sığortası ilə 338 milyon 307 min manat, qeyri-həyat sığortası hesabına isə 220 milyon 980 min manat sığorta haqqı toplanılıb. Keçən ilin müvafiq dövrü ilə müqayisədə həyat sığortası üzrə yığımlar 35,9 faiz və ya 89 milyon 292 min manat, qeyri-həyat sığortası ilə yığımlar 16,5 faiz və ya 31 milyon 285 min manat artıb.

Qeyd edək ki, hesabat dövründə həyat sığorta növləri üzrə ödənişlərin məbləği 25,8 faiz artaraq 166 milyon 259 min manat, qeyri-həyat sığorta üzrə ödənişlərin həcmi isə 0,9 faiz artaraq 55 milyon 66 min manata bərabər olub.

Beləliklə, cari ilin yanvar-iyul aylarında həyat sığorta bazarında toplanmış hər 100 manat sığorta haqqından 49,1 manat sığorta ödənişi edilib. Bu rəqəm 2022-ci ilin ilk 7 ayında 20,7 manata bərabər olub. Hesabat dövründə qeyri-həyat sığorta bazarında hər 100 manat sığorta haqqına düşən ödənişin məbləği isə 24,9 manat təşkil edib ki, bu göstərici ötən ilin müvafiq dövründə 28,8 manata bərabər idi.



### Ekspert rəyi

**Nihat QORQUD ƏLİYEV,**
**iqtisadçı-ekspert**



Respublikamızda sığorta bazarının davamlı inkişafı mühüm strateji əhəmiyyət daşıyır. Təsadüfi deyil ki, "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə də maliyyə sahəsi qarşısında çeviklik, rəqabətqabiliyyətlilik və innovativlik kimi yeni vəzifələr durur. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində isə bu sektorda sistemli institusional islahatlar, bazar infrastrukturunun müasirləşdirilməsi, rəqəmsal transformasiya və intensiv maarifləndirmə tədbirləri vasitəsilə sığorta bazarı həcminin hər il 10 faiz artırılması əsas məqsəd kimi diqqətə çatdırılır.

Sonda onu da qeyd edim ki, Mərkəzi Bank sığortalıların hüquq və vəzifələri barədə məlumatlandırılmasına, sığortaya olan inamın artırılmasına hər zaman xüsusi diqqət yetirir, daim sığortaçıların sığorta ödənişləri ilə bağlı bütün öhdəliklərinin tam və vaxtında həyata keçirilməsi üçün onların maliyyə dayanıqlığının gücləndiirlməsi üçün mütəmadi tədbirlər gerçəkləşdirir. Hazırda sığorta hadisəsi gerçəkləşdikdə sığorta zərərinin ödənilməsi ilə bağlı heç bir problem yaşanmır. Bu, riskin ortadan qaldırılması üçün sığortaçıların maliyyə dayanıqlığının gücləndirilməsi istiqamətində gerçəkləşdirilən tədbirlərin nəticəsidir.

Respublikada sığortaçıların sığortalılara qarşı ədalətli münasibətinin reallaşdırılmasına da xüsusi əhəmiyyət verilir. Bundan əsas məqsəd isə sığorta hadisəsi baş verdiyi zaman onun düzgün qiymətləndirilməsini, zərərin düzgün müəyyənləşdirilməsini, ödənişin vaxtında həyata keçirilməsini, prosesdə sığortalılara qarşı sığortaçıların ədalətli rəftarını həyata keçirməkdir. Mərkəzi Bank icbari sığorta sahəsində qanunvericiliyin tənzimlənməsi çərçivəsində həm beynəlxalq, həm də xarici təcrübələr əsasında qanunları, eyni zamanda, nəzarət mexanizmlərini mütəmadi şəkildə təkmilləşdirir.

Yeri gəlmişkən, 2022-ci ilin sonuna olan məlumata əsasən, Azərbaycan sığorta bazarında 20 sığorta və bir təkrarsığorta şirkəti fəaliyyət göstərib. Sığorta şirkətlərindən 5-i həyat, 15-i isə qeyri-həyat sığorta şirkəti kimi qeydə alınıb. Sığorta sektorunun fəaliyyəti, həmçinin 29 sığorta brokeri və 652 sığorta agenti vasitəsilə təmin edilib.

Keçən il sığorta haqlarında artım dinamikası müşahidə edilib. 2022-ci ildə sığorta haqları 2021-ci ilə nəzərən 15 faiz (127 milyon manat) artaraq 971 milyon manata çatıb. Dövr ərzində könüllü sığorta növləri üzrə 24 faiz artım (141 milyon manat), icbari sığorta növləri üzrə isə 6 faiz azalma (14,6 milyon manat) müşahidə edilib. Könüllü sığorta növləri üzrə artımın əsas drayveri kimi həyatın yaşam sığortası olub. Belə ki, bu növ sığorta üzrə yığılan sığorta haqları 45 faiz (124 milyon manat artım) artaraq 397 milyon manat təşkil edib. Ümumilikdə, son 6 il ərzində sığorta haqlarının mürəkkəb illik artım tempi 12,2 faiz olub. Son 6 il ərzində, müvafiq göstərici həyat sığorta sinifləri üzrə 15,7 faiz, qeyri-həyat sığorta sinifləri üzrə isə 5,6 faiz təşkil edib.

Sığortaçı-ekspertlər tərəfindən son illər ərzində ölkədə sığorta haqlarının davamlı şəkildə artdığı bildirilir. Belə ki, əgər 2019-cu ildə respublikada 650 milyon manat sığorta ödənişi toplanmışdısa, 2023-cü ilə həmin rəqəmin 1,2-1,3 milyard manat olacağı, bununla da son dörd il ərzində sığorta bazarının təqribən iki dəfə genişlənəcəyi proqnozlaşdırılır.

Xatırladaq ki, 2022-ci ildə Azərbaycanda sığorta şirkətləri 970 milyon 822 manatdan yuxarı sığorta ödənişi toplayıb, ödənişlər isə 433 milyon 202 manat təşkil edib.

Mərkəzi Bankın məlumatına görə, cari ilin yanvar-iyun aylarında isə Azərbaycandakı 20 sığorta şirkətinin xətti ilə 648,945 milyon manat sığorta haqqı toplanılıb. Bu, ötən ilin eyni dövrünə nisbətən 32 faiz çox olub. Hesabat dövründə sığorta şirkətlərinin həyata keçirdikləri ödənişlərin məbləği isə 225 milyon manat təşkil edib. Bu isə illik müqayisədə 28,6 faiz çoxdur.

6 ay ərzində sığorta bazarında toplanmış hər 100 manat sığorta haqqının 34,7 manatı ödəniş edilib. Ötən ilin eyni dövründə bu göstərici 35,6 manat olub.

Ümumiyyətlə, son 6 il ərzində sığorta haqlarının illik artım tempi 12,2 faiz olub. Müvafiq göstəricilər həyat sığorta sinifləri üzrə 15,7 faiz, qeyri-həyat sığorta sinifləri üzrə isə 5,6 faiz təşkil edib.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***



# Qeyri-neft ixracı 2,7 milyard dollara yüksəlib

**İxracın və İnvestisiyaların Təşviqi Agentliyindən (AZPROMO) aldığımız məlumata görə, bu ilin yanvar-iyul aylarında Azərbaycanın qeyri-neft ixracının dəyəri 2 milyard 6,9 milyon ABŞ dolları təşkil edib. Bu da ötən ilin analoji dövrü ilə müqayisədə 17,8 faiz çoxdur.**

AZPROMO-nun xəbərində bildirilir ki, təkcə cari ilin iyulunda respublikadan 235 milyon dollardan çox qeyri-neft məhsulları ixrac edilib. Bu da ötən ilin eyni ayı ilə müqayisədə 0,5 faiz çoxdur.

Xatırladaq ki, 2022-ci ildə ölkəmizin qeyri-neft ixracı 12,3 faiz artaraq 3 milyard dolları ötüb.

Hesabat dövründə qeyri-neft məhsullarının istehsalında da müsbət göstəricilər qeydə alınıb. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, ötən 7 ay ərzində respublikanın sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 39,8 milyard manatlıq sənaye məhsulu istehsal edilib.

Sənaye istehsalı ilə əlaqədar qeyri-neft sektorunda 6,5 faiz artım qeydə alınıb. Məhsulun 69,1 faizi mədənçıxarma sektorunda, 25,7 faizi emal sektorunda, 4,4 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 0,8 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunub.

Əlbəttə, qeyri-neft sahəsində istər istehsal, istərsə də ixracla bağlı yüksək göstəricilər əldə edilməsi təsadüfi deyil. Bu, son illər sözügedən sektorda xüsusi fəallığın nəzərə çarpması, iqtisadiyyatının şaxələndirilməsi istiqamətində uğurla həyata keçirilən layihələrin məntiqi nəticəsidir. Bunu belə bir fakt da təsdiqləyir: 2010-cu ildə respublikamızın qeyri-neft sektorunda 18,4 milyon manatlıq məhsul istehsal olunduğu halda, çoxsaylı mənfi təsirlərlə mübarizə aparan qlobal iqtisadiyyatın həssas olduğu indiki məqamda həmin sahədə artım neft-qaz sənayesindəki göstəriciləri üstələyir. Belə ki, mövcud sahədə əlavə dəyərin cari ilin ilk yarısında 6,5 faiz yüksəlməsi, ümumi olaraq isə qeyri-neft sektorunda 3 faizdən çox artımın müşahidə olunması bunun bariz ifadəsidir.

Qeyri-neft sənayesinin inkişafı ölkənin karbohidrogen daşıyıcılarının hasilat və ixracından əldə edilən gəlirlərdən, həmçinin daxili istehsalın və istehlak bazarının idxaldan asılılığını azaldır, ixracın şaxələnməsinə xidmət edir.

Son 20 il ərzində respublikada yüzlərlə müasir sənaye müəssisəsinin, yeni istehsal sahələrinin, müxtəlif bölgələrdə sənaye parklarının yaradılması isə həm iş yerlərinin açılmasını, həm də qeyri-neft sənayesinin inkişafını sürətləndirib və daxili tələbatın ödənilməsində yerli məhsulların payının əhəmiyyətli dərəcədə artmasına, ixrac imkanlarının genişlənməsinə gətirib çıxarıb.

Təbii ki, qeyri-neft sektorunun inkişafında sənaye zonalarının yaradılması önəmli rol oynayıb. İndiyədək bu sahədə 10,23 milyard manat dəyərində məhsul satışı həyata keçirilib və onun 3,35 milyard manatlıq hissəsi ixrac edilib. Cari ilin birinci yarısında isə 1,4 milyard manat məhsul satılıb ki, bunun da 33,6 faizi ixracın payına düşüb. Sənaye zonalarına 6,56 milyard manat investisiya yatırılıb və 10 min 600-dən çox daimi iş yeri yaradılıb.

Həmin zonalarda rezidentlər üçün dövlət vəsaiti hesabına müasir və geniş infrastruktur təchizatı "birbaşa qoşulma" ("Plug&Play") prinsipi əsasında gerçəkləşdirilir. Dövlət vəsaiti hesabına yaradılmış müasir infrastruktur sahibkarlara öz vəsaitlərini birbaşa layihənin icrasına yönəltmələrinə imkan yaradır. Sənaye məhəllələrində tam infrastrukturla təmin edilən torpaq sahələri, həm də hazır tikililər sahibkarlara uzunmüddətli icarəyə verilir.

***"Xalq qəzeti"***

# Xaricə 400 min tonadək meyvə-tərəvəz göndərilib

## *Bu, ötən ilkindən 50 min ton çoxdur*

**Dövlət Gömrük Komitəsinin məlumatına görə, cari ilin yanvar-iyul aylarında 397 min ton meyvə-tərəvəz ixrac edilib. Bu həcmdə məhsulun dəyəri 400 milyon dollar olub. 2022-ci ilin 7 ayında isə dəyəri 377 milyon dollar olmaqla 350 min ton meyvə-tərəvəz ixrac edilib.**

Həmin dövrdə 31 milyon dollarlıq 72 min tona yaxın kartof ixrac olunub. Ötən ilin eyni dövründə isə 78,1 min ton kartof ixrac edilib. İxrac edilən kartofun dəyəri 35 milyon dollar təşkil edib.



Bu müddətdə 112 min ton tomat ixracı həyata keçirilib. Bu məhsulun dəyəri 124 milyon dollar olub. Ötən ilin 7 ayında məbləği 134 milyon dollar olan 112 min ton tomat ixrac edilib.

Hesabat dövründə meşə fındığının ixracında da artım olub. Belə ki, 12,9 min ton meşə fındığı ixrac edilib. İxracın dəyəri 64,3 milyon dollar təşkil edib. Ötən ilin müvafiq dövründə isə 59,4 milyon dollarlıq 10,6 min ton ixrac reallaşıb.

Hesabat dövründə 37,6 min ton alma ixracı həyata keçirilib. Məhsulun dəyəri 24,3 milyon dollar təşkil edib. Keçən ilin yanvar-iyul aylarında dəyəri 13,2 milyon dollar olan 19,7 min ton alma ixracı gerçəkləşib.

***"Xalq qəzeti"***

# 100 milyon tona yaxın pambıq lifi və ipliyi satılıb



**Bu ilin yeddi ayında 43,5 min ton pambıq lifi, 6 min 815 ton pambıq ipliyi ixrac edilib.**

Dövlət Gömrük Komitəsinə istinadla xəbər verilir ki, pambıq lifinin dəyəri 79,5 milyon ABŞ dolları, ipliyin gəliri isə 20,1 milyon dollar olub.

***"Xalq qəzeti"***

# Əhalinin əmanətləri 12,7 milyard manatı ötüb

**Mərkəzi Bankın məlumatına görə, əhalinin banklardakı əmanətlərinin məbləği il ərzində 20,3 faiz artaraq cari ilin iyulun 1-nə milli valyuta ekvivalentində 12 milyard 748,8 milyon manat təşkil edib.**



Dövlət Statistika Komitəsindən bildirilib ki, əmanətlərin 63,4 faizi milli, 36,6 faizi xarici valyutada qoyulub, milli valyutada olan əmanətlərin məbləği əvvəlki ilin eyni dövrü ilə müqayisədə 27,7 faiz, xarici valyutada qoyulmuş əmanətlərin məbləği isə 9,4 faiz artıb.

İyul ayında milli valyutanın 1 ABŞ dollarına nisbətdə orta məzənnəsi 1,70 (ilin əvvəlindən 1,70) manata, 1 avroya 1,88 (1,84) manata, 100 türk lirəsinə 6,44 (8,31) manata, 100 rus rubluna 1,88 (2,16) manata bərabər olub.

***"Xalq qəzeti"***

# Elektrik enerjisi ixracından gəlirlər 9 dəfə çoxalıb

**Bu ilin yanvar-iyul aylarında "Azərenerji" ASC 2 milyard 829 milyon kVt/saat elektrik enerjisi ixrac edib.**

Dövlət Gömrük Komitəsinin məlumatına görə, bu həcmdə enerjinin dəyəri 314,46 milyon ABŞ dolları təşkil edib. Bunlar, 2022-ci ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 4,1 dəfə və 8,9 dəfə çoxdur.

Hesabat dövründə elektrik enerjisi ixracı Azərbaycanın ümumi ixracında 1,51 faiz, qeyri-neft sektoru üzrə ixracında isə 15,67 faiz paya malik olub.

***"Xalq qəzeti"***

# Əmlak icarəsindən büdcəyə daxilolmalar 39 faiz artıb

**İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətindən bildirildiyinə görə, cari ilin yanvar–iyul aylarında respublikada dövlət əmlakının icarəsindən dövlət büdcəsinə 19,3 milyon manat vəsait daxil olub ki, bu da proqnozdan 47,7 faiz, ötən ilin eyni dövrü ilə müqayisədə isə 38,9 faiz çoxdur.**



Məlumata görə, 7 aylıq daxilolmaların 3,6 milyon manatı qeyri-yaşayış sahələrinin, 15,7 milyon manatı isə torpaq sahələrinin icarəsi hesabına təmin edilib.

Hesabat dövründə 1 915 yeni icarə müqaviləsi bağlanılıb ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 15 faiz azdır. İcarə müqavilələrinin 418-i qeyri-yaşayış sahələrinə, 1497-i isə torpaq sahələrinə aid olub. Bunlar isə illik müqayisədə müvafiq olaraq 16 faiz və 14,7 faiz azdır.

***"Xalq qəzeti"***

*XalqTV-nin qonağı*

# Azərbaycan–Türkiyə əməkdaşlığı Türk birliyinin möhkəm təməlidir

*(əvvəli 1-ci səhifədə)*

***Soydaşımız 2018-ci ildən Türkiyənin Ankara şəhərində yaşayır, bu ölkədə diaspor fəalı, dostluq-qardaşlıq carçısıdır. Söhbətə də elə bu fəaliyyətindən başlayır:***

– Bu gün Azərbaycan–Türkiyə münasibətləri böyük türk birliyinin əsasını təşkil edir və bu əməkdaşlıq bütün dünyaya, eləcə də bütün türk ölkələrinə bir nümunədir. Azərbaycan və Türkiyə münasibətləri qardaşlığın elə zirvəsidir ki, tarixin bütün sınaqlarından üzüağ çıxmış və bu ənənə bu gün də ən yüksək səviyyədə davam etdirilir. Bir sözlə, Azərbaycan ilə Türkiyə arasında diplomatik münasibətlərin 32 illik tarixi olsa da, iki ölkənin qardaşlığının tarixi uzun illərə söykənir.

Bu tarix o qədər zəngin və əhatəlidir ki, bunların haqqında bir-iki cümlə ilə fikir söyləmək mümkün deyil. Qardaş Türkiyə 1919-cu ildən Mustafa Kamal Atatürkün rəhbərliyi ilə qurtuluş savaşına başladı, uzun və şərəfli bir yol keçərək 1922-ci ilin avqustunda böyük zəfər qazandı. Türk ordusu ölkəni işğal etmiş düşmənə qarşı 10-dan çox cəbhədə vuruşdu və qalib çıxdı.

Hələ onda Azərbaycan xalqının qəhrəman oğulları da bu savaşlarda bilavasitə iştirak etmiş, yeni qurulmuş Azərbaycan Sovet Respublikası Türkiyəyə böyük maddi yardım göstərmiş, hətta bunu qardaşın-qardaşa təmənnasız köməyi adlandırmışlar. Yaxud Birinci Dünya müharibəsi dövründə Avropanın bütün dövlətləri ilə (Almaniyadan başqa) vuruşan Türkiyə Qafqaza qoşun göndərmiş, Bakını bolşevik-daşnak işğalından azad etmişdir. Təkcə bu faktın Azərbaycanın ictimai-siyasi həyatında nə qədər böyük və misilsiz əhəmiyyəti olduğunu dəyərləndirməmək mümkünsüzdür.

***–Əvəz müəllim, 100 il sonra bu tarix yenə təkrarlandı...***

–Bəli, 100 il sonra təkrarlanan bu tarix bizi Şuşamıza, 30 il əsarətdə qalan Qarabağımıza qovuşdurdu. Azərbaycanın böyük Zəfərlə yekunlaşdırdığı 44 günlük Vətən müharibəsi, işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa işləri, tarixi Şuşa Bəyannaməsinin imzalanması bu günümüzün tarixidir. Qardaş ölkə artıq tarix olmuş Dağlıq Qarabağ münaqişəsinin davam etdiyi 30 ildə həmişə Azərbaycana arxa oldu. 44 günlük Vətən müharibəsi zamanı isə Azərbaycan Türkiyənin qətiyyətli dəstəyini bir daha gördü. Müharibənin ilk günlərindən qardaş ölkənin Prezidenti Rəcəb Tayyib Ərdoğan başda olmaqla 80 milyondan çox türk xalqı Türkiyənin Azərbaycanın arxasında olduğunu bütün dünyaya bəyan etdi. Türkiyənin bu mənəvi-siyasi dəstəyi Azərbaycanın haqq mübarizəsinə inam və güc verdi.

Azərbaycan xalqı 100 il əvvəl olan xilaskarlıq missiyasını unutmadığı kimi, bunları da yaddan çıxarmayacaq. Prezident İlham Əliyev Türkiyənin Vətən müharibəsində Azərbaycana dəstəyini qiymətləndirəndə deyirdi ki, İkinci Qarabağ müharibəsi başlanan gündən, ilk saatlardan əziz qardaşım, sayın Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan Azərbaycana birmənalı, dəqiq və açıq dəstək ifadə etmişdir. Müharibənin ilk saatlarından o demişdir ki, Azərbaycan tək deyil. Bu, həm bizi ruhlandırdı, eyni zamanda, müdaxilə etmək fikrində olan bütün qüvvələri, dairələri durdurdu.

***– Xatırlayırsızsa, meşə yangınları, zəlzələ fəlakətləri olanda–Türkiyənin böhranlı günlərində Azərbaycan xalqı və dövləti kömək üçün səfərbər oldu.***

–Düz deyirsiz, Türkiyənin ayrı-ayrı bölgələrində baş verən yanğınların qarşısının alınması istiqamətində birgə fəaliyyət Azərbaycanla Türkiyənin bir-birinə necə möhkəm tellərlə bağlı olduqlarını bütün dünyaya bir daha göstərdi. Fevralın 6-da Türkiyənin cənub-şərqində baş verən güclü zəlzələ nəticəsində 48 min insanın həlak olması, 100 mindən artıq insanın yaralanması, genişmiqyaslı dağıntıların qeydə alınması Azərbaycanda da faciə ilə qarşılandı.



Fəlakət zonasına ilk olaraq Azərbaycanın xilasedicləri çataraq dağıntılar altında qalan insanları çıxarmağa başladılar. Biz xilasedicilərimizin Hatay, Antakya, Kahramanmaraş, Adıyaman və digər şəhərlərdə xilasetmə əməliyyatlarında fəal iştirakının şahidləriyik. Türkiyədəki səfirliyimizin işçiləri, eləcə də təmsilçisi olduğum Türkiyə–Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun üzvləri də o günlərdə bir nəfər kimi səfərbər oldular.

***– Yeri gəlmişkən, fondunuzun çoxsahəli səmərəli fəaliyyəti barədə soydaşlarımıza məlumat verin.***

– Bizim fondun əsası 1997-ci ildə Azərbaycanın ümummilli lideri Heydər Əliyevin xeyir-duası ilə qoyulub. Türk Dünyasının ən böyük siyasətçilərindən olan Ulu öndər Azərbaycan–Türkiyə birliyinin fəaliyyətini və gərəkliliyini hər kəsdən aydın görən bir siyasət adamı idi. Ona görə də dövlətlərarası münasibətlərin və xalqlarımız arasında əməkdaşlığın dərinləşməsində və inkişafında belə bir fondun yaradılması vacib hesab etmişdi.

Fondun əsas missiyası Türkiyə və Azərbaycan başda olmaqla, bölgədə sabitlik, sülh və əmin-amanlığın təmin olunması, ümumi olaraq iki ölkə, eləcə də türk coğrafiyası arasında iqtisadi, mədəni və bir sıra fəaliyyətlərin inkişaf etdirilməsinə nail olmaqdır. Fond bu sahədəki fəaliyyəti ilə xalqlarımızın birliyinə mühüm töhfələr verir.

Bu sahədə fondun həm zəngin təcrübəsi, həm də qurumun missiyasını həyata keçirən təcrübəli kadr potensialı var. Uzun illərdir ki, Türkiyə–Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fonduna (TADİV) professor Aygün Attar rəhbərlik edir. Həm Türkiyə ictimaiyyətinin, həm də Azərbaycan cəmiyyətinin vətənpərvər bir insan və türkçü kimi tanıdığı Aygün xanımın bu sahədəki fəaliyyəti olduqca təqdirəlayiqdir. Türkiyə Prezidenti yanında Təhlükəsizlik və Xarici Siyasət Şurasının üzvü olan Aygün xanım Azərbaycan əsilli elm və siyasət adamıdır.

Aygün xanım Azərbaycanda doğulub, Bakı Dövlət Universitetində ali təhsil alıb, AMEA-da elmi fəaliyyətlə məşğul olub. Siyasi və elmi fəaliyyətinin önəmli və əhəmiyyətli hissəsi Türkiyə ilə bağlıdır. Türkiyə Respublikasının Nazirlər Kabinetində çalışıb, Baş nazirin müşaviri vəzifəsinə qədər yüksələ bilib. Eyni zamanda Türkiyənin təhsil sistemində ən yüksək vəzifə tutan azərbaycanlı olub: Geresun Universitetinin rektoru vəzifəsində çalışıb.

Fondun Qəyyumlar Şurasının üzvü və sədr müavini Əmirulla Məmmədov da dünyada geniş tanınan insanlardandır. O, fizika-riyaziyyat elmləri doktoru, Türkiyənin məşhur Bilkənd Universitetinin professorudur, Nanotexnologiya Elmi Mərkəzinin baş elmi işçisi vəzifəsini tutur. Digər üzvlərimiz haqqında, onların fəaliyyətləri haqqında da ətraflı danışmaq olar. Qısaca olaraq bəzilərinin adlarını çəkməklə kifayətlənirəm: Türkiyə Cümhuriyyətinin xarici siyasət və təhlükəsizlik şurasının üzvləri, professor İlyas Şafi və İlyas Topsakal, Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev, Azərbaycan Respublikasının Türkiyədəki səlahiyyətli və fövqəladə səfiri Rəşad Məmmədov, Azərbaycan və Türkiyə Parlamentlərarası dostluq qrupunun sədri Şamil Ayrım, Ankara Universitetinin rektoru professor Necdət Ünüvar və başqaları.

Qürur hissi ilə qeyd etmək istəyirəm ki, möhtərəm Prezidentimiz, ulu öndər Heydər Əliyevin sadiq davamçısı İlham Əliyev və Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan Türkiyə Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun fəxri üzvləridir.

***– Fəaliyyətiniz dövründə Azərbaycanda vəTürkiyədə nə işlər görmüsünüz?***

– Əlbəttə, çox işlər görülüb və görülməkdədir. Ən əsası odur ki, Azərbaycan–Türkiyə birliyinin möhkəmlənməsi uğrunda fəaliyyət təməl prinsipimizdir. Bu sahədə görülən ən xırda işin belə faydası var. Son genişmiqyaslı tədbirlərimiz "Heydər Əliyev ili" çərçivəsində olduğundan daha çox Ulu öndərin həyat və fəaliyyətinə həsr olunub. Bu ilin may ayında keçirilən "Heydər Əliyev həftəsi" Ulu öndərin 100 illiyinə həsr olundu. Azərbaycan və Türkiyənin millət vəkillərinin iştirakı ilə çoxsaylı görüşlər keçirildi, Heydər Əliyevin həyat və fəaliyyəti haqqında çəkilmiş bədii filmlər göstərildi, foto-stend və sərgilər təşkil olundu.

Bu təşkilati işlərin Ulu öndərin böyük irsinin Türkiyə ictimaiyyətinə təqdim olunmasında böyük əhəmiyyəti var. Heydər Əliyev yolu Azərbaycan–Türkiyə birliyinin inkişafına, əlaqələrin daha da böyüyüb genişlənməsinə xidmət edir. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan tarixi qələbə də başlanğıcını bu yoldan götürür.




Bu günlərdə isə Türkiyə–Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun (TADİV) başkanı hörmətli Aygün xanımın təşəbbüsü və rəhbərliyi altında Azərbaycan İqtisadiyyat Nazirliyi ilə birlikdə Bakıda Atatürk Mədəniyyət Mərkəzində Türkiyə və Azərbaycan nümayəndə heyətləri arasında "Dəyirmi masa" keçirildi. Tədbir çərçivəsində işğaldan azad edilmiş torpaqların investisiya imkanları və türk şirkətlərinin bu əraziyə investisiyalarının artırılması əsas mövzu oldu. Bu tədbirin davamı olaraq Bakıda KOBİ-nin evsahibliyi ilə Azərbaycan Kiçik və Orta Müəssisələrin İnkişafı Agentliyinin birgə toplantısı keçirildi. TADİV-in təşkilatçılığı ilə Türkiyədən gəlmiş 23 türk iş adamı və müxtəlif şirkətlərin nümayəndələri görüşdə iştirak etdi. Azərbaycanda sahibkarlığın inkişafı, işğaldan azad edilmiş Azərbaycan torpaqlarında biznes imkanları, biznes və investisiya potensialı, yerli və xarici işadamlarına verilən dəstək barədə məlumatlar ətrafında müzakirələr aparıldı.

***– Qarşıda daha hansı tədbirləriniz var?***

– Daha böyük tədbirlərin həyata keçirilməsi üçün potensial imkanlarımız var. Fondun yerləşdiyi binada geniş və müasir texniki avadanlıqlarla təchiz edilmiş Azərbaycan evi, Qarabağ elm ocağı, Şuşa konqres salonu fəaliyyət göstərir.

Ümid edirəm ki, yaxın gələcəkdə tarixi və yaddaqalan tədbirimizi Türkiyə–Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun növbəti toplantısını Qarabağda – Şuşada keçirmək bizlərə də nəsib olacaq.

***– Maraqlı söhbət üçün sağ olun. Şuşa tədbirinizin yüksək səviyyədə keçməsini arzu edir, sizə fəaliyyətinizdə yeni uğurlar diləyirik.***

***Söhbəti hazırladı:***
***Namiq ƏHMƏDOV,***
***"Xalq qəzeti"***

# Gimnaziya, yoxsa ümumi məktəb?

## *Bu sual valideynləri ciddi düşündürür*

**Təhsil hər bir ölkənin həyatının zəruri və mühüm bir sahəsidir. Cəmiyyət təhsilsiz inkişaf edə bilməz. Biz müstəqil dövlət olaraq özümüzün təhsil sistemimizi tələbatımıza və gələcək hədəflərimizə uyğun qururuq. Ulu öndər Heydər Əliyevin dediyi kimi, indiyə qədər yaradılmış təməlin üzərində Azərbaycan təhsili, məktəbi bundan sonra daha da təkmilləşəcəkdir.**

Məktəb insanın həyatında həlledici rol oynayır, onun şəxsi, intellektual, sosial və peşəkar inkişafına əhəmiyyətli töhfə verir. Bu müqəddəs ocaqda yeni nəslə bilik və tərbiyə, sosial bacarıq, ictimai həyata hazırlıq, karyera imkanları, vətəndaşlıq məsuliyyətləri aşılanır. Buna görə məktəb mövzusu həmişə və hamı üçün aktualdır. Günün təhsillə bağlı daha bir maraqlı sualı "Məktəb, yoxsa lisey, gimnaziyalar?" formatında müzakirə olunur. Suala aydınlıq gətirmək üçün "gimnaziyanın orta məktəblərdən fərqi nədir?" sualını qismən aydınlaşdıraq.

Gimnaziyalar akademik və intellektual biliklərə üstünlük verən, adətən, xüsusi istedadı olan şagirdlərin təhsil aldığı orta təhsil müəssisəsidir. İbtidai təhsil ( IV sinif) pilləsini tamamlayan hər bir şagird Elm və Təhsil Nazirliyinin mərkəzləşdirilmiş qaydada həyata keçirilən qəbul prosesində iştirak edərək lisey və gimnaziyalara daxil ola bilər. Valideynlərin övladının təhsilini məktəbdə, yoxsa gimnaziyada davam etdirməsi sualına cavab olaraq, tədris işləri üzrə direktor müavini kimi fəaliyyət göstərdiyim S.C. Pişəvəri adına Respublika Humanitar Fənlər Gimnaziyasının nümunəsində, onun nizamnaməsi və dövlət tələbləri əsasında aydınlıq gətirmək istəyirəm.

İlkin olaraq qeyd edim ki, seçim edərkən öncə şagirdin fərdi xüsusiyyətinə, istək və maraqlarına diqqət etmək lazımdır. Çünki məktəb şagirdin şəxsi keyfiyyətlərinin formalaşmasında, təhsildə nailiyyət əldə etməsində, xüsusən ali məktəbə qəbul kimi bir çox məqsədlərinin həyata keçməsində məqsəd deyil, hədəfə aparan bir vasitədir.

Ölkəmizdə 2 formada gimnaziyalar var: dövlət hesabına yataqxana və gündə 3 dəfə isti yeməklə təmin olunan və bu imkanları olmayanlar.

Övladlarının orta təhsili üçün məktəb seçimi qarşısında olan valideynlərin sual və maraqlarını nəzərə alaraq, məktəb və gimnaziya arasındakı bəzi əsas fərqlərə diqqət yetirək.

Tədris planı. Elm və Təhsil Nazirliyi tərəfindən xüsusi tərtib edilmiş tədris planlarında lisey və gimnaziyalarda əsas dərs saatlarının miqdarı orta təhsil müəssisələrinin tədris planından fərqli olaraq bir neçə saat artıqdır. Məsələn, riyaziyyat fənninin həftəlik dərs yükünün miqdarı orta məktəblərdə 5 saatdırsa, gimnaziyada bu 7 saatdan başlayır.

Layihə əsaslı fənlərin (STEAM, rəqəmsal bacarıqlar) keyfiyyətli tədrisi. Gimnaziyalarda digər məktəblərdən fərqli olaraq V, VI siniflərdə məntiq və V sinifdə etika dərsləri tədris olunur. İntellektual dərketmənin qanunları, metodları və formaları haqqında elm hesab edilən məntiq fənni tənqidi təfəkkürə əsaslanan elm olduğundan o, şagirdlərdə düzgün təfəkkürün formalaşmasında xüsusi rol olynayır. Habelə ənənəvi məntiq üzərində qurulmuş formal məntiq dərsləri V siniflər arasında keçirilən Lütfi Zadə adına məntiq olimpiadasında şagirdlərin nəticələr göstərməsinə səbəb olur. VI sinifdə riyazi məntiqə əsaslanan fənnin proqramı isə riyaziyyat və informatika fənn olimpiadasında, həmçinin yuxarı (IX, X, XI) sinif şagirdləri üçün keçirilən respublika fənn olimpiadasına hazırlıq mərhələsi kimi qiymətləndirilir.

"Davranış və etika qaydaları" fənni üzrə tədris proqramı da Təhsil İnstitutu tərəfindən hər il yenilənib təsdiqlənir. Gimnaziyalarda, adətən, əsas xarici dillə yanaşı, ikinci əcnəbi dil seçimi şagirdlərin və valideynlərin ixtiyarına verilir.

Şagirdlərin akademik inkişaf dinamikasını və tədrisin keyfiyyətini ölçmək məqsədilə ildə, ən azı, iki dəfə məktəb rəhbərliyi tərəfindən monitorinqlər, habelə Elm və Təhsil Nazirliyi tərəfindən aparılan SMİ (səviyyə müəyyənetmə imtahanı) həyata keçirilir. Şagird nailiyyətinin təhlil və müqayisələri aparılır, nəticədən asılı olaraq müvafiq tədbirlər həyata keçirilir.

Gimnaziyada pedaqoji heyət iki qrupa bölünür: fənn müəllimləri və sinif rəhbərləri. Gimnaziyada da orta ümumtəhsil məktəblərində olduğu kimi, əsas dərsliklər əsasında dərs saatlarına və cədvəllərinə uyğun olaraq müvafiq fənlər peşəkar fənn müəllimləri tərəfindən tədris edilir. Onların tədris prosesinin orta ümumtəhsil məktəblərindən fərqi odur ki, tədris müasir təlim texnologiyaları əsasında aparılır. Sinif rəhbərləri heç bir fənn tədris etmirlər. Onlar tərbiyəçi-müəllim kateqoriyasına daxil olub məktəbdə şagirdlərin davranış, təhsil və inkişaf prosesini təşkil edirlər.



Gimnaziya 7/24 açıq məktəbdir. O, qeyri-ərazi məktəbi olduğu üçün uzaq (əsasən bölgələrdə, şəhərətrafı kəndlərdə) məsafədə yaşayan şagirdlərə yataqxana şəraiti yaradılır. Gimnaziya şagirdləri xüsusi mühafizə sisteminin – mühafizəçilər, güvənlik kameraları, gecə gözətçiləri və dayələrin nəzarətindədir. Gimnaziyada tədris birnövbəlidir. Həftədə 5 gün 8.30-dan etibarən tədris prosesinə başlanılır. Dərslər bitəndən sonra etüd dərslərinə qalan şagirdlər yeməkxanaya, digərləri isə evlərinə ötürülür. Etüd dərsləri 17.00-da bitir, şagirdlər sinif rəhbərləri tərəfindən valideynlərə təhvil verilir.

Gimnaziyada psixoloq və həkim xüsusi əhəmiyyətli əməkdaş hesab olunur. Yataqxanada yerləşən, valideyn himayəsindən uzaq olan şagirdlərə psixoloq, həkim dəstəyi və nəzarəti göstərilir. Güclü nizam-intizam və nəzarət, maddi-texniki baza, inkişaf proqramları, pilot layihələr, sağlam təhsil mühiti, yerli və beynəlxalq təşkilatlarla əməkdaşlıq əlaqələri olan gimnaziyalar tarixən də elit təbəqələrin təhsil aldığı müəssisə hesab edilib. Azərbaycanda ilk rusdilli orta təhsil müəssisəsi 1865-ci ildə Bakıda açılıb. Sonralar Gəncədə də belə bir gimnaziya fəaliyyətə başlayıb.

Beləliklə, ölkəmizdə uğurlu inkişaf mərhələləri keçən, nüfuzlu şəxsiyyətlər yetişdirən 150 yaşlı gimnaziya xüsusi məktəb nizamnaməsinə, dövrünün tədris ənənələrinə görə ən yaxşı məktəblərdən hesab edilib. Bu gün də gimnaziya təhsili yerli və xarici olimpiadalarda şagird nailiyyətlərinə, tədrisin keyfiyyətinə, sosial fəaliyyətlərin rəngarəngliyinə, yerli və beynəlxalq universitetlərə qəbul faizinə görə bir çox məktəblərdən öndədir.

***Leyla HACIYEVA,***
***S.C.Pişəvəri adına gimnaziyanın tədris işləri üzrə direktor müavini***

# Uca dağlar başında son döyüş

**Vətən müharibəsi şəhidi Ceyhun Savalan oğlu Əyyubovun yarımçıq qalan arzularından hüzn və qürurla söz açmaq istəyirəm. Ceyhun 31 il əvvəl avqustun ortalarında Yevlaxda dünyaya göz açıb. Şəhər 4 nömrəli tam orta məktəbin IX sinifini bitirəndən sonra Cəmşid Naxçıvanski adına hərbi liseyə qəbul olub. Ana babasının hərbçi, atasının I Qarabağ müharibəsinin qazisi olması, anası Arzu xanımın da hərb sənətinə olan rəğbəti Ceyhunu bu şöhrətli məktəbə aparıb.**



3 il hərbi liseydə təhsil aldıqdan sonra Heydər Əliyev adına Ali hərbi məktəbə daxil olan Ceyhun təhsilini 2014-cü ildə tamamlayıb. 1 il də Heydər Əliyev adına Ali Hərbi Məktəbdə Təlim-Tədris Mərkəzində dinləyici zabit olub və leytenant rütbəsi alıb. Xidmətə Daşkəsənin Xoşbulaq kəndində zabit kimi fəaliyyətə başlayıb. 4 ay tağım komandiri kimi çalışıb. 2015-ci ildə ermənilərə daha yaxın olan posta göndərilib. Bir müddət Murov ətrafında, 2016-cı il oktyabr ayından Tovuz rayonunun "N" saylı hərbi hissəsində tağım komandiri kimi çalışıb. Baş leytenant rütbəsinə layiq görülüb.

Tovuz döyüşlərində şəxsən tanıdığı vətənimizin igid oğlu Polad Həşimovun şəhid olması Ceyhunu sarsıtmışdı. Həmin gün döyüşçü yoldaşlarına: "Bu qan yerdə qalmayacaq. Allah düşmənin də qeyrətlisini versin. Bu isə alçaq ermənilərdə yoxdur" demişdi.

2020-ci il 27 sentyabr sabahı qan qoxulu torpaqlarımızı işğaldan azad etmək üçün Ceyhun kimi igidlər savaşa girdi. Ayaq basdıqları torpağın hər addımını canları-qanları ilə yenidən Vətən edirdilər. Ceyhun da torpaqların yağı tapdağından təmizlənməsi üçün aslan kimi döyüşürdü. O, həm vuruşur, həm də yaralı əsgərləri təhlükəli yerdən çıxarırdı. Özü yaralansa da, neçə yaralını xilas etmişdi. Kəlbəcər istiqamətində gedən qızğın döyüşlərdə isə düşmən snayperi Ceyhunun özünü hədəfə almışdı. Uca dağlar başında Ceyhun şəhidlik zirvəsinə qovuşmuşdu. Döyüş dostları həmin posta Ceyhunun adını verirlər.

Atası Əyyubov Savalan Rəşid oğlu I Qarabağ müharibəsi zamanı Murovda döyüşüb. 1993-cü ildə ayaqlarını şaxta vurduğundan, əmək qabiliyyətini itirib. Anası Arzu xanım evdar qadındır. Ailənin 3 övladı olub. Böyük oğlu Mirkazım Hərbi Akademiyanı qurtarıb, o da hərbçidir. Ceyhun ailənin ikinci övladı idi. Bacısı Xanım ailəlidir.

Arzu xanımın ürəyi alovlanır. Ceyhun milləti üçün ağatlı nağıl qəhrəmanı olsa da, anası üçün hər gün görmək, öpmək, oxşamaq istədiyi, gündə min dəfə qurban olmaq istədiyi körpə bir oğlandır. Hər dəfə Ceyhunun qəbri üstə gedəndə soyuq daşı beşik kimi bağrına basır. Deyir, ruhu sağdır Ceyhunumun, çünki torpaqlarımız işğaldan azad edilib.

Şəhidin ailəsindəyəm, dərdləşirik, söhbətləşirik. Mövlanənin bu fikrini ucadan deyirəm: "Sanma ki, dərd, sadəcə, səndə var. Səndəki dərdi nemət sayanlar da var". Təsəlli vermək də çətindir...

Göz yaşını saxlaya bilməyən Arzu xanım deyir: "Son dəfə 26 iyun Silahlı Qüvvələrin yaradılması günü görmüşəm balamı. Yanına getmişdik, Daşkəsənə. Yadda qalan, gözəl bir gün keçirdik birlikdə. Nə biləydim ki, bu bizim son görüşümüzdür".

Deyirlər, zaman bütün dərdlərin dərmanıdır. Lakin elə dərd var ki, illər ötsə də, tam sağalmır. Və elə bu dərdlə, bu ağrı ilə həyatına davam etməyi öyrənir insan. Arzu xanım da Ceyhunsuz yaşamağın ağırlığına dözməyə çalışır. Ceyhunun ruhu ilə danışırmış kimi, üzümü onun şəklinə tutub deyirəm:

– Sən nağıl deyən nənələrin, noğul yeyən nəvələrin, ayaqlanan zirvələrin də qisasını aldın igidim. Özündən sonra millətinin övladlarına Vətən qoydun, sağlam gələcək qoydun.

Sənin şəhadətindən düz 9 ay sonra iyunun 24-də qardaşın Mirkazımın oğlu dünyaya gəldi. Hər kəsin ürəyinə bir təpər gəldi, bir az su səpildi. Adını Ceyhun qoydular. Ailən səni yenidən qazandı. Yaşadığın evin qarşısında sənin əziz xatirənə gözəl guşə düzəldilib, böyük portretin asılıb. Adına layiq bulaq tikiblər.Yarımçıq qalmış mənzilində tamamlama işləri gedir. Gələcəkdə aşağı otaqda adına muzey də yaradılacaq. Ailən dövlətimizdən də, Prezidentimizdən də çox razıdır. Yevlax camaatı da ailəni tək qoymadılar.

Öz şəhid adını əbədiyyət lövhəsinə həkk edən torpağa salan Ceyhun Əyyubov ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Sərəncamı ilə 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda", "İgidliyə görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub. Ceyhunun uğrunda canından keçdiyi Qarabağ yenidən və həmişəlik Azərbaycandır! Sən də bunu istəyirdin şəhid balamız. Rahat uyu şəhidim, sən azad Vətənimizdə doğulacaq milyonlarla Ceyhunun xoşbəxt həyatında gözəgörünməz ruh kimi yaşayacaqsan...

*Əminə YUSİFQIZI,*
*Əməkdar jurnalist*

**Onlar üç qardaş Qax rayonunun qədim İlisu kəndində dünyaya gəliblər. Üç əsrlik İlisu sultanlığının qürurlu tarixi, dağların əzəməti və təbiətinin ilahi gözəlliyi ilə bütün Azərbaycanı özünə vurğun edən kənddə. Belə bir məkanda doğulub boya-başa çatanların canına-qanına hopub dağların vüqarı da, təbiətin ülviyyəti də. Onların yurd-yuva sevgisi də bir başqadır. Elə yazımda niyyətim üç qardaşın bu sevgisindən söz açmaqdır.**

# İlisulu ananın üç oğlu– biri şəhid, ikisi qazi

Cavanşir, Nihad və Bilal Abbasovlar. İlisulu Mövlüdün və Jalənin oğulları. Hər üçü tariximizin ən şanlı qələbə salnaməsini yazan igidlərimizdəndir. Onlar İlisu kənd məktəbini bitirib, nizam-intizamı ilə də həmişə nümunə olublar.



Cavanşir ailənin ilkidir. Böyük qardaş kimi atasının sağ əli olub. Hər işdə atasına kömək olub, davranışı, oturu-şu-duruşu ilə ona oxşamağa çalışıb. Əsgəri xidməti başa çatandan sonra da doğmalarının yanına qayıdıb. Vətən müharibəsinin başlanması ilə ölkədə qismən səfərbərlik elan ediləndə Cavanşirə də çağırış vərəqi gəlib. O, tərəddüd etmədən Vətənin çağırışına qoşulub. Sentyabrın 21-də artıq Gəncədəki hərbi hissədə təlimlərə başlayıb. Az sonra xidmət yerinə göndərilib. Qardaşı Nihadın şəhid xəbərinə kimi – oktyabrın 24-dək düşmənlə üz-üzə dayanıb. Oktyabrın 24-də qardaşının dəfn mərasiminə göndərilib. Və ordudan təxris olunub. Az sonra müharibə qələbəmizlə bitib.

Nihad Jalə ananın ortancıl oğlu idi. Məktəbdə idmanı çox sevirdi. 100 metr məsafəyə qaçış üzrə zona birincisi idi. Üç il rayonun "Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülüyü komandasının üzvü olub. Həm də qaydasız döyüş üzrə Azərbaycan çempionatlarında iştirak edib. Çox sayda təltifləri vardı.

2018-20-ci illərdə həqiqi hərbi xidmətdə olan Nihad 6 ay idi ki, tərxis edilib kəndə qayıtmışdı. 2020-ci ilin avqustundan isə yenidən orduya qayıdaraq, müddətdən artıq xidmətə başlamışdı. 2020-ci ilin sentyabrında İkinci Qarabağ müharibəsi – Vətən müharibəsi başlananda baş əsgər kimi kəşfiyyat bölüyündə Suqovuşan və Talış kəndləri uğrunda gedən döyüşlərdə iştirak edib. Oktyabrın 9-da Ağdərə döyüşlərində snayperlə vurulub. Doqquz gündən sonra, oktyabrın 18-də nəşi döyüş meydanından çıxarılıb. Oktyabrın 24-də Qax ictimaiyyəti şəhid oğlunu İlisuda torpağa tapşırıb. Nihad Abbasov "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.



2023-cü il iyulun 25-də – Nihadın 23 yaşında Jalə ananın qonağı çox idi. Uzaqdan-yaxından gələnlər onun xatirəsini anıb, igidliyindən söz açıblar.

Evin sonbeşiyi Bilal həqiqi hərbi xidmətini Murovdağda yerinə yetirirdi. Müharibə başlananda "Koroğlu" postunda olub. "Cabir" və "Sekret" postlarına təminat aparanda düz qarşısına mina mərmisi düşür, ancaq xoşbəxtlikdən partlamayıb. Ölümlə ilk dəfə üz-üzə, göz-gözə dayanan Bilal hələ də o dəhşət dolu anı unutmayıb. Pulemyotçu – tuşlayıcı olan Bilal ilk dəfə o an müharibənin ölüm kabusu olduğunu dərk edib. Lakin Vətən sevgisini can sevgisindən uca və müqəddəs sayan gənc əsgərimiz qorxu hissini birdəfəlik unudaraq, son günə qədər döyüşlərdə iştirak edib. Bilal o günləri belə xatırlayır:

– Əslən astaralı olan komandirimiz, baş leytenant Elşad Məmmədov çox vətənpərvər və igid hərbçi idi. O, həm də bizim hər birimizin böyük qardaşı olub. Müharibə dövrünün qayda-qanunlarına alışmağı bizə o öyrətmişdi. Bizim bölüyün uşaqları Elşad Məmmədovu tək komandir kimi deyil, həm də böyük qardaş kimi çox istəyirdi. O, Murovdağda posta çıxandan təxris olunanadək bizim komandirimiz olub. Biz ondan çox şey öyrənirdik. Elə bir-birimiz üçün canımızı fəda etməyə də. Əsgər yoldaşlarım – İmran Dadaşov (Astara), Elşad Mirzəzadə (İmişli), Babaşah Qəribov (Şamaxı), Rəhim Gülüşov (Sabirabad), Emil Ağasiyev (Quba) həm də döyüş dostlarım olublar. Bu gün də əlaqəlerimiz var. Bizim dostluğumuz Murovdağın ən yüksək zirvəsində möhkəmlənib. Qarı əridib su əvəzinə içdiyimiz, güllə, mərmi yağışı altında bir-birimizə arxa-dayaq olduğumuz o çətin günlərdə sınaqdan çıxmış dostluğumuz var. Düşmənə birlikdə sinə gərmişik. Birlikdə ölümün üzünə gülmüşük.

...Son vaxtlar tez-tez evimizi, kəndimizi yuxuda görürdüm. Fürsət düşəndə qardaşlarımla zəngləşərdim. Çoxdan idi Nihadı görmürdüm. Mən əsgər gedəndə Nihad hələ ordudan təxris olunmamışdı. Bilirdim ki, üçümüz də döyüşdəyik. Nihadla avqust ayında danışmışdıq, məni görməyə gələcəkdi...

Müharibə zamanı 72 saatlıq atəşkəs verilmişdi ki, döyüş xəttindən şəhidlərimizi, yaralılarımızı çıxaraq. Bölük komandiri məni çağırdı və mülayim bir səslə, gedirsən hamama dedi. Hamam postun taburunda idi. Qərargah rəisi ilə hərbi hissəyə getdik. Məni qərargah bölüyünə yerləşdirdilər. Axşama yaxın evə zəng vurdum. Onda anam, heç nə olmamış kimi, mənə dedi ki, atan komissarlığa müraciət edib. Cavanşiri ordudan təxris ediblər, səni də məzuniyyətə göndərəcəklər. Nədənsə, anam mənimlə çox qısa danışdı. Nihadı soruşdum. O, gələ bilmir, deyib telefonu dayıma verdi. Doğrusu, bir az pərt oldum. Axı anam həmişə mənimlə çox danışardı. Amma heç ağlıma gəlmirdi ki, nə isə ola bilər.

Gecə yatan yerdən məni qaldırıb: "Məzuniyyətə gedirsən",– dedilər. Məni Gəncəyə, ilk vaxtlar olduğum hərbi hissəyə gətirdilər. Gördüm atam, əmim oğlanları, atamın dostu da buradadır. Soruşdum ki, siz burada nə edirsiniz? Dedilər, səni qarşılamağa gəlmişik. Amma onda içimə bir qorxu doldu: Nə isə olub?!

Kəndə gecə saat 2-də çatdıq. Bizim döngədə xeyli insan vardı. Maşından düşəndə ayaqlarım əsirdi: Görəsən nə olub?! Məni ilk qarşılayan böyük qardaşım Cavanşir oldu. O, məni bərk-bərk qucaqlayıb qulağıma: Nihad şəhid olub, dediyi an özümdən getmişəm. … İki gün özümü bilməmişəm. Ayılanda anamı başımın üstündə ağlayan gördüm.

– Oğul, məcbur idim. Qardaşının şəhid olması xəbərini sənə verə bilməzdim. Məni bağışla. Qardaşın Tanrının yanında, Şəhidlik zirvəsindədir. Biz güclü olmalıyıq. İndi az qala hər evdə bu acı yaşanır. Təki bu müharibə qələbəmizlə bitsin. Torpaq uğrunda oğullarımız qurban gedir. Qoy, Nihadın ruhu şad olsun! Mən onunla fəxr edirəm.

– Anamın bu qürurlu mənə toxtaqlıq verdi. Müharibə isə hələ davam edirdi. Bir neçə gündən sonra mən yenidən hərbi hissəmə qayıtdım. Qardaşımın və bütün şəhidlərimizin qanını yerdə qoymamaq üçün silahımı əlimə aldım.

Qələbə xəbərini Sarıqayada eşitdim. Noyabrın 8-nə keçən gecə postdan çıxıb Kəlbəcərə, Qaragölə getdik. Xidmətim davam edirdi. Fevralın 13-də yenidən məzuniyyətə buraxıldım. Ongünlük məzuniyyətdən sonra hərbi hissəyə qayıtdım. 2021-ci ilin iyul ayında xidmətim başa çatdı. Hazırda Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğından Mühafizə Xidmətinin Qax bölməsində işləyirəm. "Kəlbəcərin azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medalları, Müdafiə Nazirliyinin Fəxri fərmanı ilə təltif edilmişəm.

...Bu günlər Mövlüd Abbasovun evində bir başqa həyəcan var. Ailənin böyük oğlu Cavanşirin toy tədarükü idi. Toy günü yaxınlaşdıqca Mövlüd atanın da, Jalə ananın da ürəyindən bir ağrı keçir: Kaş Nihad da qardaşının bu xoş günündə onun yanında olaydı...

Evə gəlin gəlir. Bizlərdə belə deyərlər: Ayağı sayalı olsun, gəlinin. Oğullu, qızlı olsunlar. Amin!

Tofiq Bayram demişkən:

*"Vağzalı" çalınır, anam ağlayır,*
*Dünyada hər ana öz anam kimi.*
*Bircə toy günündə ağlayaydı kaş!*

Jalə ana, belə oğullar böyüdüb, boya-başa çatdırdığınız üçün sizə minnətdarıq. Cavanşirin toy günü mübarək olsun! O gün olsun, Bilalın toy boxçasını aparasan. Allah xoşbəxt eləsin!

*Xavər ƏFƏNDİYEVA,*
*"Şəlalə" qəzetinin redaktoru*

# Kütləvi məzarlığın 15 şəhidinin kimliyi məlum oldu

**Kütləvi məzarlıqlarda tapılan qalıqlar üzərində aparılan tədqiqatlar nəticəsində şəxsiyyəti müəyyən edilən bir qrup itkin düşənin siyahısı açıqlanıb. Bu barədə Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi Qrupunun rəhbəri İsmayıl Axundov itkin düşmüş şəxslərlə bağlı keçirilən brifinqdə məlumat verib.**



İşçi qrupunun rəhbəri bildirib ki, artıq 15 nəfər itkin düşmüş şəxsin aqibətinə aydınlıq gətirilib: "4 min itkinin müqabilində bu rəqəm azdır. Amma bu başlanğıcdır. Proses davam etdirilir. Şəxsiyyəti aşkar edilənlərin 11 nəfəri hərbçi, 4 nəfəri mülki şəxsdir".

Kimliyi müəyyən edilənlər: İbrahimov Vəliyyəddin Səhləb oğlu, Abdullayev Nurəli Hacıbaba oğlu, Qurbanov Nofəl Nəriman oğlu, Rüstəmov Araz Bağır oğlu, Abbasov Məhərrəm Abbas oğlu, Niftəliyev Adil Kamal oğlu, Qarayev Qafar Qənbər oğlu, Hüseynov Əli Heydər oğlu, Hüseynov Gülverdi Ağahüseyn oğlu, Mikayılov Baba Balakişi oğlu, İsayeva Sənəm Həsən qızı, Əzizov Yusif İsmayıl oğlu, Musayev Mehman Kamal oğlu, Allahverdiyev Şəmsəddin Əvəz oğlu, Məmmədov Əsəd Məmməd oğlu.

**Allah rəhmət eləsin!**

*"Xalq qəzeti"*

# Vətən – atasız böyümüş Qarabağ veteranının ana ünvanı...

**Onunla şəxsi tanışlığım olmasa da, haqqında çox eşitmişəm. Bilirdim ki, atası – Zəngilan həsrəti ilə yaşayan və həmin dərddən də cavankən iş başında, sükan arxasında ürəyi dayanan Eldar Məhərrəmov dünyasını dəyişəndə, o, altı yaşında olub. Atasız böyüyən bütün uşaqlar kimi, o da anasının ikiqat himayəsini görüb. Gecəli-gündüzlü övladlarının bir tikə çörəyi üçün çalışan ananın ürəyinin istisi onların həqiqi, nümunəvi vətəndaş kimi böyüməsini təmin edib.**



İndi ailənin ilk övladı Arzu xanım Məhərrəmova Türkiyədə tibb təhsili üzrə magistraturanı bitirib uzman doktor statusu qazanmış tanınmış həkimdir. O biri qardaşı Zaur ilə Kərəm isə cəmiyyətdə öz mövqeyi olan gənclərdir.

Kərəm 2020-ci ilin yayında – ali təhsili başa çatdıran kimi hərbi xidmətə yollanmış, elə ilk vaxtlardan erməni təxribatlarına cavab vermək üçün başlanan hərbi əməliyyatlarda iştirak etmişdir. Anası – redaksiyamızın işçisi Səriyyə xanım danışır ki, oğlu Kərəmin mərhum general Polad Həşimovun rəhbərlik etdiyi hərbi əməliyyatlarda iştirakı onu həqiqi hərbçiyə çevirmiş, mətinləşdirmişdir.

Elə ona görə də, İkinci Qarabağ müharibəsi günlərində, demək olar ki, bütün rayonların işğaldan azad olunmasında iştirak etmişdir. Ağır yaralansa da ( həkimlər hələ də onun qıçının dayaq sümüyündəki mili çıxartmırlar) müharibə bitəndən sonra da bir neçə müddət hərbi xidmətdə qalmışdır. Kərəm, ulu söz sahiblərinin "Bu dünyada ən əziz şey – bir anadır, bir Vətən" kəlamını həmişə bayraq etmişdir.

Son günlər eşitdim ki, ana Vətən üçün canından keçməyə hazır olan qazi Kərəm Məhərrəmov öz anasına bir şeir həsr etmiş və hansısa məclisdə oxumuşdur. Mən, ağsaqqal qələm sahibi kimi bu qazi qardaşımızın həqiqi ürək çırpıntılarından ibarət olan həmin şeiri ictimailəşdirməyi özümə borc bildim. Kərəm isə bu fikirlə razılaşmadı ki, mən şair deyiləm, şeirim zəif ola bilər. Mən də ona cavab tapdım: Sən yaxşı şair olsan da, olmasan da, Vətənin və Anan üçün yaxşı oğulsan.

**Anam, sənə qurban olum!**

*Dərdimizdir, odumuzdur saçlarına dən salan,*
*Biz qayğısız böyüdükcə, sənə olubdur olan.*
*Beşiyimiz başında sübhədək oyaq qalan,*
*Anam, sənə qurban olum!*

*Ömrünün acı anların, gücüm çata siləm, atam,*
*Öz ömrümün günlərini kaş sənin ömrünə qatam!*
*Nə qədər sağsan, başımı dizin üstə qoyub, yatam*
*Anam, sənə qurban olum!*

*Nə qədər yorğun olsan da, övladına mehribansan,*
*Müqəddəssin hər qadəmin, əvəzolunmaz ünvansan.*
*Biz səninlə eyni canıq, mənim canımdakı cansan*
*Anam, sənə qurban olum!*

*Bizimçün vuran ürəyin döyündükcə mən də varam,*
*Əgər səni incidərsəm, dünya mənə olsun haram.*
*Şükür ki, yanımızdasan, Allahıma minnətdaram,*
*Anam, sənə qurban olum!*

*Ayağın altı cənnətdir, bu məqamda bir tək sənsən,*
*Sevgi sənsən, həyat sənsən, ömrümüzə bəzək sənsən,*
*İlahinin xəlq etdiyi, ən qayğıkeş mələk sənsən,*
*Anam, sənə qurban olum!*
*Ana sənə qurban olum!*

*İttifaq MİRZƏBƏYLİ, "Xalq qəzeti"*

Ziba Qəniyeva – 100

# Məktəbdə rəqqasə, savaşda snayper, həyatda alim...

**Tam əminliklə deyə bilərik ki, İkinci Dünya müharibəsinin qəhrəmanı Ziba Qəniyeva müasirimiz olsaydı, Qarabağ uğrunda müqəddəs savaşda da fərqlənəcək, torpaqlarımıza göz dikən erməni işğalçılarına gözdağı olacaqdı. Çünki o, qəhrəmanlıq üçün doğulmuşdu. Amma zaman fərqi Zibanı öz dövrünün dünya müharibəsində seçilmişlərdən edib. 1941–1945-ci illər sovet–alman savaşında igidliyinin sorağı bütün keçmiş SSRİ-yə yayılıb.**



Ziba Qəniyevanın atası azərbaycanlı, anası isə özbək olub. Müxtəlif mənbələrdə onun doğum yeri kimi Şamaxı, Qazaxıstanın Çimkənd və Özbəkistanın Gülüstan şəhərləri göstərilir. Ünvanın nə fərqi, əsas odur ki, qanı qanımızdan, canı canımızdan olub.

Məktəbli ikən zərifliyi ilə seçilən Ziba rəqsə könül verib, konsertlərin ulduzu olub. Amma onun bəxtinə çox erkən acılı günlər düşüb: 1937-ci ildə anası repressiya edilib, atası isə Zibanın həyatını xilas etmək üçün məcburən ondan imtina edib. Bundan sonra 14 yaşlı qız rəqs müəlliminin təşəbbüsü ilə xoreoqrafiya məktəbində oxumaq üçün Daşkəndə gedib. 1940-cı ildə Moskvada Teatr Sənəti Dövlət İnstitutunun aktyorluq fakültəsinə daxil olub. Bu dəfə müharibənin başlanması ilə onun arzuları yarımçıq qalıb.



Davanın ilk günlərində Ziba cəbhəyə getmək üçün hərbi komissarlığa müraciət edir. Əvvəlcə tibb bacısı peşəsini öyrənir, hospitalda həkimlərə kömək edir, sonra atıcılıq kursuna yazılır. Pulemyot və snayper tüfəngindən atmağı öyrənir. Kəşfiyyatçı olmaq istədiyinə görə, xizəkçiliyi və sambo fəndləri də mənimsəyir.

Çox keçmədən Ziba Qəniyeva cəbhədə hünər göstərir və adı dillərdə gəzir. Hətta tanınmış yazıçı və jurnalist Boris Polevoy "Pravda" qəzetində onun hünərindən bəhs edir. Teatr İnstitutundakı müəllimi və cəbhə yoldaşı Aleksandr İsbax isə "Zvezda" jurnalında yazırdı ki, döyüşlər ara verəndə Ziba silahdaşları qarşısında rəqs edir, şeirlər oxuyur.

...1942-ci il mayın 23-də sərrast atıcı olan Ziba Leninqrad vilayətinin Molvotitski rayonunun Bolşoye Vraqovo kəndi uğrunda gedən döyüşlərdə xüsusilə seçildi. O, snayper atəşi açmaq tapşırığını alaraq kəndin şərqindəki yüksəkliklərə qalxdı. Tank taqımının hücumundan sonra düşmən geri çəkilməyə başlayanda Zibanın qrupu faşistləri bir-bir dənlədi. Ziba özü 6 düşmən əsgərini öldürdü.

Bu zaman kənd tərəfdə mövqe tutan sovet döyüşçüləri Qəniyevadan kömək istədilər. Oraya doğru irəliləyərkən Zibagili dağılmış binada gizlənmiş alman avtomatçı atəşə tutdu. Özünü itirməyən Ziba düşmənin arxasına keçərək onu güllələdi. Bu zaman isə güclü bombardman başlandı və Qəniyeva qəlpə yarası aldı, amma geri durmadı. Tezliklə düşmən kənddən qovuldu.

Ziba Qəniyeva optik nişanlı tüfəngin sirlərini mükəmməl mənimsədiyi üçün heç vaxt gülləsi hədəfdən yayınmayıb. Necə deyərlər, quşu gözündən vurub, düşmənin yüzlərlə hərbçisini məhv edib. Vera Murmantsevanın "Böyük Vətən müharibəsində sovet qadınları" kitabında yazdığına görə, Ziba qısa müddətdə 21 nəfər faşisti zərərsizləşdirmişdi. Tahir Salahov isə Ziba Qəniyevanın ona dediklərini belə xatırlayıb: "Tahir, mən müharibədə 129 faşisti məhv etmişəm".

Onu da qeyd edək ki, alman qoşunları Qafqaza və Bakı neftinə sahiblənməyə can atdıqları üçün Ziba Qəniyeva 1942-ci ildə "Rabotnitsa" jurnalında qafqazlı qadınları vətənin müdafiəsinə qalxmağa səsləyən belə bir müraciət etmişdi: "Düşmənlər bizim gözəl Qafqazımıza hücum edirlər. Ey uca dağların mərd qadınları – kazaklar, çeçenlər, kabardino-balkarlar, azərbaycanlılar, gürcülər! İşğalçı orduya qarşı vuruşan ərlərinizə və qardaşlarınıza kömək edin! Neftlə, pambıqla, çiçəkli bağların meyvələri ilə düşməni vurmaq olar! Barbarlara qarşı müdafiə olunaq: azadlıq, ləyaqət, şərəf! Evlərimizi, uşaqlarımızı düşmənə verməyək! Yağılara ölüm! Bizim kəskin, sərt silahlardan qəti ölüm!"

Həmin il o, "Qırmızı bayraq" ordeni ilə təltif edildi. Bir qədər sonra isə ağır yaralandı. Döyüş yoldaşları Zibanı təxliyə edə bildilər və təyyarə ilə Moskvaya yolladılar. Müalicəsinə ən güclü həkimlər cəlb edildi və o, ölümdən qurtarsa da, fiziki əngəlləri üzündən cəbhəyə qayıda bilmədi. "Moskvanın müdafiəsinə görə" medalına layiq görüldü. Sovet İttifaqı Qəhrəmanı adını da ala bilərdi, təəssüf ki, anası repressiya qurbanı olduğu üçün təltif vərəqi doldurulmamış qaldı (Amma 1985-ci ildə I dərəcəli "Vətən Müharibəsi" ordeni ilə təltif edildi).

Müharibədən sonra Ziba Qəniyeva, qısa müddətə də olsa, sənətə qayıdır. Özbək rejissor Nəbi Qəniyevin çəkdiyi "Tahir və Zöhrə" filmində fars şahzadəsi Moahimin rolunu oynayır. Sonra o, azərbaycanlı diplomat, SSRİ-nin Türkiyədəki müvəqqəti işlər vəkili Tofiq Qədirovla ailə qurur. Cütlük Moskvaya qayıdır və bir oğulları olur. Ziba xanım şərqşünaslıq üzrə ali təhsil alır, dissertasiya müdafiə edərək, filologiya elmləri namizədi olur. 1955–56-cı illərdə Bakı Ali Partiya Məktəbində kafedra müdiri vəzifəsində çalışır. Sonra yenidən Moskvaya köçür, SSRİ EA Şərqşünaslıq İnstitutunda elmi işçi kimi fəaliyyət göstərir.

Ziba Qəniyeva məşhur azərbaycanlı alim və sənətçilərlə, o cümlədən onun portretini çəkmiş məşhur Xalq rəssamı Tahir Salahovla dostluq edib. Heykəltəraş Cəlal Qaryağdı "Snayper Ziba Qəniyeva" adlı abidə yaradıb. Hind fəlsəfəsinə maraq göstərən igid qadın soydaşımız bir müddət Dehlinin yaxınlığındakı Aliqarh Universitetində urdu dilini öyrənib. Orada Cəvahirləl Nehrunun və İndira Qandinin qonağı olub. Sonra isə uzun illər Ankarada yaşayıb və qadınların "Yer üzündə sülh uğrunda mübarizə" hərəkatında yaxından iştirak edib.

Ziba Qəniyeva vaxtaşırı Bakıya gələr və hər dəfə mütləq Şəhidlər xiyabanını ziyarət edərdi. Qəhrəman qadın soydaşımız 2010-cu ildə Moskvada dünyasını dəyişib.

Bu gün 100 yaşı tamam olan Ziba Qəniyevanın xatirəsi solmazdır. Mənəvi varisləri – neçə-neçə hünərvər azərbaycanlı qızı Böyük Zəfərlə başa çatan İkinci Qarabağ müharibəsində şücaət göstərməklə onun da ruhunu şad edib.

*Əli ƏLİYEV, "Xalq qəzeti"*

# Azərbaycanlı musiqiçinin Badendorf zəfəri

## Dirijor Əyyub Quliyevin ifası beynəlxalq auditoriyanı heyran qoyub

**Bugünlərdə Almaniyanın mədəniyyət mərkəzlərindən sayılan Badendorf şəhərində İmmlinq Beynəlxalq Opera Festivalının rəsmi və təntənəli bağlanış mərasimində Azərbaycan Dövlət Opera və Balet Teatrının baş dirijoru və musiqi rəhbəri, Əməkdar artist Əyyub Quliyev Bavariya orkestrini parlaq idarəsi ilə avropalı tamaşaçıları bir daha heyran qoyub.**

10 iyunda Rixard Ştrausun "Salomeya" operası ilə başlayan festivalda 2 ay ərzində C. Verdinin "Nabukko" , A. Piazzolanın "Mariya Buenos Ayres" operaları və Q. Malerin 2-ci simfoniyası kimi bir sıra əsərlərin yeni quruluşda təqdimatı sənət hadisəsinə çevrilib.



Təntənəli bağlanış mərasimində isə son illərin ənənəsinə uyğun olaraq, Bavariya Festival Orkestri 3 müxtəlif ölkənin tanınmış dirijorunun –festivalın bədii rəhbəri Korneliya fon Kersenbrokun (Almaniya/Avstriya), dünyada sürətlə məşhurlaşan gənc maestro Əyyub Quliyevin (Azərbaycan) və professor Mixail Edişaraşvilinin (Gürcüstan) rəhbərliyi altında orkest şedevr operalardan üvertura, ariya, duet, ansambl və digər musiqi parçalarını tamaşaçılara təqdim ediblər.

Minə yaxın sənətseverin cəm olduğu salonda yer çatışmazlığı və pərəstişkarların inadlı marağını nəzərə alaraq giriş qapısı açılıb, küçədə əlavə oturacaqlar qoyulub, çox sayda insan isə ifaları ayaqüstdə izləyib. 4 saata yaxın davam edən konsertdə Almaniya, Meksika, Çili, Uels, Avstriya, Kosovo, Qazaxıstan, Ukrayna, Koreya və Gürcüstandan dəvət olunmuş istedadlı müğənnilər məharətlə çıxış ediblər.

Gecənin sonunda dirijor Əyyub Quliyevin rəhbərliyi ilə ifa edilən dahi Azərbaycan bəstəkarı Qara Qarayevin "Yeddi gözəl" baletindən fraqmentləri musiqisevərlər davamlı coşğu ilə qarşılayıblar. Soydaşımızın şöhrətli alman orkestrini xüsusi bir məharət və şövqlə idarə etməsi onun şöhrət bioqrafiyasında yeni sənət zəfəri səhifəsi olub.

Xatırladaq ki, Badendorf festivalının ənənəsinə uyğun olaraq, son konsert Azərbaycan bəstəkarının əsəri ilə tamamlanır. Bavariya Festival Orkestrinin 2021-ci ildə Maestro Niyazinin "Qaytağı" simfonik rəqsini, ötən il isə dahi Üzeyir Hacıbəylinin "Koroğlu" operasının üverturasını dirijor Əyyub Quliyev idarəsi ilə möhtəşəm ifa ilə təqdim etməsi konsertin unudulmaz finalı olub.

*Tahir AYDINOĞLU, "Xalq qəzeti"*

# İlisu sultanlarının məzar daşları

## Bu canlı tarix qorunmalı və öyrənilməlidir

**İlisuda qaldığımız ev Tovla-tala məhəlləsində yerləşirdi. Məhəllənin bu adı marağıma səbəb oldu. Talanın mənası aydındır – meşədə ağacsız açıq sahə. Bəs tovla? Məlum oldu ki, keçmişdə bu ərazidə İlisu sultanlarının tövlələri olub. İlisu şivəsində tövlə tovla kimi səslənir. Deməli, Tovla-tala İlisu sultanlarının tövlələrinin olduğu tala deməkdir.**

O vaxtdan çox illər keçib, indi həmin yerdə evlər və köhnə qəbiristanlıq var. Bu qəbiristanlığı məhlə ilə hasar ayırırdı. Evin həyətindən görünən qeyri-adi tikililər diqqətimi çəkmişdi. Mənim üçün qeyri-adi idi, çünki başqa bir yerdə bu cür abidələrə rast gəlməmişdim. Hasardakı taxta qapı mismarlandığından küçəyə çıxıb, təqribən, 50 metr getdikdən sonra qəbiristanlığa daxil olub tikiliyə doğru getməli oldum. Rastıma çıxan bir ağsaqqal bildirdi ki, bu tikililər İlisu sultanlarının, onların qohumları və bəylərin qəbirüstü abidələridir.

Burada başdaşları xüsusi formada inşa edilmiş qəbirüstü tikilinin içərisində idi. Yağış və qar sularından qorunmaq üçün yazılı başdaşları dərin taxçalarda yerləşirdi. Onlar yüksək bədii dəyəri ilə seçilir. Qəbirlərdən biri II Əli Sultana aid idi. Yazılı məzardaşında həndəsi naxışlı, epiqrafik məzmunlu ərəbcə süls xətti ilə yazılmış mətn var. Bəxtimdən Əliqismət adlı ağsaqqal tarixçi idi və ərəbcə oxumağı bacarırdı. O bildirdi ki, atası molla olub, ərəb dilini ondan öyrənib. Qoca diqqətimizi çəkən qəbirlərdən birinə yaxınlaşıb üstündəki mətni oxuyub tərcümə etdi:

– Rəhimli və mərhəmətli Allahın adıyla. Həmd olsun Allaha. İki dünyanın hakiminə. Böyük imamın Şəki və Saxurda bayrağını qaldıran, vilayət valisi, ədalətli sultan, nəcib, kəramət sahibi. Kasıb və bədbəxtlərə sədəqə verən, kafirlərlə döyüşdə şəhid olan Əli paşa Ədi Qurqulu oğlu, Məhəmməd xan oğlu, Əli bəy oğlu bu dünyadan köçüb. Hicri: Min yüz qırx beşinci il.

Məhəmməd seçilmişdir. Allahın ona salam və salavatı olsun.

Sonra. Zaman-zaman qəbirlərdə əcdadların yüksək ruhu ilə ünsiyyət quran hakimlər haradadır?



Ölüm – kasadır və bütün insanlar ondan içir. Qəbir - qapıdır və bütün insanlar ora köçür (ona daxil olur).

1145–1732/33

* * *

Bu mətndən bəzi suallar çıxır. Niyə başdaşına Əli paşa yazılıb. Özü də Şəki və Saxur valisi (hakimi)? Bu suallara cavab tapmağa çalışdım.

Qeyd edim ki, İlisu sultanlarının hakimiyyətinin tanınması ilə bağlı fərmanlar var. Bu sənədlər Səfəvi şahlarına və Osmanlı sultanlarına aid fərmanlardır. Sayı 35-dək olan fərmanların, demək olar, hamısı mühafizə olunaraq Daniyal sultan tərəfindən ruslara təqdim edilmişdi. O sənədlərdə İlisu sultanların hakimiyyəti təsdiq olunurdu, onları gürcü feodallarının təsiri altına düşməkdən qoruyurdu. Məsələn, 1562-ci ildə I Şah Təhmasibin verdiyi fərmanla Saxur hakimi Qurqulu bəyin ərazi üzərində hakimiyyəti təsdiq olunurdu. Fərmana görə heç bir gürcü çarı onun hakimiyyəti altında olan əraziyə iddia ilə çıxış edə bilməzdi.

Sonrakı dövrlərdə də oxşar fərmanlar verilib. Burada söhbət gedən II Əli Sultana isə 6 fərman verilib – 1695, 1701, 1710-cu illərdə Səfəvi şahı, 1722, 1729, 1731-ci illərdə isə Osmanlı sultanı tərəfindən.

Fərmanların fərqli hökmdarlar tərəfindən müxtəlif vaxtlarda verilməsinin də səbəbi var. 1711-ci ilədək İlisu sultanlarının Səfəvi dövləti ilə münasibətləri normal olub. Sonradan vəziyyət dəyişib. XVIII əsrin əvvəllərində Azad Camaatlıqların və İlisu sultanlığının azadlığı böyük təhlükədə olub. Səfəvi şahları ərazini özündən asılı vəziyyətə salmaq istəyib. Digər tərəfdən bu ərazilərə gürcü basqınlarının ardı-arası kəsilməyib. Belə bir anda Car-Balakən, Muxax, Tala, Çardaxlar, Sarıbaş camaatlıqlarının və İlisu Sultanlığının, həmçinin bir sıra başqa camaatlıqların başçıları, üləmaları və ağsaqqalları Muxaxın yaxınlığında toplaşıblar. Onlar şahları müdafiə edən xanlara və məliklərə qarşı üsyana qalxmaq haqda qərar qəbul ediblər və İlisu sultanı II Əli Sultanı üsyana başçı seçiblər.

Hüseyn şah bundan əvvəl (1710) II Əli Sultana hakimiyyətini təsdiq edən fərman versə də o, üsyana rəhbərlik edib. 1711-ci ilin aprel ayında üsyançılar əvvəlcə Qax və Car-Balakəndə və ətraf yerlərdə olan şah qüvvələrini qovdular. Sonra qüvvələri yenidən toplayaraq Şəki üzərinə hərəkət ediblər və qalib gəliblər.

A.Bakıxanov yazır: "Bu qələbədən sonra Əli Sultan Türkiyə təbəəliyini qəbul edib. III Sultan Əhməd onu Şəkiyə və ona əlavə edilmiş Saxura bəylərbəyi təyin edib. Ona general-leytenanta bərabər rütbə verib". II Əli Sultanın başdaşında Əli paşa kimi yazılması da buradan qaynaqlanır.

II Əli Sultanın ən güclü yürüşləri isə 1721–22-ci illərdə olub. Şamaxı və Qarabağ döyüşlərində qalib gəlib. Gəncəni mühasirədə saxlayıb. Lakin Gəncəni tuta bilməyib. Sonra II Əli Sultan Dağıstan azad camaatlıqları ilə də ittifaqa girərək 1722-ci ildə Tiflis yaxınlığında İberiya çarı VI Vaxtanq və ona köməyə gələn Səfəvi qüvvələrini darmadağın edib. Bu döyüşdən sonra sultan ikinci fərmanı verib. 1722-ci ildə Türkiyə sultanı III Əhməd tərəfindən verilmiş fərmanda deyilir: "1135-ci ilin zilhüccə ayının birindən Saxur sancağı da daxil olmaqla sizi Şəki ölkəsinin bəylərbəyi təyin edirik. Saxur sancağı ilə birlikdə göstərilən ölkəni idarə etməyə başlayın". O, sonrakı 1725 və 1727-ci illərdəki döyüşlərdə də qalib gəlib.

II Əli Sultan paşa 37 il hakimiyyətdə olub (1695–1732), 1732-ci ildə gürcülərlə döyüşdə şəhid olub.

İkinci qəbirüstü abidə isə II Əli Sultanın oğlu Xəlil paşaya aiddir. Məzar daşında süls elementləri olan nəsx xətti ilə yazılmış mətn var: "Bağışlanan Xəlil paşa Əli paşa oğlu, Qurqulu oğlu, Məhəmməd xan oğlu, Əli bəy oğlu kafirlərə qarşı döyüşdə şəhid olub, bu dünyadan köçüb. Ondan sonra dünyada nə qalacaq? O, səmimi idi. Allah rizası üçün kasıb və bədbəxtlərə pul paylamaqda səxavətli idi.



Tarix. Məhəmməd peyğəmbərin hicrətindən min yüz əllinci il

Allahın ona salam və salavatı olsun. Ondan sonra peyğəmbər yoxdur.

1150 il = 1737/38"

Xatırladaq ki, Tovla-tala məhəlləsindən Sarıbaş kəndinə, oradan da Dağıstana yol gedir. Şeyx Şamilin müridləri buradan ruslarla döyüşə gedib. Tovla-talanın qarşısında, çayın o biri tərəfində isə Qala məhəlləsi yerləşir. Ad oradakı qala ilə bağlıdır və XIX əsrdə burada qala kompleksi olub. Hazırda ondan bürc və divar qalıqları qalıb. Qala bürcünün hündürlüyü 8 metr, diametri 28 metrdir. İşğaldan sonra rusların tikdiyi bildirilir.

…Tovla-talada İlisu sultanlarının, onların yaxınlarının məzarları var. Bu canlı tarix qorunmalı və öyrənilməlidir. Unutmayaq ki, şanlı tariximizin bir hissəsi İlisu sultanlığı ilə bağlıdır.

*Pünhan ƏFƏNDİYEV, "Xalq qəzeti"*

BEYNƏLXALQ HƏYAT

# Qərb Ukraynanı yarıyolda qoya bilərmi?

## Yeni hücumlar üçün Rusiyanın da, Ukraynanın da imkanları azalıb

**“Cəbhədə hər iki tərəf oxşar problemlərlə üzləşir: yeni hücumlar üçün həm Rusiya, həm də Ukrayna məhdud imkanlara malikdir”. Bu barədə Böyük Britaniyanın Müdafiə Nazirliyi kəşfiyyat məlumatlarına əsasən bildirib. Qeyd olunub ki, hər iki qüvvə qarşı tərəfi məğlub etməyə çalışır: “Son bir həftə ərzində cəbhə xəttinin çox hissəsi statik olaraq qalıb. Vəziyyət əhəmiyyətli dərəcədə dəyişməyib. Bununla belə, cənubda Ukrayna qüvvələri Urojayne kəndini mühafizə etməyə davam edirlər. Şimalda isə Rusiya əhəmiyyətli irəliləyiş əldə edə bilməyib”.**



Bununla belə, Ukraynanın hazırda davam edən əks-hücum əməliyyatlarının daha böyük əməliyyatlara hazırlıqlı olduğunu bildirənlər də var. ABŞ-ın Müharibə Araşdırmaları İnstitutundan bildirilib ki,hazırkı həmlələr gələcək əməliyyat üçün əlverişli şərait yaratmağa hesablanıb: “Ukraynanın əks-hücum əməliyyatlarının ümumi uğuru haqqında qiymətləndirmələr etmək hələ tezdir. Müxtəlif mərhələlərdə əks-hücum əməliyyatları müxtəlif templə inkişaf edə bilər”.

Hesabatda bildirilib ki, Rusiyanın effektiv müdafiə əməliyyatları və sıx mina sahələri Ukraynanın irəliləyişlərini məhdudlaşdırıb: “Yəqin ki, proses hələ bir müddət belə davam edəcək. Anonim ABŞ mənbələrinin məlumatına görə, Ukrayna Melitopol istiqamətində o qədər də çox irəliləyə bilməyəcək”.

Ekspert Sin Bell isə bildirib ki, cəbhədəki vəziyyətdən və NATO ilə Qərbin Ukraynaya dəstək nümayiş etdirməsinə baxmayaraq, pərdəarxasında konflikti sona çatdırmağın yolları barədə düşünürlər. O bildirib ki, Ukraynanın çoxdan gözlənilən yaz əks-hücum əməliyyatı artıq 10-cu həftəsindədir: Prezident Volodimir Zelenskinin fikrinə görə, əks-hücum əməliyyatları ancaq Qərbin silah tədarükündən asılıdır. O bildirir ki, silahlar verilərsə, əks-hücum əməliyyatları davam edəcək. Ukrayna yaz hücumuna iyunun əvvəlində başlayıb. Bəzi şiddətli döyüşlərə baxmayaraq, Rusiyanın istehkamları hələ də möhkəmdir. Halbuki Prezident Zelenski üçün uğurun göstəricisi azad edilən torpaqlardır”.

Sin Bell əks-hücum əməliyyatlarının ləng davam etdiyinə diqqət çəkib: “Ukraynanın mübarizəni davam etdirmək əzmi başadüşüləndir – bu, hər şeydən əvvəl, onların müharibəsidir. Lakin Qərb liderləri artıq savaşın perspektivini müzakirə etməyə, bundan sonra nələr olacağı barədə düşünməyə başlayıblar. Qərb deyir ki, nə qədər lazımdırsa, Ukraynanı dəstəkləyəcək. Lakin Qərbin silah ehtiyatları da azalır. Qərb Ukraynaya dəstəyi davam etdirmək üçün məhdud imkanlara malikdir”. Qeyd edək ki, son günlər Ukrayna ilə NATO arasında gərginlik yaranıb. NATO nümayəndəsi Stian Yenssen daha əvvəl demişdi ki, Ukrayna Alyansa üzvlük müqabilində torpaq güzəştinə getməlidir. Ukrayna Prezident Ofisinin müşaviri Mixaylo Podolyak və xarici işlər naziri Dmitro Kuleba bu təklifə kəskin münasibət bildiriblər və müharibənin davam edəcəyini söyləyiblər.

Sin Bell də daxil olmaqla bir çox ekspertin fikrincə, Qərb Ukraynanı yarıyolda qoymağa hazırlaşır.

Cəbhədə isə döyüşlər davam edir. Ukraynaya məxsus pilotsuz uçuş aparatı Rusiyanın Kursk vilayətində taxıl emalı kombinatına, Novqorod vilayətindəki hərbi aerodroma hücum edib. Krımı C-200-lə vurmağa çalışıb. Rusiya isə Ukraynanın iri şəhərlərinə raket zərbələri endirib. Təmas nöqtələrində isə ciddi dəyişiklik yoxdur.

Xatırladaq ki, Rusiya və Ukrayna arasında genişmiqyaslı müharibə ötən il fevralın 24-də başlayıb. Ukrayna bu ilin iyununda əks-hücum əməliyyatlarına start verib.

***P.ƏFƏNDİ,***
***“Xalq qəzeti”***

# “Taxıl sazişi”nin taleyi məlum deyil

**Ukrayna taxılının ixracı mövzusu müxtəlif formatlarda fəal şəkildə müzakirə olunur. ABŞ taxıl üçün alternativ marşrut yaratmaq üçün Ankara və Kiyevlə müzakirələr aparır. Eyni məqsədlə Vaşinqton Rumıniya ilə də əməkdaşlıq edir. Rəsmi Buxarest də bildirir ki, Ukraynadan taxılın 60 faizdən çoxunun tranzitini təmin etməyə hazırdır. Türkiyə də öz növbəsində Rusiyanın “taxıl sazişi”ndən çıxmasından sonra fəaliyyətini dayandıran Qara Dəniz Təşəbbüsünü canlandırmağa çalışır.**



Ukrayna taxılının ixracı mövzusu beynəlxalq müzakirələrin mühüm predmeti olaraq qalır. Xəbər verildiyi kimi, avqustun 11-də Rumıniyanın Qalati şəhərində ABŞ, Avropa İttifaqı, Rumıniya, Ukrayna və Moldovanın yüksək vəzifəli rəsmiləri quru və kanallar vasitəsilə taxıl ixracı məsələsini müzakirə etmişdilər. Qeyd etmək yerinə düşər ki, müzakirə olunan marşrutda mühüm əlaqə liman infrastrukturu və çay donanması olan Rumıniyadır. Həmin görüşdən sonra Rumıniyanın nəqliyyat naziri Sorin Qrindeanu ölkəsinin tranzit həcmini ayda 2 milyon tondan 4 milyon tona çatdırmağı planlaşdırdığını bildirmişdi. Avqustun 18-də isə Rumıniyanın Hotnews.ro informasiya saytı Aşağı Dunay çayı administrasiyasının rəhbəri Angela İvana istinadən xəbər vermişdi ki, Sulina kanalı ilə gecə-gündüz naviqasiyanı təmin etmək üçün işıqlandırma və digər tədbirlər həyata keçirmək lazımdır. Onun sözlərinə görə, marşrutlar uçuş-enmə zolağı kimi işıqlandırılmalıdır. Eyni zamanda, Angela İvan bu ilin may ayında kanaldan 476 ticarət gəmisinin keçdiyini də açıqlamışdı: “Bu, müharibədən əvvəlki dövrlə müqayisədə, təxminən, iki dəfə çoxdur”.

Həmçinin cümə günü, yeni Qalatidəki görüşdən düz bir həftə sonra Buxarestdə Rumıniya və Ukraynanın baş nazirləri Marçel Çolaku və Denis Şmıqal arasında danışıqların aparıldığı bildirilir. Məlumatda hökumət başçılarının ikitərəfli əməkdaşlığın gücləndirilməsi və Ukraynadan malların səmərəli tranzitinin təmin edilməsi haqqında bəyanat imzaladıqları qeyd olunur. M.Çolakunun ölkəsinin Ukraynanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü tam dəstəklədiyini bildirdiyi vurğulanır: “Ukrayna qələbə qazanana qədər biz Ukraynanın yanında olacağıq”. Bundan əlavə, cənab Çolaku ümid etdiyini bildirib ki, ölkəsi Ukrayna taxıl ixracının ümumi həcminin 60 faizindən çoxunun Rumıniyadan keçməsini təmin edə biləcək: “Mən Ukraynanın baş nazirini əmin etdim ki, Rumıniya indiyə qədər olduğu kimi, Ukrayna taxılının beynəlxalq bazarlara ixracının asanlaşdırılmasında iştirakını davam etdirəcək”.

Eyni zamanda, Rumıniya və Moldova bildirirlər ki, tranzitin artırılması infrastrukturun – limanların, dəmir yollarının, sərhəd-keçid məntəqələrinin təkmilləşdirilməsi üçün investisiya tələb edir. Bu yaxınlarda RFI-yə verdiyi müsahibədə Moldova Prezidenti Mayya Sandu ölkəsinin dəmir yolu və liman infrastrukturunun inkişaf etmədiyini bildirmiş və əlavə etmişdi ki, bu problemlər Ukraynadan yük daşımalarının artması fonunda daha qabarıq üzə çıxmışdı. Onun sözlərinə görə, vəziyyətdən çıxış yolu Kişinyovun Qərbdən gözlədiyi sürətli investisiyalar ola bilər.

“The Wall Street Journal”ın yazdığına görə, Rumıniya–Moldova istiqaməti üzrə işlərə paralel olaraq ABŞ Türkiyə, Ukrayna və sonuncunun qonşuları ilə alternativ taxıl ixracı marşrutlarından istifadəyə dair danışıqlar aparır. Dunayda Ukrayna limanlarına daxil olan və çıxan gəmiləri qoruyacaq hərbi hələr də nəzərdən keçirilir. Söhbət son vaxtlar Rusiyanın zərbələrinin hədəfinə çevrilən Reni və İzmail limanlarından gedir. Birləşmiş Ştatlar oktyabr ayına qədər Dunay marşrutları üzrə tranziti artırmağı gözləyir. Bununla əlaqədar olaraq “The Wall Street Journal” Qalatidəki görüşü xatırladır. Eyni zamanda, “The Wall Street Journal” iddia edir ki, taxıl müqaviləsinin yenidən qüvvəyə minməsi üçün Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana təzyiq göstərilir.

Əslində, Türkiyə də Ukrayna taxılının təhlükəsiz daşınmasında çox maraqlıdır və bu istiqamətdə fəal siyasət yürüdür. Son xəbərlərə görə, Ankara bu istiqamətdə işləyir. Türkiyənin “Anadolu” agentliyi avqustun 17-də Türkiyə Müdafiə Nazirliyindəki mənbələrə istinadən xəbər vermişdi ki, ölkə hakimiyyəti “Qara Dəniz Taxıl Təşəbbüsünü bərpa etmək üçün səy göstərir”. “Anadolu”nun həmsöhbətləri bildirmişdilər ki, “Digər ölkələr alternativ marşrutlar və yollar üzərində işləyirlər. Biz bunu yaxından izləyirik. Problem bu münaqişə qarşısında ticarət gəmilərinin Türkiyə boğazlarına necə təhlükəsiz şəkildə çata bilməsidir. Türkiyə boğazlarından gəmilərin keçməsində heç bir problem yoxdur”. Qeyd etmək lazımdır ki, avqustun 16-da kənd təsərrüfatı məhsulları daşıyan “Joseph Schulte” gəmisi taxıl müqaviləsi dayandırıldıqdan sonra ilk olaraq Odessa limanından Türkiyə istiqamətində yola düşmüşdü. Avqustun 17-də göyərtəsində 30 min ton məhsul olan yük gəmisi təhlükəsiz şəkildə İstanbul bölgəsindəki Ambarlı limanına çatmışdı. Bundan əvvəl Ukrayna taxıl daşınması üçün müvəqqəti dəniz marşrutu yaradacağını açıqlamışdı.

Türkiyənin “Yeni Şafak” qəzeti də öz növbəsində Türkiyənin xarici işlər naziri Hakan Fidanın rusiyalı həmkarı Sergey Lavrov, eləcə də Ukraynanın xarici işlər naziri Dmitri Kuleba ilə “taxıl sazişi”ni müzakirə etmək planları barədə məlumat yaymışdı. Bu danışıqlar Rusiya və Türkiyə liderləri arasında avqusta planlaşdırılan görüşdən əvvəl olmalıdır. Rusiya da bildirir ki, bir sıra şərtlər daxilində “taxıl sazişi”nə qayıda bilər. Onların arasında “Rosselxozbank” SWIFT-ə yenidən qoşulması, Rusiyaya ehtiyat hissələrinin çatdırılmasının bərpası, nəqliyyat logistikasının və sığortasının yaradılması, Rusiya şirkətlərinin xarici aktivlərinə çıxış imkanlarının bərpası daxildir.

Beləliklə, taxıl təşəbbüsünün bərpa oluna biləcəyi ehtimalı tamamilə istisna edilmir. Bu arada, avqustun 18-də Almaniyanın “Bild” nəşrinin rusdilli “Telegram” kanalı redaksiyanın ixtiyarında olan sənədlərə istinadən taxılla bağlı danışıqların başqa istiqamətini açıqlayır. Məlumata görə, Rusiya, Türkiyə və Qətər “əsasən Afrikadakı kasıb ölkələrə Rusiya taxılının tədarükünə imkan verəcək” üçtərəfli saziş üzərində işləyirlər.

***Hazırladı:***
***S.ELAY, “Xalq qəzeti”***

ƏBƏDİ SUAL

# Həyatın mənası

## Öyrənmək, tərbiyə, mübarizə, məntiq, həzz, yoxsa?

**Gündə orta hesabla 8 saat kompüterimizin qarşısında oturub “Word” sənədlərinə, “Excel” cədvəllərinə, “PowerPoint” və s. təqdimatlarına baxaraq, qısa bir fasilə verəndə bir anlıq özümüzə sual veririk: “Bu həyatın mənası nədir?**



Hər bazar ertəsinin “mənəvi işgəncə” kimi hiss olunduğu, hər cümə və ya şənbə işin bitməsini, az qala, “bayram etdiyimiz”, özümüzü kiçik və ya böyük xoşbəxtliklərdən kənar saydığımız həyatımızın mənası nədir axı? Suallarımıza bəzən bələdçi axtarırıq. Əminik ki, bu sətirləri oxuduğunuz zaman cavabı da burada axtaracaqsınız. Lakin, ilk baxışda, sadə görünən bu sualın cavabı o qədər də asan deyil.

Filosofların, mütəfəkkirlərin, psixoloqların, elm və mədəniyyət adamlarının indiyə qədər dəqiq cavab tapa bilmədiyi bu sualın qarşısında biz də acizik. Bəlkə də ruhumuza bir təsəlli olaraq, bu mövzuda məşhur insanların fikirlərini qısaca olaraq bölüşək.

Həqiqətən də, həyatın mənası nədir?

Əflatun hesab edirdi ki, bilik insanları fəzilətə aparan ən mühüm vasitədir. Buna görə də Platona görə, həyatın mənasının “daha çox oxumaq” olduğunu deyə bilərik. Əslində, Platon demokratiyanın təhsilin məhsulu olduğuna inanırdı. O, savadsız xalqların demokratiyanın öhdəsindən gələ bilməyəcəyini, demokratiyanın zamanla oliqarxiyaya çevriləcəyini, cahil xalqları yalan məlumatlarla silahlandıran demaqoqların meydana çıxacağını, bunun da diktatorlara yol açacağını bildirirdi.

Ərəstuna görə, insanı başqa varlıqlardan fərqləndirən etik yanaşmadır. Onun təliminə görə insan “məntiqi (rasional)” varlıq idi. O, inanırdı ki, bu etik dəyərlər insanları yaxşılığa aparan yeganə yoldur. Yəni, filosofa görə, insan həyatının amalı “yaxşı biri olmaq”dan ibarətdir.

Sokratın tələbəsinin rəhbərlik etdiyi kinizm təliminə görə, insanın son məqsədi sadə həyat sürməkdir. Bu sadə həyatda insan cəmiyyətin əksər fərdlərini hərəkətə gətirən var-dövlət, şöhrət, güc və cinsi istəklərini bir kənara qoyub, özünü təmin edə bildiyi diqqətdənkənar həyat sürmülidir.

Ən çox məşhur olan təlimlərdən biri, hedonizmə görə, insan həyatının təməli həzzi mümkün qədər yüksək tutmalı və qayğıları azaltmalıdır. Stoisizmə görə, insan həyat haqqında yanlış nəticələr çıxardığı üçün bədbəxtliyə uğrayır. Ona görə də hər kəs təbiətin məntiqini bilməli və ona uyğun hərəkət etməlidir. Stoisizmdə insanın davranışı onun dediklərindən daha önəmlidir və şüar belədir: “Məntiqə sahib ol, üzülmə!”.

Alman filosofu İmmanuel Kantın anlayışına görə, kainatı bir araya gətirən prinsiplər var. Bu prinsiplərin etibarlılığı onların tətbiqindən asılıdır. Məsələn: “Sizi incidən hər kəsi öldürün”. Belə bir prinsipi hamı üçün etibarlı etmək, təbii ki, mümkün deyil. Çünki bu prinsip tətbiq olunsaydı dünyada heç kimin qalmaması ehtimalı vardı. Odur ki, Kanta görə, həyatın mənası cəmiyyəti bir yerdə saxlayan və optimal yaşayışı təmin edən əxlaqi anlayışdan asılıdır: “Başqaları ilə elə davran ki, səninlə də yaxşı rəftar olunsun”.

Nihilizmə görə isə həyat heç bir mahiyyəti olmayan fəlsəfi doktrinadır. Yəni, bizi düşündürən suala nihilistin cavabı belə olardı: “Həyatın mənası yoxdur və hər şey sərbəstdir. İnsan həyatı istədiyi şəkildə yaşaya bilər”.

Elə mən də bu fikirlərdən yola çıxaraq demək istəyirəm ki, ruhumuzu bu düşüncələrlə yormayaq. Harada, nə zaman bitəcəyini bilmədiyimiz həyatımızı elə ruhumuzu oxşayaraq yaşayaq…

***Səadət RZAYEVA,***
***“Xalq qəzeti”***

# Tramp həbsxanaya könüllü gedəcək

**ABŞ-ın keçmiş prezidenti Donald Tramp avqustun 24-də və ya 25-də Corciya ştatının Fulton dairəsinin həbsxanasına təslim olmağı planlaşdırır. Bu barədə hüquq-mühafizə orqanlarının yüksək vəzifəli əməkdaşı bildirib. Həmin məmur iddia edib ki, Trampın gələn həftənin sonunda – ya cümə axşamı, ya da cümə günü Fulton dairəsindəki həbsxanaya könüllü gedəcəyi gözlənilir. Fulton dairəsinin prokuroru Feni Uillis isə daha əvvəl deyib ki, Tramp və digər müttəhimlərə avqustun 25-dən gec olmayaraq hakimiyyət orqanlarına təslim olmaq əmri verilib. Təqsirləndirilən şəxslərin həbsxanada fotoşəkilləri çəkiləcək, barmaq izləri götürüləcək.**



Bu arada ABŞ prezidenti olduğu müddətdə Donald Trampa məktubla tərkibində ölümcül "Risin" maddəsi göndərən kanadalı Paskal Ferrier 22 il həbs cəzasına məhkum edilib. Qeyd olunub ki, P.Ferrier cəzasını çəkdikdən sonra ABŞ-dan deportasiya olunacaq və geri qayıdarsa, ömürlük həbs ediləcək.

Xatırladaq ki, məhkum sözügedən məktubu 2020-ci ilin sentyabrında göndərmişdi.

***“Xalq qəzeti”***

# İngiltərədə “ən təhlükəli koronavirus”

**İngiltərə Sağlamlıq Mühafizəsi Agentliyi COVID-19-un yeni variantı “BA.2.86”ya yoluxmanın aşkarlandığını açıqlayıb. Bu barədə “Reuters” agentliyi məlumat yayıb.**

Məlumatda omikron ştamının bir növü olaraq ortaya çıxan yeni variantın bir nəfərdə aşkarlandığı qeyd edilib. “BA.2.86”nın omikrona nisbətən daha çox mutasiya keçirdiyi bildirilir.

Mütəxəssislərin “ən yoluxucu koronavirus” növü adlandırdıqları “BA.2.86” variantına yoluxma faktı bundan əvvəl Danimarka, İsrail və ABŞ-da qeydə alınıb. Gürcüstanda isə koronavirusun yeni EG.5 ştamı aşkar olunmuşdu. Öskürək, boğaz ağrısı, baş ağrısı, əzələ ağrısı, ümumi zəiflik isə xarakterizə olunan EG.5 koronavirusun omikron növünə bənzəyir. Bu virus risk qrupları və xroniki xəstəlikləri olan insanlar üçün təhlükəlidir. Mütəxəssislər əhaliyə xəbərdarlıq edir və bildirirlər ki, simptomlar aşkar olunduqda ictimai yerlərdən uzaq durmalı, özünütəcrid rejiminə əməl olunmalıdır.



Qeyd edək ki, EG.5 virusu artıq dünyanın 54 ölkəsində qeydə alınıb. Son 28 gün ərzində koronavirusun yeni ştamına dünyada 7 milyondan çox yoluxma qeydə alınıb və artıq üç min nəfər dünyasını dəyişib.

***“Xalq qəzeti”***

Xalqın qəzeti!
# Xalq qəzeti
№ 177 (30293) 20 avqust 2023-cü il, bazar
veb-sayt: www.xalqqazeti.az

İdman xəbərləri

## Azərbaycan şahmatçısı olimpiadada qızıl medal qazanıb

**Niderlandın Eyndhoven şəhərində yeniyetmələrin Ümumdünya Şahmat Olimpiadasında Azərbaycan təmsilçisi uğurla çıxış edib.**



Şahmatçımız Read Səmədov birinci lövhədə 9 oyundan 8 xal toplamaqla ən yüksək nəticə sahibi kimi qızıl medala layiq görülüb. Mükafatlandırma mərasimində onun şərəfinə Azərbaycan himni səsləndirilib.

Qeyd edək ki, komandamız mötəbər yarışı 12-ci pillədə başa vurub.

47 ölkədən 63 komandanın mübarizə apardığı olimpiadada Azərbaycan millisi Read Səmədov, Xaqan Əhməd, Cahandar Azadəliyev və Nərmin Abdinova ilə təmsil olunub.

## "Neftçi" finala vəsiqə qazandı



**İspaniyada təşkil olunan 3x3 basketbolu üzrə Dünya Qadın Seriyasının Melilya mərhələsində "Neftçi"nin yarımfinal oyunu baş tutub.**

"Ağ-qaralar" reytinqə görə Melilya mərhələsinin bir nömrəli komandası olan Çin millisi ilə üz-üzə gəlib və rəqibini 17:13 hesabı ilə məğlub edərək finala yüksəlib.

Azərbaycan təmsilçisi həlledici görüşdə Niderland - İspaniya cütünün qalibi ilə qarşılaşacaq.

## Nicat Abasov qaralarla uduzdu

**Bakıda təşkil olunan Dünya kubokunda Azərbaycan şahmatçısı Nicat Abasovla norveçli Maqnus Karlsen arasında yarımfinal mərhələsinin ilk oyunu keçirilib.**



28 yaşlı qrossmeyster güclü rəqibinə qarşı görüşdə qara fiqurlarla mübarizə aparıb. Təmsilçimiz Maqnus Karlsenə məğlub olub.

Qeyd edək ki, Nicat Abasov 1/4 finalda Hindistan təmsilçisi Vidit Santoşu, Maqnus Karlsen isə onun həmyerlisi Dommaracu Qukeşi məğlub edib.

*Leyla QURBANOVA, "Xalq qəzeti"*

Texnologiya yenilikləri



## "Google xəritə" elektromobili də unutmadı

**Getdikcə istifadəsi artan elektrik avtomobilləri üçün "Google xəritə"də yeniliklər edilib. Artıq elektromobil istifadəçiləri "Android Auto" üçün "Google xəritə"də yanacaqdoldurma məntəqələri əvəzinə, elektrik (şarj) doldurma məntəqələri görünəcək.**

Qeyd edək ki, ilk praktiki elektromobil 1880-ci illərdə istehsal edilmişdir. Elektrik avtomobilləri 19-cu əsrin axırları və 20-ci əsrin əvvəlləri məşhur olsa da, daxiliyanma mühərriklərinin inkişafı və kütləvi ucuz benzin istehsalı elektrik avtomobillərindən istifadənin azalmasına səbəb olmuşdur. Araşdırmalar qlobal elektromobil satışının ümumi avtomobil bazarında 19 faiz olduğunu göstərir.

*F. SALMANOVA, "Xalq qəzeti"*

## "Samsung"un qatlanan planşet və noutbukları

***Məlum olduğu kimi, "Samsung" uzun zamandır ki, qatlana bilən smartfonlar istehsal edir. İndi isə şirkət eyni funksiyalı planşetləri və noutbukları hazırlamaq niyyətindədir.***



"Samsung"un mobil şöbəsinin rəhbəri T.M.Roh bildirib ki, smartfonlardakı yeni texnologiyalar növbəti mərhələlərdə həm planşetlərdə, həm də noutbuklarda tətbiq ediləcək. Bu məqsədlə şirkət çoxlu resurs sərf edib. T.M.Roh onu da əlavə edib ki, şirkət qatlana bilən planşetlər ilə noutbukları o zaman satışa çıxaracaq ki, o öz alıcılarına lazımi innovasiyaları təqdim edə bilsin.

"Samsung display" bir müddət bundan əvvəl şirkətdaxili təqdimat keçirərək, "All Around Full Screen" adlı növbəti nəsil ekran texnologiyasını təqdim etmişdi. "Ice universe" ləqəbli məşhur insayderin sərgilədiyi fotodan da görmək olur ki, yeni nəsil ekranın ətrafında heç bir çərçivə olmayacaq və ekranın kənar hissələri smartfonun gövdəsi ilə birləşəcək.

Şirkət yaxın aylarda smartfonunu satışa çıxaracaq.

*Səadət RZAYEVA, "Xalq qəzeti"*

Təqvim yada salır

## Şuşa həsrət idi Xanın səsinə...

**20 avqust milli musiqimizin "Xan əmi"si şuşalı İsfəndiyar Aslan oğlu Cavanşirovun ad günüdür. 1901-ci ildə musiqi beşiyi Şuşada doğulmuş, 1979-cu ildə Bakıda dünyasını dəyişmişdi.**



Muğam zirvəsinin fatehi Xan Şuşinski təkcə ad günündə deyil, hər vaxt anılır, xatırlanır. Bu haqqı Azərbaycan muğam sənətinin inkişafındakı xidmətləri və misilsiz, təkrarolunmaz səsi ilə qazanıb ustad.

Deyilənə görə, Ağdamda məclislərin birində qrammofonda Güneyin məşhur xanəndəsi, təbrizli Əbülhəsən xan İqbalın "Kürd - Şahnaz" muğamını dinləyirmişlər. Segah ustadı, xanəndə İslam Abdullayev şagirdi İsfəndiyardan soruşur:

– Belə oxuya bilərsənmi, a bala?

– Hə, bir də dinləsəm, oxuya bilərəm, ustad ! – deyə İsfəndiyar cavab verir.

Muğam yenidən səslənir. O, muğamı dinlədikdən sonra oxumağa başlayır. İsfəndiyarın səsi məclisdəkiləri məftun edir, hamı onu "əhsən" deyib alqışlayır. Bu ifadan çox razı qalan ustad fəxrlə şagirdinə deyir:

– Əbülhəsən o tayın xanıdır, bu gündən sən də olursan bu tayın Xanı!

Elə o gündən İsfəndiyara hamı "Xan" deməyə başlayır. Yaşının üstünə yaş gəldikcə isə ona "Xan əmi" deyə müraciət edirlər. Xan Şuşinski "Mahur- Hindi", "Bayatı - Qacar", "Qatar" , "Qarabağ şikəstəsi", "Arazbarı", "Heyratı" muğamlarını özünəməxsus ifa edib. "Qarabağ şikəstəsi" onun ən çox sevilən mahnısı olub. Bu şahanə ifa dinləyicilər tərəfindən böyük rəğbətlə qarşılanıb, gur alqışlara səbəb olub. Elə Xan özü də bu muğamı çox xoşlayarmış. Həmişə səhnəyə çıxanda ifasına bu muğamla başlayarmış, şövqlə oxuyarmış. "Şuşanın dağları", "Ay gözəl", "Məndən gen gəzmə", "Al yanağında", "Dağlarda çiçək", "Gözəl yarım", "Ölürəm, a ceyran bala", "Qaragöz" və digər nəğmələr də Xanın ifasında sevilib və dillər əzbəri olub.

Təəssüf ki, ustad sənətkarın bənzərsiz ifasından cəmi 4 saatlıq lent yazısı qalıb.

Fəsillər dəyişəcək, aylar, illər ötəcək, amma Xandan bir də dünyaya gəlməyəcək. Ondan yadigar qalan səsi oldu. Xalqın sevimli şairi Səməd Vurğun o ecazkar səsi eşitmək arzusu ilə yazmışdı:

***Könlüm keçir Qarabağdan,***<br>
***Gah o dağdan, gah bu dağdan,***<br>
***Axşamüstü qoy uzaqdan***<br>
***Havalansın Xanın səsi,***<br>
***Qarabağın şikəstəsi.***

Düz 30 il eşidilmədi Xanın səsi doğulduğu şəhərdə. Qarabağda, Şuşada qəmli-qəmli dolaşdı onun ruhu. Səbirsizliklə doğma yurdu Qarabağın, Şuşanın azad olacağı günü gözlədi. Azərbaycan əsgərinin Xarıbülbül möcüzəli Qələbə sorağı susqun nəğməkarın nisgilli ruhunu da şad elədi.

Şuşada yenidən ucalır Xanın səsi, çünki artıq şəhərin başı üstündə əsarət dumanı yoxdur.

*Zülfiyyə QURBANƏLİQIZI, "Xalq qəzeti"*

## Fəridin hədəfləri böyükdür

**Azərbaycanlı məktəblilər Londonda keçirilən beynəlxalq riyaziyyat olimpiadasında yüksək nəticələr göstəriblər. Ölkənin istedadlı şagirdləri "Global Olympic Center"in təşkil etdiyi IMEC riyaziyyat yarışmasında 5 kateqoriya üzrə mübarizə aparıblar.**



38 ölkənin təmsilçiləri arasında ən çox medal qazanan Azərbaycan komandası olub. Məktəbli riyaziyyatçılarımız 13 qızıl, 18 gümüş, 14 bürünc medala layiq görülüblər. Hər kateqoriya üzrə ən yüksək nəticə göstərən şagirdlər tam və 50 faizlik güzəştlə Kembric Universiteti nəzdində "International Well Rounded School"da təhsil almaq imkanı qazanıblar.

Olimpiadada qızıl medal qazanan 14 yaşlı Fərid Həsənzadə Cəbrayıl rayonu Böyük Mərcanlı kənd tam orta məktəbin IX sinif şagirdidir.

Fəridlə söhbət zamanı bəlli oldu ki, bu onun beynəlxalq olimpiadalarda ilk uğuru deyil. Sinqapurda qızıl, Tayland və Amerikada isə brünc medal qazanıb.

Qalib məktəblimiz bildirdi:

–Hər dəfə medal qazananda həvəslənirəm. Olimpiadalara hazırlaşmaq dərslərimi oxumaq üçün əlavə maraq yaradır. Londonda Harrov məktəbində 1 həftə müddətində həm yarışda iştirak etdik, həm də şəhərdə gəzdik. Biq Bendə, Harri Poter Muzeyində və bir çox başqa yerlərdə olduq.

Kompüter mühəndisliyi sahəsi mənə maraqlı gəlir. Buna görə də riyaziyyat, fizika,informatika kimi fənləri daha yaxşı öyrənirəm. İstərdim ki, nüfuzlu universitetlərdən birinə qəbul olub, yüksəkixtisaslı mütəxəssis olum.

Yeniyetmə soydaşımıza yeni uğurlar və istəklərinə çatmalarını arzu edirik.

*Rüfət MƏHƏRRƏMOV*

Sağlamlıq

## Tənhalıq da xəstəlikdir

**Avropa Kardioloqlar Cəmiyyətinin alimləri tənhalığın yüksək risklə ürək-damar xəstəliklərinə səbəb olduğu qənaətinə gəliblər. Onların fikrincə, tənhalıq siqaret, içki, depressiya və pəhriz qədər təhlükəlidir.**



Luiziana ştatının Yeni Orlean şəhərindəki Tuleyn Universitetinin əməkdaşı Lu Çinin fikrinə görə, sosial ünsiyyət ürək sağlamlığı üçün vacibdir. Xüsusən, yaşlı insanlar və diabet xəstələri tənha qalmamalıdır. O, deyib ki, fiziki və emosional sağlamlıq üçün tənhalıqdan çıxıb, müəyyən qruplara qoşulmaq lazımdır: "Diabet xəstələrinə tövsiyə edərdim ki, ümumi maraqları olan, ya da eyni diaqnozlu xəstələrlə ünsiyyət qrupları yaratsınlar, dərnəklərə, klublara getsinlər".

Bu məqsədlə aparılan tədqiqatda iştirak edən 18 min nəfər 37–70 yaş arası britaniyalının tənhalıq və ünsiyyət dəyərləri, fiziki fəallığı, bədən çəkisi, dərman və xəstəlikləri, zərərli vərdişləri və tibbi analizləri qeydə alınıb.

Nəticələr göstərib ki, 10 il ərzində 3 min 500 insanda ürəyin işemik xəstəliyi, infarkt və insult yaranıb. Müəyyən olunub ki, tənhalıq üzrə ən yüksək balı alanlarda ürək xəstəliyinin inkişafı daha çox olub.

*Z.HÜSEYNLİ, "Xalq qəzeti"*

Proqnoz



## Bəzi yerlərdə arabir yağış yağacaq

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən, avqustun 20-də Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Gecə və səhər yarımadanın bəzi yerlərində yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək. Gecə 21-26°, gündüz 31-36° isti olacaq. Atmosfer təzyiqi norma daxilində 760 mm civə sütunu,nisbi rütubət gecə 60-65 , gündüz 40-45 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu:Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 25-26°,Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 27-28° isti olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacaq, dolu düşəcəyi ehtimalı var. Axşam yağıntılar tədricən kəsiləcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-24°, gündüz 30-35°, dağlarda gecə 10-15°, gündüz 18-23° isti olacaq.

*Q. QASIMOV, "Xalq qəzeti"*

Maraq dünyamız

## Türkiyədə turist velosiped yolları

**Türkiyədəki qısa və uzun məsafəli velosiped yolları ölkənin təbii gözəllikləri, tarixi, mədəniyyəti və mətbəxilə yaxından tanış olmaq üçün əlverişli imkanlar yaradır. Milli və beynəlxalq ekoetiketləri özündə əks etdirən marşrutlara düşərgə və çadır sahələri, təhlükəsiz saxlama yerlərində velosipedlərin təmizlənməsi və təmiri xidmətlərini göstərən "velosiped dostu" adlı otellər daxildir.**



Türkiyənin uzun məsafəli velosiped marşrutlarından biri də Berqamadan Efesə gedən "UNESCO marşrutu"dur. Antik Perqamon Şəhəri İzmirin Dikili Limanından Türkiyəyə daxil olan bu marşrutun 45-ci kilometrindəki ilk dayanacaq hesab olunur. Marşrut İzmirin Quş Cənnəti, Karşıyaka, Alsancak, Seferihisar, Sığacık, Urla və Alaçatı kimi gözəl yerlərindən keçərək UNESCO-nun Ümumdünya Mədəni İrsi siyahısına daxil olan antik Efes şəhərində sona çatır.

İstanbula qədər uzanan "Trakya marşrutu"u isə bu məkanın təbii gözəllikləri, dadlı təamları, üzüm bağları, əfsanəvi şərabları və mehriban insanları ilə seçilən Ədirnədən başlayır. Osmanlı İmperatorluğunun ikinci paytaxtı olan bu şəhər, karvansaralar, hamamlar, körpülər və saraylar kimi tarixi tikililərlə məşhurdur və Trakya bölgəsinin mərkəzi sayılır.

*S. FİDAN*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4857
SİFARİŞ 2066
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
İmran BƏDİRXANLI

Çapa imzalanmışdır 00:00